Xalid MAHMUD

# Danışan şəkillər...



"APOSTROF-A"
BAKI – 2022

REDAKTOR: Qədiməli ƏHMƏD

MƏSLƏHƏTÇİ: Teymur AĞAYEV

*Kitabın çap olunması üçün göstərdikləri maddi dəstəyə görə Güləli Qasımov, İmran Ağayev, Baləli Ağayev, Bilal Əliyev, Camal Əliyev, Cahid Rüstəmov, Rafət Əliyev, Seymur Ağayev, Maqsud Kərimov, Murad Ağayev, Vaqif Ağayeva təşəkkürümüzü bildiririk.*

**Xalid MAHMUD.**
M15 **"DANIŞAN ŞƏKİLLƏR".** Bakı, **"APOSTROF-A". 2022, - səh 158.**

**ISBN 978-9952-527-71-1**

Bu kitabda Azərbaycan torpaqları uğrunda canından keçərək şəhidlik zirvəsinə ucalan Cəbrayıl Atamalı oğlu Ağayevin keçdiyi həyat yolu, döyüşlərdə göstərdiyi şücaətlər və onun haqqında ayrı-ayrı qələm adamlarının, yaxınlarının, dostlarının, döyüş yoldaşlarının fikirləri öz əksini tapmışdır. İnanırıq ki, bu kitab oxucuların maraq dairəsinə uyğun bir kitab olacaq...

**Kitabın istifadəsiylə bağlı bütün müstəsna hüquqlar müəllifə məxsusdur.**

**© Xalid MAHMUD, 2022**

## QƏHRƏMANLAR DİYARI LERİK

Lerik rayonu Azərbaycanın ən qədim yaşayış məskənlərindən biridir. Tarix bu topaqlarda addım atarkən ayaq izlərini hər daşda, qaya parçasında saxlamışdır. Buradakı əsrarəngiz təbiət, göz oxşayan meşələr, yallar, yaylaqlar sirlərini nə qədər gizlətsə də, insan oğlu əsrlər keçdikcə bu sirlərə vaqif olmuşdur. İndinin özündə də qədim Lerik torpağının dərin tarixini öyrənmək üçün səylər edilir, bir-birindən dəyərli tədqiqat işləri aparılmaqdadır. Buradakı mağaralardan əldə olunan nümunələrin bəzilərinin tunc dövründən də əvvəllərə aid olması ehtimal olunur. Dünyanın görkəmli alimləri də bu barədə düşünmüşlər. Arxeoloq Hümmel mağaraları neolit (yeni daş dövrü) dövrünə aid edir. O və başqa alimlər də buranın dağlarında eramızdan əvvəl III-II minilliklərə aid maddi mədəniyyət abidələrinin mövcudluğu barədə fikirlər irəli sürmüş, tədqiqatlar aparmışlar.

Lerik 29 inzibati ərazi vahidi, 1 şəhər olmaqla, 161 yaşayış məntəqəsinə malikdir.

Lerik rayonu tarixin bütün dövrlərində Azərbaycanın ictimai-siyasi, iqtisadi, maddi-mədəni, elm və təhsil sahələrində aparıcı rola malik olmuşdur.

Hələ Arərbaycanda maarifçiliyin təşəkkül tapdığı ilk illərdə (XVIII-XIX illər) Lənkəran qəzasının tərkibinə daxil olan Lerikdə bir çox din xadimləri yetişmişdir ki, təkcə ölkəmizdə deyil, digər ölkələrdə də məşhur olmuşlar.

Lerik rayonu tarix boyu həm də qəhrəman övladları ilə tanınmış və tarixə bir çox qəhrəmanlar bəxş etmişdir.

Faşizm üzərində tarixi qələbənin əldə edilməsində leriklilərin də xidməti az deyildir. 1941–1945-ci illərdə Lerik rayonundan 6500 nəfər cəbhəyə yola salınmışdır. Onlardan 1584 nəfəri həlak olmuş, 3314 nəfəri müxtəlif dərəcədə yaralanmışdır. 600 nəfərdən çox lerikli orden və medallarla təltif edilmişdir. Onların arasında Stalinqraddan Berlinə qədər döyüş yolu keçmiş bir çox şəxslər olmuşdur. Belə qəhrəman oğullar yetişdirən Lerik qəhrəmanlarıyla hər zaman fəxr etmiş, tarixin bütün dövrlərində başını dik tutaraq adını tarix səhifələrinə qızıl hərflərlə yazmışdır.

1990-cı ildə yurdumuzun üstünü qara buludlar alanda Lerik rayonu yenə də qəhrəman oğulları ilə birinci sıralarda idi. Lerik rayonu 1-ci Qarabağ savaşında iki yüzə yaxın şəhid və itkin verərək tarixin ağrılı səhifələrinə adını yazmışdır. Həmin şəhidlərin arasında **Valeh Müslümov, Fəxrəddin Şahbazov, Rövşən Abdullayev, Fərhad Ağayev, Əsgər Əliyev** Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

Lerikin vətənpərvər övladları Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağa göz dikən erməni qəsbkarlarına qarşı mərdliklə mübarizə aparmış və bu yolda canlarından keçərək şəhidlik zirvəsinə ucalmışlar.

2020-ci ildə 2-ci Qarabağ müharibəsi başlayanda yenə də minlərlə lerikli gənc silaha sarılaraq vətənin müdafiəsinə qalxmış, orduda xidmət aparan yüzlərlə zabit, gizir

və əsgər döyüşərək şücaətlər göstərmiş, düşmənə sarsıdıcı zərbələr endirmişlər. Azərbaycanın bu haqq savaşında Lerik rayonu 60-dan çox şəhid verərək adını yenidən tarixin qəhrəmanlıq səhifəsinə həkk etmişdir. Həmin igidlərdən Amid Heydərov Vətən Müharibəsi Qəhrəmanı adına, bir çoxları isə ən yüksək orden və medallara layiq görülmüşdür.

## ŞİVLƏ – YURD YERİM, DOĞMA DİYARIM

Hər bir insana doğulduğu, müqəddəs torpağı üstündə ayaq açdığı, boya-başa çatdığı kənd doğma olur. Harada yaşamasından asılı olmayaraq, bu doğmalıq insan ömrünün sonuna qədər onunla bərabər olur. Mənim üçün də belədir. Nə qədər vətənimiz Azərbaycan mənə doğmadırsa, doğulub, boya-başa çatdığım, təmiz havasından udduğum, saf sularından içdiyim **Şivlə kəndi** də bir o qədər doğmadır. Şair Qədiməli Əhmədin sözləri ilə desək:

**Güvəndiyim ocaq, sevdiyim torpaq,**
**Dağların qoynunda tutmusan qərar.**
**Mənim ər babamın yuvası-yurdu –**
**Sənin yaşın dərin, tarixin dərin,**
**Sənin hər daşında bir qərinə var.**

Şivlə kəndi Lerikin qədim yaşayış məskənlərindən biridir. Rayon mərkəzindən qərbdə yerləşir. Osyodərə inzibati ərazisinə daxildir. Əhalisinin sayına görə ərazidə üçüncü kənddir (538 nəfər). Əhalisinin əsas məşğuliyyəti əkinçilik və maldarlıqdır. Deyilənlərə görə, uzaq keçmişdə hazırkı Şivlə Yuxarı Şivlə və Aşağı Şivlə adlarında iki kənddən ibarət olmuşdur. Məlum olmayan səbəblərə görə Yuxarı Şivlə sonralar Biləvər adı ilə əvəzlənmişdir. Bu kitabda haqqında bəhs etdiyimiz yaşayış məskəni Aşağı Şivlədir. İndiki Şivlə və Biləvər kəndlərini kiçik bir təpə ayırır. Bu iki kənd arasındakı yaxınlıq, doğmalıq uzunömürlüdür. Şivlə kəndi zəngin tarixi, maddi-mədəni abidələri ilə seçilir. Yaşıl ormanlar, sərin çeşmələr, əsrarəngiz təbiət gözəllikləri qəlb ovsun-



Şivlə kəndi.

layır. Şivlə həm də ziyalı şəxsləri və ən əsası qəhrəman oğulları ilə də seçilir. Kəndin adı qədim ərəb mənbələrində **Şiblə** kimi qeyd olunur. Mənası övliya, müqəddəs deməkdir. Burada olan müqəddəs abidə kəndin adı ilə uyğunluq təşkil edir.

Faktiki arxeoloji materiallara əsaslanıb demək olar ki, kənd ərazisində insanlar əsasən XIV əsrdən məskunlaşmağa başlamışlar. Belə ki, kənddə yerləşən **"Qəqə Hüseyn"** (zənnimizcə haqqında bəhs etdiyimiz türbə uzaq keçmişdə **Şiblə** adlanmışdır, kəndin adı da **Şiblə** əsasında formalaşmışdır) türbəsindəki arxeoloji araşdırmalar zamanı tapılan maddi-mədəniyyət nümunələri kəndin Səfəvilər dövrünə aid olduğunu deməyə əsas verir.

Bəzi tarixi mənbələr də kənddə məskunlaşan sakinlərin şəcərəsinin Səfəvilərə bağlılığını qeyd edir. Kənddə din xadimlərinin çoxluğu bu kənddə yaşayan insanların islam ənənələrinə daha çox bağlılığını göstərir. Dini ayinlərin geniş şəkildə qeyd olunması bu kənddə islamçılığın çox müqəddəs olmasına əsas verir. Kənddəki abidənin ətrafında olan bəzi daş kitabələrin varlığı həmin abidənin daha qədimliyinə əsas verir. Kəndin tarixinin qədim olduğunu göstərən qoç heykəlləri üzərindəki işarələr daha qədimlərə gedir. Bu tarixi araşdırmalarda Ağqoyunlular dövrü də istisna deyil.

Kəndin ərazisində hələ tarixçilər tərəfindən araşdırılmayan **Havzava ocağı, Sütə tıbə, Kələndül** qəbiristanlıqları, **Diqo, Qəznəlü** qədim oykonimləri, küp qə-

birlər, **Qosmoni, Kəqoni, Sardoni, Honiədül** qədim bulaqları, **Şotalaton, Həmoni, Xınasığ, Zəjəker** və sair kimi yer adları da mövcuddur.

Şivlə kəndi Lerik rayonunun kəndləri arasında dini maarifçiliyin ən çox inkişaf etdiyi kəndlərdən biridir. Kənddə ilk dini məktəbin əsasını təqribən XIX əsrin sonu, XX əsrin əvvəllərində dövrünün tanınmış din xadimlərindən sayılan, təkcə Şivlə kəndində deyil, bölgədə də böyük nüfuz sahibi olan **Molla Həmid** qoymuşdur.

Molla Həmidin babası Lənkəran xanının Purnəim mahalındakı elçisi olmuşdur. Oğlu Hüseyn atasının səyi və qayğıları nəticəsində öz dövründə müəyyən biliklərə yiyələnmiş, elmi-ürfanı öyrənən şəxsiyyətlərdən sayılır.

Kəndin nüfuzlu din xadimlərindən sayılan **Mahmudəli Ağayev** (Mirzə Mahmud), **Hidayət Kərimov** (Molla Hidi), **Polad Yoldaşov** (Molla Polad) da ilk dini təhsillərini həmin məktəbdə almışlar. İlk təhsillərini Molla Həmiddən alan bu insanlar sonralar dövrün digər tanınmış şəxsiyyətlərindən olan Molla Hüseyn və Şeyx Qələm axunddan da təhsil alaraq elmlərini genişləndirmiş və müəllimlərinin yolunu davam etdirərək onlar da bir çox din xadimləri yetişdirmişlər. Hazırda Kərbəlayi **Axund Rizvan Molla Mahmudəli** oğlu Ağayev kəndin ən savadlı və hörmətli din xadimi kimi tanınır.

1935-ci ildə kənddə ilk talışdilli məktəb yaradılıb. İkinci Dünya Müharibəsinədək fəaliyyət göstərən bu məktəb müharibə dövründə bağlanmış, müharibə bit-

dikdən sonra həmin məktəbin əsasında qonşu Biləvər kəndində Azərbaycan dilli məktəb açılmış və kəndin sakinləri həmin məktəbdə təhsil almışlar. Hazırda Şivlə kəndində dördillik ibtidai məktəb fəaliyyət göstərir.

***Ey ana torpağım, müqəddəs yurdum,***
***Səndə addım atdım, ayaqda durdum.***
***Qoynunda min arzu, min xəyal qurdum,***
***Qəlbimin ən şirin sözüsən, Şivlə!***

***Qəhrəman oğlun var – Cəbrayıl, Fərhad,***
***Hər biri tarixdə qoyubdur bir ad.***
***Əmrah qucağında açmışdı qanad,***
***Sən mənim ruhumun özüsən, Şivlə!***

***Qadiri unutmaq olarmı, çətin...***
***Düşmənin önündə dayandı mətin.***
***İgid oğullardı varın, dövlətin,***
***Dağlar diyarının gözüsən, Şivlə!***

***Namiqtək, Tərlantək qəhrəmanların,***
***Vətənin yolunda verib canların.***
***Fikrimdə tikdiyim xanimanların,***
***Ucalan dağısan, düzüsən, Şivlə!***

***Bir gün dilə gəldi əldə qələm də...***
***Yazıb vəsf eylədim yurdumu mən də.***
***Alimin, Zaurun ruhu var səndə,***
***Babamın ən qədim izisən, Şivlə!***

Şivlə kəndi Lerik rayonun mərkəzindən təqribən 25 km. aralı məsafədə yerləşir. Bu kənd özünun qədim tarixi ilə tanınmaqla bərabər, Biləvər, Geskon, Osyo-dərə və Çeşman kəndləri ilə həmsərhəddir.

Şivlə kəndinin sakinləri əsasən 3 nəslin törəmələrindən ibarətdir.

<u>Ocaqverdivandlar nəsli:</u>

- Bu nəsil Ocaqverdi kişidən törəmiş nəsildir. Nəslin Səfəvilərlə bağlı olduğunu deyənlər də var. Nəslin Əhli-beytə(ə.s) bağlılığı da bunu deməyə əsas verir. **Allahverdi, Məmmədəli, Kərbəlayi Ağalı, Əhmədəli, Lütfəli, Fərəc, Qasım, Məmmədrza, Ağarza, Şirinəli, Ağahəsən, Molla Mahmudəli Əhmədəli oğlu Ağayev, Usta Ocağəli Əhmədəli oğlu Ağayev** nəslin hörmətli ağsaqqalları olmuşlar. Əhmədəli kişi II Dünya Savaşında iştirak etmiş və müharibədən qayıtmamışdır.

Bu gün kənddə Ağayev, Həsənov və Məmmədov soyadlarını daşıyanlar bu nəslin nümayəndələridir. **Molla Mahmudəli** Əhmədəli oğlu Ağayev dövrünün tanınmış din xadimi olmuşdur. Qardaşı **Ocaqəli Ağayev** isə öz dövrünün məşhur dülgəri və bənnası kimi tanınmışdır.

**Molla Bürhan Ağayev, Kərbəlayi Molla Rizvan Ağayev, İslam Ağayev, Qədiməli Əhməd, İmran Ağayev, Şəmşad Ağa** nəslin sayılıb-seçilən ziyalılarındandır. Kərbəlayi **Molla Rizvan** Ağayev rayonda tanınmış din xadimi kimi böyük hörmət sahibidir. AYB-nin üzvü, Beynəlxalq Rəsul Rza mükafatı laureatı, şair-publisist, nasir **Qədiməli Əhməd** respublikada tanınan ziyalıdır.

Şair-jurnalist **Şəmşada Ağa** ölkə mediasında nüfuzlu söz sahiblərindən biridir.

İkinci Cahan Savaşından əvvəl keçmiş milis orqanlarında işləyən zabit **Yədulla Əliyev** də **Ocaqverdivandlar** nəslinin nüfuzlu ziyalılarından sayılmışdır. O, adını çəkdiyim savaşda hissə komandiri kimi fəaliyyət göstərmiş, cəsur və qorxmaz zabit kimi döyüşlərdə savaşmışdır. 1945-ci ilin 10 martında Yədulla Əliyevin cəbhədən sonuncu məktubu gəlmiş və məktubların ardı kəsilmişdir. Qədiməli Əhməd **"Xatirəyə dönən illər"** romanında Yədulla Əliyevin cəbhə taleyindən bəhs etmişdir.

Vətən torpaqları uğrunda canlarından keçən Azərbaycanın Milli Qəhrəmanı **Fərhad** İslam oğlu Ağayev, şəhid baş gizir **Cəbrayıl** Atamalı oğlu Ağayev, şəhid **Əmrah** Salman oğlu Məmmədov, şəhid **Zaur** Kamil oğlu Ağayev də bu nəslin övladlarıdır.

**<u>Hətəmvandlar nəsli:</u>**

**-** Bu nəsil Hətəm kişidən törəmiş nəsildir.Dini inanc etibarilə islama bağlı olan bu nəsil bu gün də Əhlibeyt(ə.s.) ayinlərinə bağlıdır. **Səfiəli, Hsənəli, Mübali, Hacıəli, Kərbəlayi Bəşir, Fətəli, Bahad, Abdin** nəslin hörmətli ağsaqqalları olmuşlar. Bu gün nəslin əsasını Əliyev soyadını daşıyan insanlar təşkil edir. Kiçik bir hissəsi isə Məmmədov soyadı ilə tanınır. Tarixçi-araşdırmaçı jurnalist **Gülməmməd Məmmədzadə** də bu nəslin tanınmış ziyalısıdır. G.Məmmədzadə AYB-nin üzvü olmuş, Azərbaycan Jurnalistlər Birliyinin, "**Afrika-Asya"** Beynəlxalq Xeyriyyə Cəmiyyətinin, Qafqaz Müsəlman-

ları Ali Ruhani İdarəsinin Elmi-Dini Şurasının diplomlarına layiq görülmüşdür. O, “**Lənkəran mahalının sərkərdələri”** kitabı ilə ilk dəfə olaraq talış bölgəsinin tanınmış sərkərdələri haqqında sanballı bir kitab yazaraq oxucuların ixtiyarına vermişdir. G. Məmmədzadə 1996-cı ildə vəfat etmişdir.

Hazırda nəslin ağsaqqalı **Surət Abdin oğlu Əliyevdir**. Surət Əliyev Sovet hökuməti illərində uzun müddət mağaza müdiri kimi fəaliyyət göstərmiş, müstəqillik dövründə isə bir müddət kəndin bələdiyyə sədri vəzifəsində işləmişdir.

Qarabağ döyüşlərində qəhrəmancasına şəhid olan **Qadir** Ağababa oğlu Əliyev və **Namiq** Gülbaba oğlu Əliyev də bu nəslin nümayəndələridir.

**Pirverdivandlar nəsli:**

**-**Pirverdi kişidən törəyən bu nəsil Peyğəmbər(s) ailəsinə bağlığı ilə tanınmış, və bir çox din xadimləri yetişdirmişdir. Purnəim nahiyəsində ilk dini məktəbin əsasını qoyanlardan olan **Molla Həmid**, **Kərbəlayi Süleyman, Bünyad, Yoldaş, Qardaş, Heydər, Kərəməli, Tilim, Mürsəl Rüstəmov, Molla Hidi, Molla Polad, Xosrov, Tağı Hüseynov, Babiş Rüstəmov** bu nəslin hörmətli ağsaqqalları olmuşlar. Molla Hidi Kərimov və Molla Polad Yoldaşov dövrünün tanınmış din xadimlərindən dini təhsil almış, kəndin hörmətli şəxslərindən sayılmışlar. **Mürsəl Rüstəmov** uzun müddət kənd sovetinin katibi, **Babiş Rüstəmov** kolxoz sədri kimi fəaliyyət göstərmişlər. Bu nəslin nümayəndəsi olan şair **Fail Almas** mətbuat orqanlarında əsərləri ilə müntəzəm çıxışlar edir.

**Tahir Hüseynov** bir müddət aktyor kimi fəaliyyət göstərmiş, hazırda xırda bizneslə məşğuldur. **Bəxtiyar Kərimov** isə hazırda jurnalistika ilə məşğuldur. **Cavid Hüseynov** hidrometroloq kimi fəaliyyət göstərir.

Bu gün kənddə Yoldaşov, Rüstəmov, Kərimov, Hüseynov və Əkbərov soyadlarını daşıyanlar bu nəslin nümayəndələridir.

Birinci Qarabağ savaşında itkin düşmüş **Tərlan** Kamal oğlu Rüstəmov və 44 günlük Vətən Müharibəsində şəhidlik zirvəsinə ucalmış **Alim** Mirzə oğlu Yoldaşov da bu nəslin övladlarıdır.

Şivlə üzunömürlülər kəndi kimi də tanınır. Kənddə 130 il yaşamış insanlar olmuşdur. Hazırda bu kənddə yaşı 100-ü haqlamış insanlar var.

Kəndin 40-dan çox sakini II Dünya Müharibəsinin iştirakçısı olmuş, onlardan 22 nəfər müharibədən qayıtmamışdır. Baş leytenant **Əliyev Yədulla Qasım oğlu** (müharibədən əvvəl Yardımlı Rayon Milis Şöbəsində zabit, Lerik Rayon Milis Şöbəsində pasport şöbəsinin rəisi olmuşdur), **Kərimov Şahverən Süleyman oğlu** (müharibədən əvvəl kənd sovetinin sədri vəzifəsində çalışmışdır). **Hüseynov İbiş Həmid oğlu** müharibə dövründə zabit kimi Stalinqrad, Kırım, Kerç və s. cəbhələrdə xidmət etmişdir.

Şivlə kəndində Lerikin Böyük Orand kəndindən köçüb gəlmiş, Fətullayev soyadını daşıyan bir ailə də yaşayır. Həmin ailənin ağsaqqalı **Pişan Fətullayev** olmuşdur. Bu gün bədii-qiraət ustası kimi tanınan **Tarix Vüsallı** da həmin ailənin nümayəndəsidir.

Keçmiş sovet hökuməti dağıldıqdan sonra Azərbaycan yenidən öz müstəqilliyinə qovuşdu. Məlum məsələdir ki, bu müstəqillik şəhidlərimizin qanları bahasına başa gəlmişdir. Şivlə kəndi də Qarabağ müharibəsində 8 şəhid vermişdir. Lerik rayonunun beş milli qəhrəmanından biri də məhz Şivlə kəndindən olan **Fərhad** İslam oğlu Ağayevdir.

**FƏRHAD İslam oğlu Ağayev**

-4 avqust 1975-ci ildə Lerik rayonunun Şivlə kəndində anadan olub. Sonradan ailəsi ilə birlikdə Sabirabad rayonunun Əlilənbəyli kəndinə köçərək burada yaşamışdır. O, 1992-ci ildə Əlilənbəyli kənd məktəbini bitirmiş, 1993-cü ildə Sabirabad Rayon Hərbi Komissarlığı tərəfindən milli ordu sıralarına çağırılmışdır.

İlk döyüşə Füzuli rayonunun Seyidəhmədli kəndində başlayan F. Ağayev Murovdağ, Güzgü, Ömərdağ kimi əhəmiyyətli ərazilərin müdafiəsində yaxından iştirak edərək igidliklər göstərir. O, həm də Prezident Qvardiyasında xidmət edirdi.

Fərhad Ağayev 1995-ci ilin mart ayında qəhrəmancasına şəhid olub. Sabirabad rayonundakı şəhidlər xiyabanında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 sayılı fərmanı ilə Ağayev Fərhad İslam oğlu ölümündən sonra ***"Azərbaycanın Milli Qəhrəmanı"*** adına layiq görülüb. Bitirdiyi orta məktəb onun adını daşıyır. Sabirabad və Lerik rayonlarında, eləcə də, Əlilənbəyli kənd orta məktəbinin həyətində Fərhad Ağayevin büstü qoyulub.

<u>QADİR Ağababa oğlu Əliyev</u>

-1973-cü ildə Lerik rayonun Şivlə kəndində anadan olub. Sonralar onların ailəsi Biləsuvar rayonunun Aşağı Cürəli kəndinə köçərək burada məskunlaşır.

Qadir Əliyev 1980-ci ildə Aşağı Cürəli kənd orta məktəbin birinci sinfinə daxil olaraq məktəbi burda bitirir. Biləsuvarda məskunlaşmalarına baxmayaraq, Qadirin doğulduğu Şivlə kəndi ilə əlaqələri kəsilmir. Demək olar ki, Qadirin ömrünün çox hissəsi doğulduğu Şivlə kəndində keçir.

Orta məktəbi bitirdikdən sonra keçmiş Sovet ordusu sıralarına çağrılaraq Qorki şəhərinə göndərilir. 1992-ci ildə xidmətini yarımçıq saxlayaraq Vətənə qayıdan Qadir Əliyev könüllü olaraq milli ordu sıralarına yazılır. Qadir Kəlbəcər rayonunun müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak edir və şücaətlər göstərir. 1994-cü il fevral ayının 13-də Kəlbəcər rayonu uğrunda gedən döyüşlərdə ağır yaralanaraq qəhrəmancasına şəhid olur. Şəhidin cənazəsi Biləsuvar rayonuna gətirilərək torpağa tapşırılır.

<u>TƏRLAN Kamal oğlu Rüstəmov</u>

-21 mart 1974-cü ildə Lerik rayonunun Şivlə kəndində anadan olub. 1981-ci ildə Biləvər kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1992-ci ildə həmin məktəbi müvəffəq qiymətlərlə bitirir. 1992-ci ilin iyul ayında Lerik Rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılan Rüstəmov Tərlan cəbhə bölgəsinə yola salınır.

Döyüş yolu Ağdərə cəbhəsindən keçir. Ağdərə böl-

gəsində gedən döyüşlərdə şücaətlər göstərir. Son dö-yüş yeri də Ağdərə rayonunun Sırxavənd bölgəsi olur. Tərlan Rüstəmov 10 sentyabr 1992-ci ildə Ağdərə ra-yonunun Sırxavənd bölgəsi uğrunda gedən döyüşlər zamanı itkin düşür. 2011-ci ildə Lerik Məhkəməsi tərəfindən Tərlan Rüstəmova şəhid statusu verilib.

NAMİQ Gülbaba oğlu Əliyev

-17 mart 1974-cü ildə Lerik rayonunun Şivlə kəndində anadan olub. 1981-ci ildə Biləvər kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1992-ci ildə həmin məktəbin on birinci sinfini bitirib. Lənkəran şəhərindəki Texniki Peşə Məktəbində 6 aylıq kurs keçərək sürücülük peşəsinə yiyələnib.

1992-ci ilin iyul ayında Lerik Rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılan Namiq cəbhə bölgəsinə yola salınır.

Döyüş yolu Ağdərə cəbhəsindən keçir. Ağdərə bölgəsində gedən döyüşlərdə xüsusi fəallıq göstərir. Son döyüş yeri də Ağdərə rayonunun Sırxavənd bölgəsi olur. O, həmkəndlisi və eyni sinifdə oxuduğu Tərlan Rüstəmovla cəbhə yoldaşı idi.

Namiq Əliyev 10 sentyabr 1992-ci ildə Ağdərə rayonunun Sırxavənd bölgəsi uğrunda gedən döyüşlər zamanı itkin düşür.

2011-ci ildə Lerik Məhkəməsi tərəfindən Namiq Əliyevə şəhid statusu verilib.

ƏMRAH Salman oğlu Məmmədov

-06 may 1975-ci ildə Lerik rayonunun Şivlə kəndində anadan olub. 1982-ci ildə Biləvər kənd orta

məktəbin birinci sinfinə daxil olub, 1993-cü ildə həmin məktəbin on birinci sinfini bitirib.

Əmrah Lənkəran şəhərindəki Texniki Peşə Məktəbində 6 aylıq kurs keçərək sürücülük peşəsinə yiyələnir. 1993-cü il oktyabr ayının 21-də Lerik Rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq cəbhə bölgəsinə yola salınır. Döyüş yolu Füzuli cəbhəsindən keçir. Tank briqadasında xidmətə başlayan Əmrah Füzuli rayonu uğrunda gedən döyüşlərdə xüsusi fəallıq göstərir, düşmənin bir çox canlı qüvvəsini və hərbi texnikasını sıradan çıxarır.

Son döyüş yeri Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi olur. 1994-cü il yanvar ayının 11-də Füzuli rayonunun Aşağı Əbdürrəhmalnı kəndi uğrunda gedən döyüşlər zamanı idarə etdiyi tankla düşmənin müdafiə xəttini yarır, lakin bu döyüşdə onun tankı vurulur. Özü haqqında isə heç bir məlumat almaq mümkün olmur.

Lerik Rayon Məhkəməsi tərəfindən Əmrah Məmmədova şəhid statusu verilib.

**ZAUR Kamil oğlu Ağalı**

-11 dekabr 1996-cı ildə Lənkəran şəhərinin İstisu qəsəbəsində anadan olub. Əslən Lerik rayonunun Şivlə kəndindəndir. Zaur 2003-cü ildə Rəsul Qurbanov adına İstisu qəsəbə orta məktəbin birinci sinfinə daxil olur. 2014-cü ildə həmin məktəbin 11-ci sinfini bitirir.

2015-2016-cı illərdə Milli Ordu sıralarında hərbi xidmətdə olur.

27 sentyabr 2020-ci ildə Qüdrətli Azərbaycan ordusu düşmən tapdağında olan torpaqlarımızın azadlığı

uğrunda mübarizəyə başlayır. Zaur da könüllü olaraq döyüşlərdə iştirak edərək vətən torpaqlarını canı və qanı bahasına qorumağa çalışır.

Zaur Ağalı 22 oktyabr 2020-ci ildə Zəngilan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olur. Şəhidin üçrəngli Azərbaycan bayrağına bürünmüş nəşi yaşadığı İstisu qəsəbəsinə gətirilərək ehtiramla torpağa tapşırılır.

Azərbaycan Prezidentinin sərəncamına əsasən Zaur Kamil oğlu Ağalı ölümündən sonra "**Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə"** və **"Qubadlının azad olunmasına görə"** medalları ilə təltif edilir.

<u>ALİM Mirzə oğlu Yoldaşov</u>

-10 mart 1997-ci ildə Biləsuvar rayonunun Nəsimi kəndində anadan olub. Əslən Lerik rayonunun Şivlə kəndindəndir. Alim 2015-ci ildə Biləsuvar Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə yola salınır. 2016-cı ildə "Aprel döyüşləri" zamanı Tərtər rayonu istiqamətində gedən döyüşlərdə iştirak edir. Onun xidmətləri qiymətləndirilir və**"Təşəkkürnamə"** ilə təltif edilir. 2016-cı ilin oktyabr ayında ordudan tərxis edilir.

27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlayanda Alim də könüllü cəbhəyə yollanır. Xocavənd və Hadrut istiqamətində gedən döyüşlərdə düşmənə qarşı rəşadətlə döyüşərək şücaətlər göstərir.

Alim Yoldaşov 27 oktyabr 2020-ci ildə Füzuli rayonunun azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olur.

Azərbaycan Prezidenti tərəfindən ölümündən son-

ra **"Vətən uğrunda"**, **"Füzulinin azad olunmasına görə"** və **"Cəsur döyüşçü"**medalları ilə təltif edilmişdir.

Bu gün Şivlə kəndi yetişdirdiyi bu qəhrəman vətən övladları ilə öyünərək fəxr edir.

Haqqında kitab yazacağım **Cəbrayıl Atamalı oğlu Ağayev** də məhz vətənə bu cür qəhrəmanlar bəxş edən Şivlə kəndində böyüyüb, boya-başa çatmışdır.

## BİR OCAĞIN İZİ İLƏ...

***"Ataların övladları üçün qoyduqları mirasın ən şərəflisi elm və ədəbdir"***

***Həzrət Əli(ə.s)***

İstənilən bir insan haqqında məlumat almaq üçün ilk öncə onun doğulduğu ailə, mənsub olduğu nəsil şəcərəsinə diqqət yetirilir. Çünki dünyanın ən ali varlığı olan insan ilk öncə genetik kodlarının daşıyıcısı olur, daha sonra isə mənsub olduğu ailədə formalaşır. Təbii ki, insanı alilləşdirən bir çox amillər vardır ki, bunların da əsasında yenə ailə faktoru dayanır.

Şəhid Cəbrayıl Ağayev haqqında kitab yazarkən də ilk növbədə onun doğulub boya-başa çatdığı ailə, mənsub olduğu nəsil şəcərəsi, formalaşdığı mühit haqqında kiçik bir araşdırma apardım. Şəhidin atası Atamalı kişi

öz dövrünün ən hörmətli, sayılıb-seçilən insanlarından olmuşdur.

**Atamalı Mahmudəli oğlu Ağayev** 1933-cü ildə Lerik rayonunun Şivlə kəndində dünyaya gəlmişdir. Atası **Mahmudəli** kişi dövrünün tanınmış din xadimi kimi rayonda böyük hörmət və nüfuz sahibi olmuşdur. Babası **Əhmədəli** kişi dülgərlik sənətinin mahir bilicisi olmuş, eyni zamanda, o qeyri-adi gücə malik olan bir pəhləvan kimi də tanınmışdır. Babasının sənətini davam etdirən **Ocaqəli** kişi də atası kimi, güclü, qüvvətli bir insan olmuşdur. İkinci Dünya Müharibəsinin istirakçısı olan Ocağəli kişi almanlara əsir düşsə də, əsir düşərgəsinə çatmamış qaça bilmiş və partizan dəstələrinə qoşularaq yenidən düşmənə qarşı mübarizəsini davam etdirmişdir.

**Atamalı** kişinin böyük qardaşı **Molla Bürhan** kəndin savadlı din xadimlərindəndir. Böyük hörmət və nüfuza malikdir. Digər qardaşı **Kərbəlayı Axund Rizvan** hazırda ərazinin ən hörmətli və savadl din xadimidir.Uşaqlıq illəri müharibənin odlu-alovlu illərinə düşən Atamalı kişi müharibə bitdikdən bir neçə il sonra əsgərlik yaşı çatdığından sovet ordusu sıralarına çağırılır.

Hərbi xidmətini başa vurub qayıtdıqdan sonra bir müddət Bakı şəhərində ayrı-ayrı müəssisələrdə çalışır, daha sonra kəndə qayıdaraq yenicə qurulmuş "Qələbə" kolxozunda əmək fəaliyyətinə başlayır. Elə həmin illərdə Həcər xanımla ailə qurur. Bu izdivacdan onların 7 övladı,- 4 oğlan, 3 qız uşaqları dünyaya gəlir.

Əvvəlcə anbardar vəzifəsində işləyən Atamalı kişi sonralar etimad göstərilərək briqadir təyin edilir və



Atamalı kişi sovet ordusu sıralarında. Sağda 1-ci.

uzun müddət bu vəzifədə çalışır. Daha sonralar S.Vurğun adına üzümçülük sovxozu yaradılır, Atamalı Ağayev təcrübəli kadr kimi həmin sovxozda briqadir vəzifəsinə təyin edilir.

Atamalı kişi həm də kəndin sayılıb-seçilən ağsaqqallarından idi. Kənddə görülən istənilən bir iş, demək olar ki, onun təşkilatçılığı ilə həyata keçirilərdi. Hər zaman öndə gedənlərdən idi. Dinə çox bağlı insan idi. Sovet ateizminin hökmranlıq etdiyi bir dövrdə belə o,

Şivlə kəndində dini mərasimlərin təşkil olunmasında xüsusi fəallıq göstərənlər sırasında birinci idi. Ata-babası Əhli-beytə bağlı ailə olduğundan məhərrəmlik mərasiminin, Həzrət İmam Hüseyn(ə) təziyyəsinin hər zaman üstün tutulması bu ailənin əsas prinsipi idi. Ata-



**Cəbrayıl Ağayevin atası Atamalı kişi və anası Həcər**

malı kişi qorxmaz, haqsızlığa qarşı barışmaz mövqeyi ilə də seçilər, heç kəsin qarşısında boyun əyməzdi.

Şəhidin anası **Həcər Ağayar qızı Əkbərova** da kəndin ağbirçək qadınlarındandır. İmam Hüseyn(ə) məclislərini yanıqlı bayatıları ilə, ağıları ilə rövnəqləndirən şəxslərdən olmuşdur. O, övladlarını halal ruzi ilə, sev-

giylə böyütdü. Mərd, səxavətli, hər kəsə qarşı mehriban olmağı, hörmətlə yanaşmağı öyrətdi onlara. Kim bilir, bəlkə də, Peyğəmbər ailəsi üçün axıtdığı göz yaşlarının mükafatı idi oğlunun şəhadəti... Axı Allah sevdiyi bəndələri tez çəkər yanına, deyirlər. Şəhadət şərbətini içmək hər kəsə nəsib olmur bu dünyada. Həcər ananın ciyərparasının şəhidlik məqamı ilə mükafatlandırılması Allahın bu ailəyə lütfi idi, bəlkə də...

***Nə solu var, nə sağı,***
***Hər sözündə min ağı.***
***Qəlbində oğul dağı,***
***Sinəsi dağlı Anam!***

***Dilində ahu-zarın,***
***Vaxtsız töküldü barın.***
***Kül olan arzuların,***
***Qapısı bağlı Anam!***

***Ümid puç oldu, getdi,***
***Arzun heç oldu, getdi.***
***Ömür gec oldu, getdi,***
***Şəhid soraqlı Anam!***

Cəbrayıl evin sonuncu oğul övladı idi. O, şəhid olduqdan sonra Atamalı kişi Cəlilabad rayonunun Göytəpə qəsəbəsinə köçür, onun ailəsini öz himayəsinə götürür və ömrünün sonuna kimi orada yaşayır. Göytəpə kəndində də böyük hörmət və nüfuz qazanan Atamalı

kişi oğul itkisi ilə barışa bilmirdi. Hər dəfə onun xidmət etdiyi hərbi hissəyə gedər, zabit yoldaşları ilə dərdləşər və beləcə ürəyini boşaldardı.

Bir ata üçün oğul itkisi heç də asan məsələ deyil. Bütün şəhid atalarının gözlərində eyni nisgil yuva qurub. Hər insan bu ağrı-acıya asanlıqla tab gətirə bilmir. Ancaq şəhidlərin məqamının ucalığı ataların yaralarına məlhəm ola bilir. Şəhidlər o şəxslərdəndir ki, Uca Allah Qurani-Kərimin Bəqərə surəsinin 154-cü ayəsində, - ***"Şəhidlər ölü deyil! Şəhid olanlara "ölü" deməyin. Əksinə, onlar (Allah dərgahında) diridirlər, lakin siz bunu dərk etmirsiniz",*** -buyurur.

Atamalı kişi elə bu ağır dərdlə də 22 aprel 2010-ci ildə dünyayla vidalaşaraq haqqın rəhmətinə qovuşdu.

***Zaman dərdin ilməsini kəm çəkər,***
***O ağrı da gözlərində nəm çəkər,***
***Baxışından dağlar,***
***daşlar qəm çəkər,***
***Oğul dağı gözə sığmaz, ay Ata!***

***Ürəyində sızıldayar yaralar,***
***Dərdi-qəmi ürəyini yaralar,***
***Arzuların ilmə-ilmə saralar,***
***Ağrıların dözə sığmaz, ay Ata!***

***Tanrı verdi şəhidlərə bu adı,***
***Adı adlar arasında ucadı.***

***Oğlun elə bir zirvəyə ucaldı,***
***Əzəməti sözə sığmaz, ay Ata!***

Aylar ötəcək, illər keçəcək, gələcək nəsillər şəhidləri hər zaman böyük minnətdarlıq duyğusu ilə yad edəcəklər. Şəhidlərin xatirələri hər yerdə anılırsa, deməli, onlar ölməyib, ürəklərdə yaşayırlar.

Allah, vətən və millət yolunda öz istəyi ilə canından keçməyə razı olan insanların fəth elədiyi ən yüksək, şərəfli zirvədir şəhid olmaq.

Canlarından keçməklə xalqın qəhrəmanlıq dastanını, azadlığını canı ilə qazanıb qanı ilə yazanlardır şəhidlər. Məhz onların canı və qanı hesabına qazandıqları azadlıq və müstəqillik xalq tərəfindən heç vaxt unudulmur. Ona görə ki, şəhidlər xalqın kimliyini, mənliyini, azdlığını qoruyan insanlardır.

Onlar bir xalq qəhrəmanı olaraq zəncirləri qıraraq, zülmətləri yararaq, xalqı işıqlı sabaha aparan, ölümləri ilə ölməzlik qazanan əbədiyyətə qovuşmuş unudulmaz və bəxtiyar insanlardır.

Şəhidlik elə bir zirvədir, ünvanı əbədiyyətdir. Şəhid olmağı özünə şərəf bilən hər kəsin daxilində yüksək vətənpərvərlik, cəsurluq, müsbət əxlaq, əqidə vardır. Elə buna görə də onlar şüurlu şəkildə ölümü gözə ala bilirlər. Şəhid Cəbrayıl Ağayev də bu yola bilərəkdən, şüurlu şəkildə çıxmışdı. Çünki onun tərbiyə aldığı ailə, mənsub olduğu nəsil, yaşadığı mühit onu bu cür formalaşdırmışdı.

# XATİRƏLƏRDƏ YAŞAYAN QƏHRƏMAN



# DANIŞAN ŞƏKİLLƏR

***«Cənnətə daxil olan heç kəs, hətta bütün dünyanın nemətləri ona verilsə belə, cənnətdən çıxıb bir daha bu dünyaya qayıtmaq istəməz. Yalnız şəhid Allahdan o qədər mükafat görər ki, (bunların əvəzini vermək üçün) 10 dəfə dünyaya qayıdıb öldürülməyi arzu edər».***

Məhəmməd peyğəmbər(s.a.s)

**Allah-Taala "Ali-İmran" surəsinin 169-cu ayəsində buyurur ki, "Allah yolunda öldürülənləri (şəhid olanları) heç də ölü zənn etmə! Əsl həqiqətdə, onlar diridirlər. Onlara Rəbbi yanında ruzi (cənnət ruzisi) əta olunur"**

Bəli, Allah, vətən və millət yolunda öz istəyi ilə canından keçməyə razı olan insanların fəth elədiyi ən yüksək, şərəfli zirvədir şəhidlik zirvəsi. Qərinələr, əsrlər keçsə də, onlar əsla unudulmayacaq insanlardır..

Tarix boyu mətin insanları zəfərdən-zəfərə aparan səbəb də vətənə xidmət etmək və şəhid olmaq arzuları olmuşdur. Canlarından keçməklə azadlığı canı ilə qazanıb, qanı ilə yazaraq qəhrəmanlıq dastanlarına çevrilənlərdi şəhidlər. Onların canları və qanları bahasına qazandıqları azadlıq və müstəqillik xalq tərəfindən heç vaxt unudulmur. Ona görə ki, şəhidlər öz xalqının kim-

liyini, mənliyini qoruyan fədailərdir. Onlar bir xalq qəhrəmanı olaraq zəncirləri qıraraq, zülmətləri yararaq, xalqı işıqlı sabaha aparan, ölümləri ilə ölümsüzlük qazanan əbədiyyətə qovuşmuş bəxtiyar insanlardır.

Şəhid olmaq əslində, ölmək deyil, yenidən var olmaqdır, əbədi bir diyara səfər etməkdir. Əbədi diyara səfərdən sonra çoxları çox az müddətlik də olsa, dünyaya yenidən qayıtmaq və xeyirxah, saleh əməllər eləmək istəyəcəklər. Ancaq şəhidlər yenidən dünyaya qayıdaraq bir daha şəhid olmağı arzulayacaqlar. Necə ki, müqəddəs kitabımız Qurani-Kərimin "Bəqərə" və "Ali-İmran" surələrində buyurulduğu kimi...

Cəbrayil Atamalı oğlu Ağayev 20 iyun 1964-cü ildə Azəbaycanın dilbər guşələrindən olan Lerik rayonunun Şivlə kəndində hörmətli bir nəslin nümayəndəsi olan Atamalı kişinin ocağında dünyaya gəldi. Alilənin 4-cü, yəni sonuncu oğlan övladı idi. Onu dünyaya gətirən Həcər ana ona körpəlikdən vətən sevgisini aşıladı, layla çalarkən həzin bayatılarıyla qəlbinə sevgisinin ilk toxumlarını səpdi. Hər gün gözlərini azan səsiylə açdı Cəbrayıl. Babası Mahmud kişinin evində keçən uşaqlığı Əhli-beyt sevgisinə bələndi, İmam Hüseyn məktəbinin çeşməsindən su içə-içə böyüdü, pərvazlandı gələcəyin qəhrəman oğlu...

İllər keçdi, böyüdü, boya-başa çatdı, 1971-ci ildə Biləvər kənd orta məktəbin birinci sinfinə getdi sevinc və fərəhlə Cəbrayıl. Və beləcə yeni həyata qədəm basdı.

İlk dəfə əlindən tutub ona yazmağı öyrədən Ağababa müəllim, həmin illərdə məktəb direktoru olan Tut-

xan müəllim də sevdi Cəbrayılı. Uşaqlıqdan qeyri-adiliyi, tərbiyəsi, insanpərvərliyi ilə sevdirdi özünü.

Evin sonuncu oğul övladı olduğundan ərköyün böyümüşdü. Ancaq insanlarla olan münasibəti, insanlığa qarşı olan sevgisi ərköyün, dəcəl uşaq olmasına baxmayaraq, hər kəsə sevdirmişdi onu.

***

Uşaqlıq dostu və adaşı **Cəbrayıl Rüstəmov** onun haqqında yazdığı xatirələrdə Cəbrayılın qeyri-adi xarakterə malik olduğunu deyir. O deyir ki, biz məktəbdən gələndə, uşaq vaxtı onunla qoyun-quzu otarmağa gedəndə Cəbrayıl həmişə əlindəki ağaca bir ip bağlayar, onu silah kimi boynundan asardı. Özünü döyüşçü əsgərə bənzədərdi.

Cəbrayılın sinif yoldaşı **Nazim Azadov** da Cəbrayılın sadə, təmkinli, mehriban, hər kəsə qayğıyla yanaşan bir insan olduğunu deyir.

-Dərslərini orta səviyyədə oxusa da, inşa yarışmalarında həmişə vətənpərvərlik mövzularına üstünlük verərdi. Onda hərbi sahəyə bir meyillilik vardı. Şəhidlik onun alın yazısı imiş, bəlkə də, -deyir Nazim Azadov.

Cəbrayıl Ağayevla bir sinifdə oxumuş, hazırda Bakıxanov qəsəbəsi İmam Rza(ə) məscidinin axundu olan **Hacı Əmirxan Tahirov** Cəbrayılın unudulmaz bir insan olduğunu deyir:

-Çox ürəyitəmiz, gülərüz bir insan idi. Heç vaxt heç kəsə acı söz deməzdi, heç zaman sinifdə heç kəslə kü-

sülü qalmazdı, çox zarafatcıl idi. Dərsdə həmişə uşaqları güldürərdi. Demək olar ki, onunla yoldaşlıq edən adam heç zaman darıxmazdı. Sinifdə həmişə küsən uşaqlar arasında sülh yaratmağa çalışardı. Belə yoldaş idi Cəbrayıl. Allah Cəbrayılı rəhmət eləsin. Unudulmaz bir yoldaş olub.

Orta məktəbdə Cəbrayıla dərs demiş, hazırda təqaüddə olan **İslam Ağayevin** onun haqqında xatirələrini bizimlə bölüşərkən dedikləri:

-Dərslərini orta səviyyədə oxuyardı. Ancaq heç vaxt məktəbə hazırlıqsız gəlməzdi. Çox diqqətcil şagird idi. Verilən suallardan yayınmazdı. Həmişə çalışardı bildiyini dəqiq danışsın. Bu düzgünlüyü onu digər uşaqlardan fərqləndirirdi. Bir müəllim təxəyyülü ilə hiss edirdim ki, gələcəkdə bu şagird fərqli bir insan ola bilər. Qaynar təbiətə malik uşaq idi Cəbrayıl. Müəllimlərinə yüksək hörmət göstərərdi. 10-cu sinfə qədər onlara dərs dedim. Məktəbi bitirdikdən sonra bir müddət işlədi, sonra hərbi xidmətə getdi. Məni və digər müəllimləri uzaqdan görəndə qabağımıza yüyürər, hörmət və ehtiramla bizi yola salardı. Orta məktəb illərindən sonrakı illərdə də qarşımızda özünü məktəb şagird kimi aparardı.

Sözündə çox dəqiq, bütöv, cəsarətli insan idi. Hərbi xidmətdən məzuniyyətə gələndə məni də unutmamışdı. Mənə bir avtoqələm gətirmişdi. İndi də onu xatirə kimi saxlayıram. Şəhid olma xəbərini eşidəndə həm bir müəllimi, həm də əmisi kimi çox sarsıldım. Bir anlıq məktəb illəri ilə bağlı xatirələr yaddaşımda vərəqləndi.

Şəhidlik elə bir zirvədir ki, ora hər adam yüksələ bilmir. Orta məktəbdə dərs dediyim Cəbrayıl da bu zirvəyə ucaldı. Bir müəllim üçün nə qədər ağrılı olsa da, o qədər də qürurvericidir ki, şagirdi şəhidlik zirvəsinə ucalıb.

Cəbrayıl Ağayev haqqında danışan hər kəs onun saf, təmiz qəlbli, mərd bir insan olduğunu deyir. On bir il onunla bir partada əyləşmiş **İbrahim Yoldaşov** da Cəbrayıl haqqında danışarkən onun sədaqətli, mərd, gülərüz, dostcanlı, səmimi bir insan olduğunu qeyd edir:

-Cəbrayılla mən təkcə məktəbdə sinif yoldaşı deyil, həm də adi həyatda yaxın dost, mehriban yoldaş olmuşuq. Bizim dostluğunuzun kökləri isə bizdən də əvvəllərə gedir. Çünki valideynlərimizin də çox yaxın dostluq münasibətləri olub. Ailəvi gediş-gəlişimiz olub bizim. Bu dostluğu biz də sonradan davam etdirmişik.

Cəbrayıl heç vaxt heç kimə həsəd aparmazdı. Həmişə çalışardı ki, yoldaşları arasında mehribanlıq yaratsın. Xasiyyətcə mülayim insan olsa da, xaraktercə çox ciddi idi. Sözündə qəti idi. Yalan danışmağı xoşlamazdı. On bir il bir yerdə oxuduq. Heç vax aramızda küsülülük olmadı. Orta məktəbi bitirdikdən sonra sovet ordusunda xidmət etdik. Mən Moskvada, o isə Əfqanıstanda oldu. Sonra o hərbidə işə düzəldi, mən isə bu gün onun adını daşıyan Biləvər kənd tam orta məktəbində bir müddət müəllim işlədim.

Şəhid olmağı bir sinif yoldaşı kimi, bir yaxın dost kimi məni də çox üzdü. Bu gün də onu ehtiramla xa-

tırlayıram və qürur duyuram ki, belə bir qəhrəman vətən övladı ilə dostluq, yoldaşlıq etmişəm. Ən yaxşı təriflərə laiq yoldaş idi Cəbrayıl. Məkanı cənnət olsun!

***

Cəbrayıl Ağayev 1981-ci ildə Biləvər kənd orta məktəbin 10-cu sinfini bitirir. Hələ hərbi xidmət yaşı çatmadığından elə həmin ildə Səməd Vurğun adına sovxozda işə düzəlir. 1983-cü ilə qədər sovxozda müxtəlif işlərdə çalışır. Çalışdığı müddətdə də hər kəsin hörmət və rəğbətini qazanır. Həmin vaxtlar sovxozun direktoru olmuş **Balabəy Alışov** Cəbrayıla verdiyi xasiyyətnamədə yazır:

-*“**Cəbrayıl Ağayev sovxozda işlədiyi ilk gündən özünü bacarıqlı, işgüzar, zəhmətsevər bir işçi kimi göstərmişdir. Ona verilən hər hansı bir tapşırığı vaxtından əvvəl, layiqincə yerinə yetirmişdir. O, sovxozun ictimai işlərində də fəallıq göstərmiş, bəzi təcrübəsiz işçiləri də işə həvəsləndirərək fəaliyyətlərinin gücləndirilməsi üçün təbliğat işləri aparmışdır...**”*

Cəbrayıl Ağayev 1983-cü ilin may ayının 6-da Lerik Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılır. Həmin ilin may ayının 7-də Özbəkistan SSR-in Çirçik şəhərinə göndərilir. Altı ay burada xidmət edən Cəbrayıl hərbi təlimlərdə yüksək bacarığı ilə seçilir, komandirlərinin diqqətini çəkir. Həmin vaxtlar sovet



Hərbi xidmət illəri. Əfqanstan.



Cəbrayıl Ağayev solda. Xidmət illəri. Özbəkistan.



Hərbi xidmət illəri. Özbəkstan SSR.



**Hərbi xidmət illəri. Özbəkstan SSR.**



Cəbrayıl Ağayev ortada. Privolnoye.



Cəbrayıl Ağayev. Xidmət illəri. Əfqanstan.



Hərbi xidmət illəri. Əfqanstan.



Cəbrayıl Ağayev döyüş yoldaşları ilə.



Hərbi xidmət illəri. Əfqanstan.

qoşunları Əfqanıstanda müharibə aparırdı. Altı aylıq təlimlərdən sonra artıq Əfqanıstana göndərilmək üçün əsgər seçimlərinə başlanılır. Seçilən əsgərlər arasında Cəbrayılın da adı var idi. Beləliklə, onların dəstəsi Əfqanstana yola salınır.

Xidmət illərində döyüşdən-döyüşə mətinləşən Cəbrayıl mahir topçu kim ad çıxarır. Döyüşlərdə göstərdiyi şücaət və qəhrəmanlıqları ***"Döyüşdə fərqlənməyə görə", "Beynəlmiləl döyüşçü", "Əfqan xalqından təşəkkür", "Mərdliyə görə"*** və sair medallarla, bir sıra fəxri fərman və təşəkkürnamələrlə qiymətləndirilir.

1985-ci ildə iki illik xidmət müddəti bitdiyindən Cəbrayıl ordudan tərxis edilir. Lakin o, kəndə qayıdıb ailəsinə baş çəkdikdən sonra yenidən könüllü iki il də əlavə xidmət etmək üçün müraciət edir. Onun müraciəti qəbul edilir və o, yenidən Əfqanıstan Respublikasına göndərilir. İki il də əlavə xidmət etdikdən sonra 1987-ci ildə vətənə qayıdır.

Cəbrayıl Ağayev 1987-ci ilin payızında sənədlərini General-leytenant H.C.Rəsulbəyov adına Bakı Rabitə Texnikumuna təqdim edir. Uğurla imtahan verib tələbə adını qazanır. Texnikumu müvəffəqiyyətlə bitirib rabitəçi ixtisasına yiyələnir.

Təhsilini başa vurduqdan sonra kəndə qayıdan Cəbrayıl bibisi qızı Səbzə Əliyeva ilə ailə həyatı qurur. Elə həmin ilin mart ayında Cəlilabad rayonunun Privolnoye qəsəbəsinə köçərək burada məskunlaşırlar. O, burada yerləşən 741 saylı batalyonda gizir kimi hərbi xidmətə başlayır.

Qısa müddət ərzində komandanlığın rəğbətini qazanan Cəbrayıl Ağayev təchizat taqımının komandiri təyin edilir. Həmin vaxtlar artıq sovet hökuməti son anlarını yaşayırdı. Ölkədə qarışıqlıq yaranmışdı. Bir sözlə, xaos bürümüşdü hər tərəfi. 1990-cı ilin yanvar ayında Azərbaycana ordu yeridən Sovet İttifaqı dinc əhalini güllələbaran edərək 20 Yanvar faciəsini törətdi. Xalqın bu quruluşa nifrəti günü-gündən artmaqda idi.

Bu qarışıqlıqdan istifadə edən nankor qonşularımız köhnə xislətlərindən əl çəkməyərək yenidən torpaqlarımıza təcavüzə başladılar, soydaşlarımız dədəbaba torpaqlarından didərgin salınmağa başlanıldı.

1991-ci ildə Qarakənd faciəsinin baş verməsi Azərbaycanda Milli ordunun yaradılmasının vacibliyini labüd etdi. Milli ordunun yaradılması üçün isə təcrübəli hərbçilərə ehtiyac vardı. Əfqanıstanda döyüş sirlərini dərindən öyrənən, geniş bilik və bacarıqlara malik olan Cəbrayıl Ağayev ordu quruculuğuna qoşulan ilk zabitlər sırasında idi.

***

Erməni quldur dəstələri zaman-zaman havadarlarının köməyi ilə Azərbaycan xalqına qarşı çirkli planlarını həyata keçirməyə çalışıb və təəssüflər olsun ki, buna nail olublar.

1988-ci ildə sovet hökumətinin ermənipərəst rəhbərlərinin dəstəyi ilə xalqımıza qarşı yenidən həyata keçirdikləri ekstremist hərəkətlər nəticəsində minlərlə

soydaşımız dədə-baba torpaqlarından didərgin salınaraq Azərbaycanın müxtəlif ərazilərinə köçürüldü.

Vəziyyət artıq nəzarətdən çıxmışdı. O vaxtlar Azərbaycana rəhbərlik edənlərin səriştəsizliyi ucbatından yurdumuzun hər yeri qaçqın düşərgələrinə dönməkdə idi. Ancaq Azərbaycanın qeyrətli oğulları bu məsələlərə heç də səssiz qalmırdılar.

Quduzlaşmış düşmən yaranmış vəziyyətdən istifadə edərək Qarabağda dinc əhaliyə divan tuturdu. Belə bir vaxtda sakit dayanmaq olmazdı. Odur ki, 741 saylı tabora döyüş əmri verilərək Qarabağa yola salındı.

1992-ci ilin əvvəllərində Füzuli rayonu istiqamətində döyüşə başlayan 741 saylı taborun tərkibində taqım komandiri Cəbrayıl Ağayev da mərdliklə döyüşürdü. O, Füzuli rayonunun bir sıra kəndlərinin azadlığı uğrunda xüsusi qəhrəmanlıq nümayiş etdirərək düşmənə qan uddurur. Bu döyüşlərdə düşmən ağır məğlubiyyətə uğradılaraq geri çəkilməyə məcbur edilir, düşmənin çox sayda canlı qüvvəsi məhv edilir, silah-sursatı və texnikası ələ keçirilir.

Döyüş bacarığı və igidliyi ilə seçilən Cəbrayıl Ağayev döyüşlərin birində Füzuli tank batalyonunun komandiri, yaralanmış Səyavuş Babayevi xilas etdikdən sonra döyüşçülər arasında çaşqınlıq düşməsinə yol verməyib, döyüşə özü rəhbərlik edir. Onun bu qəhrəmanlığı döyüşçü yoldaşları arasında ona olan etimadı bir az da artırır.

Cəbrayıl Ağayev taborun təchizat taqımının komandiri olsa da, təkcə bölmələrin silah-sursat və digər

döyüş avadanlıqları ilə təchizatı ilə kifayətlənmirdi. O, bütün döyüşlərdə döyüşün ən qaynar nöqtələrinə atılaraq düşmənə qarşı mərdliklə vuruşurdu.

Daha sonra döyüş yolu Qubadlı, Zəngilan və Kəlbəcər istiqamətindən keçən Cəbrayıl Ağayev döyüşlərdə əsl qəhrəman kimi döyüşür, düşmənə olan nifrətini bir an belə unutmur,onlara qarşı qəhrəmanlıqla vuruşurdu.

***

Həmin vaxtlar 741 saylı taborun qərargah rəisi olmuş **Hikmət Kərimov** xatirələrində yazır:

-Mən 1992-ci ildə Cəbrayıl Ağayevla bir yerdə xidmət etmişəm. O, 741 saylı taborun təchizat taqımının komandiri vəzifəsində xidmət edirdi. Xidmət müddətində onu vətənpərvər, qorxmaz, bacarıqlı bir hərbçi kimi tanımışam. Verilən tapşırıqları qüsursuz yerinə yetirən bir komandir idi.

Dağlıq Qarabağda ermənilərin törətdiyi cinayətlər onu bir an belə rahat buraxmırdı. Vətənpərvər döyüşçü kimi Cəbrayıl Ağayev tez bir zamanda xidmət etdiyi taborun fəal döyüşçülərindən birinə çevrilmişdi. O, ən qaynar döyüş nöqtələrinə getməkdən belə çəkinmirdi.

Laçın rayonunun Ərdəşəvi kəndində ağır döyüşlər gedirdi. Həmin döyüşlərdə Ağayev da iştirak edirdi. O bu döyüşlər zamanı qəhrəmancasına şəhid oldu. Vətənin azadlığı, doğma diyarın istiqlalı yolunda canını qurban verən igid oğulları həmişə qəlbimizdə yaşadır, onları şərəf və qeyrət simvolu kimi xatırlayırıq.




**Tələbəlik illərindən xatirə. 1988-ci il.**




Cəbrayıl Ağayev. Tələbəlik illəri. Bakı-1988.



Cəbrayıl Ağayev sağdan 3-cü. Tələbəlik illəri. Bakı-1988.



Baş gizir Cəbrayıl Ağayev




Cəbrayıl Ağayev hərbçi yoldaşları ilə. 1991-ci il.



Cəbrayıl Ağayev Qarabağ döyüşləri zamanı. 1992-ci il.



C. Ağayev döyüş yoldaşları ilə.



Cəbrayıl Ağayev döyüş yoldaşları ilə.



C.Ağayev. Qarabağ döyüşləri. 1992.



Cəbrayıl Ağayev. 1991-ci il.



C. Ağayev Qarabağ döyüşləri zamanı.



C.Ağayev döyüş yoldaşı ilə. 1992-ci il.



Cəbrayıl Ağayev Qarabağ döyüşləri zamanı. 1992-ci il.



Cəbrayıl Ağayev döyüş yoldaşları ilə. 1992-ci il.

***

Cəbrayıl Ağayevi tanıyan, yoldaşlıq edən və Qarabağda onunla çiyin-çiyinə döyüşən silahdaşlarını dinləyərkən onun nə qədər saf, qayğıkeş, dost yolunda canından keçən, cəsur, qorxmaz, mərd bir şəxsiyyət olduğunun şahidi olursan. Cəbrayıl və onun kimi insanlar təkcə cəmiyyət arasında deyil, Allah qatında da ən ali məqama malik şəxslərdir. O ali məqamın ünvanı isə Şəhidlikdir...

Cəbrayıl Ağayev haqqında kitab yazarkən həmsöhbət olduğum insanlardan biri də onun yaxın dostu və silahdaşı olmuş gizir **Elşad Babayevdir**. Elşad Babayev dostu və silahdaşı haqqında ürək yanğısı ilə bunları danışdı:

-Onunla çox yaxın dost idik. Qarabağda döyüşlər başlayanda bir yerdə xidmət edirdik. Cəbrayıl, hər şeydən əvvəl, səmimi, mehriban, qayğıkeş, ehtibarlı bir dost idi. Çox insanpərvər, dostluqda sədaqətli idi. Dost yolunda canından belə keçərdi.

Döyüş yolumuz Füzuli, Qubadlı, Laçın, Murovdağ, Susdağ cəbhələrindən keçib. Döyüşlərdə mən onun qorxmaz, mərd, cəsarətli bir zabit olduğunun şahidi oldum. Onun gözündə qorxu deyilən bir şey yox idi. Döyüşdə hamıdan fərqlənirdi. Bəlkə də, Əfqanıstanda hər çətinliyi görmüşdü -deyə, belə idi. Döyüş texnikasının sirrini gözəl bilirdi. Demək olar ki, biz hamımız ondan çox şey öyrəndik. Çox təcrübəli hərbçi idi. Döyüşə girəndə əsl qəhrəman kimi döyüşərdi.

Biz onunla çiyin-çiyinə çox döyüşlərdə olduq. Mən

onun qorxub geri çəkildiyini, bir dəfə olsun belə, görmədim. Laçın rayonunun Səfiyan kəndi uğrunda gedən döyüşlər zamanı düşməni böyük itkilərlə geri çəkilməyə məcbur etdik. Döyüşdə düşmənin çoxlu canlı qüvvəsini məhv etdik, silah-sursatını qənimət kimi ələ keçirtdik. Həmin döyüşdə Cəbrayıl əsl qəhrəmanlıq nümayiş etdirdi. Bəzən ona deyirdim ki, çox irəli getmə, həyatını təhlükəyə atırsan. O isə mənə qulaq asmırdı. Həmişə döyüşün ən qaynar nöqtələrinə can atırdı.

Təəssüflər olsun ki, sonuncu döyüşündə onunla deyildim. Getməmişdən əvvəl onu fikrindən yayındırmağa çalışdım, ancaq mənə qulaq asmadı. Torpaqlarımızın işğalı ilə barışa bilmirdi. 1992-ci ilin sonlarında getdi döyüşə və 1993-cü il yanvar ayının 1-də şəhid olduğunu eşitdim. Cəlilabad rayonunda onun nəşini biz qarşıladıq və gətirdik hərbi hissəyə. Ondan sonra isə apardıq doğulduğu Şivlə kəndinə və orda torpağa tapşırdıq. Sevdiyi torpağın uğrunda qurban verdi canını şəhid qardaşımız. Allah rəhmət eləsin!

Cəbrayılın yaxın dostu və cəbhə yoldaşı gizir **Nadir Mirzəyev** hələ Qarabağ Müharibəsi başlamazdan əvvəl onunla bir yerdə xidmət edirdi. Onlar təkcə xidmət yoldaşı deyil, həm də çox yaxın dost idilər. Nadir Cəbrayıl haqqında xatirələrində deyir:

-Rəhmətlik Cəbrayılla biz yaxın dost idik. Onunla yaxşı və pis günlərimiz çox olub. Çox çətinliklərin öhdəsindən bir yerdə gəlmişik. Mehriban, qayğıkeş, dostcanlı, ehtibarlı yoldaş idi. Mən ondan çox şey öyrənmişəm. Cəbrayıl dostdan əlavə, həm də bizə bir müəllim

olub. O, Əfqanıstanda döyüş görmüş adam idi. Dörd il xidmət eləmişdi. Demək olar ki, bütün texnikaların sirrini bilirdi.

Müharibə başlayanda bizi əvvəlcə Füzuliyə göndərdilər. Orada bir sıra döyüşlərdə iştirak etdik. Qorxubilməz, cəngavər bir komandir idi. Girdiyi döyüşdən heç vaxt əliboş qayıtmazdı. Füzuli uğrunda gedən döyüşlərdə tank batalyonunun komandiri Səyavuş Babayev ağır yaralandı. Onu döyüş bölgəsindən çıxardıqdan sonra əsgərlər arasında çaşqınlıq yaranmasına imkan vermədi, özü batalyona rəhbərlik etməyə başladı.

Sonra biz onunla bir yerdə Qubadlı, Zəngilan, Murovdağ uğrunda gedən döyüşlərdə iştirak etdik. Bu döyüşlərdə də Cəbrayıl döyüş bacarığı ilə hamını heyrətləndirməyi bacardı. Döyüşlərdə qeyri-adi taktikalardan istifadə edirdi.

1992-ci ilin 26 dekabrında Laçına yola düşdük. Həmin vaxt Ömərdağ uğrunda qanlı döyüşlər gedirdi. Dekabrın 29-da biz Laçına çatdıq. Oradan isə Kəlbəcərə doğru hərəkətə başladıq. Cəbrayıl Ağayev 1993-cü il yanvar ayının 1-də qəhrəmancasına şəhid oldu.

Mən öyrəndiklərimə görə özümü hər zaman ona borclu hesab edirəm. Cəbrayıl unudulmaz dost, qorxmaz, cəsarətli vətən qəhrəmanı idi. Allah ona rəhmət eləsin!

Cəbrayılın yaxın dostu və döyüş yoldaşı baş gizir **Habil Mahmudov** Qarabağ döyüşləri zamanı onunla çiyin-çiyinə döyüşmüş, çox hadisələrin şahidi olmuşdur. H. Mahmudov həm bir yaxın dost, həm də bir si-

lahdaşı kimi Cəbrayıl Ağayevin qorxmaz, cəsur, yüksək döyüş bacarığına malik, silah-sursatın, döyüş texnikasının sirlərini bilən bir döyüşçü olduğunu qeyd edir.

-Biz şəhid qardaşım Cəbrayılla həm çox yaxın dost, həm də silahdaş olmuşuq. Əslində, valideynlərimizin də bir-biri ilə çox yaxşı münasibəti olub. Bir-birimizə “əmioğlu” -deyə müraciət edirdik. 741 saylı hərbi hissədə işləyəndə münasibətlərimiz daha da dərinləşdi.

Qarabağda döyüşlər intensivləşəndə bizi Füzuli rayonuna göndərdilər. Cəbrayıl 3-cü taborda taqım komandiri idi. Orada biz bir neçə döyüşdə iştirak etdik. Cəbrayıl döyüşlərdə əsl qəhrəman kimi döyüşürdü. Onun gözündə qorxu deyilən bir şey yox idi. Əsgərlərə qarşı çox tələbkar, eyni zamanda qayğıkeş idi. Füzuli döyüşləri zamanı tank taborunun komandiri Səyavuş Babayev yaralandı. Cəbrayıl onu döyüş meydanından çıxardıqdan sonra taborda çaşqınlıq yaranmasın deyə, döyüşə özü rəhbərlik etməyə başladı. Əfqanstan döyüşlərində topladığı döyüş təcrübəsindən istifadə edərək peşəkar komandir kimi yüksək döyüş bacarığı nümayiş etdirirdi.

Biz Füzuli döyüşlərindən qayıtdıqdan sonra Cəbrayılı rəhbərlik etdiyi taqımla Laçın-Kəlbəcər bölgəsinə göndərdilər. 01 yanvar 1993-cü ildə onun şəhid olma xəbərini eşitdik. Əlbəttə, belə bir dostu, silahdaşı itirmək çox ağır idi. Ancaq onu bilirəm ki, Cəbrayıl şəhadəti ilə əbədiyyət məqamını qazandı. Allah şəhid qardaşımıza rəhmət eləsin!

Cəbrayıl Ağayevlə bir yerdə xidmət etmiş, Qarabağ

cəbhəsində döyüş yolu keçmiş **Rəfail Mövsümov** da onun haqqında danışarkən qorxmaz, mərd, cəsarətli bir komandir olduğunu qeyd edir. R. Mövsümov xatirələrində Cəbrayıl Ağayevla Laçın, Kəlbəcər, Murovdağ döyüşlərində iştirak etdiyini qeyd edir.

-Bizim xidmət etdiyimiz 741 saylı tabor 1992-ci ildə Laçın rayonuna göndərildi. Cəbrayıl Ağayev tank taborunun təchizat tağımının komandiri idi. Laçının Birinci Tığıq, İkinci Tığıq, Fingə, Vağazin, Səfiyan kəndləri uğrunda gedən döyüşlərdə iştirak etdik. Laçın rayonunun Haqnəzər kəndi uğrunda gedən döyüşlər zamanı C. Ağayevin rəhbərlik etdiyi dəstə erməni quldurlarına ağır zərbə endirərək onları geri çəkilməyə məcbur etdilər. Bu döyüşlər zamanı düşmənin xeyli canlı qüvvəsi məhv edildi, döyüş texnikası və silah-sursatı qənimət kimi ələ keçirildi.

Cəbrayıl Ağayev 1993-cü il yanvar ayının 1-də Laçın rayonunun Ərdəşəvi kəndi yaxınlığında qəhrəmancasına şəhid oldu.

Cəbrayıl Ağayevla bir çox döyüşlərdə iştirak etmiş şəxslərdən biri də **Əzizalı Babayevdir.** O, şəhid Cəbrayıl Ağayevla 741 saylı taborda bir yerdə xidmət etdiyini deyir. Cəbrayılın döyüşlərdə göstərdiyi şücaət və qəhrəmanlıqlar barədə danışarkən belə bir igid komandirin ölümünə təəssüfləndiyini bildirir.

-Biz Cəbrayıl Ağayevla 1992-ci ildə xidmət etdiyimiz taborun tərkibində Laçın rayonuna getdik. Baş gizir Ağayev taborun təchizat taqımına rəhbərlik edirdi. Taborumuz Laçın, Kəlbəcər və Murovdağ uğrunda ge-

dən döyüşlərdə istirak etdi. Bu döyüşlərdə Cəbrayıl Ağayev xüsusi qəhrəmanlıqlar göstərdi.

Laçın rayonunun Haqnəzər, Ərdəşəvi, Fingə, Birinci Tığıq, İkinci Tığıq, Vağazin, Səfiyan kəndləri uğrunda gedən döyüşlərdə düşmənə ağır zərbələr endirildi. Bu döyüşlər zamanı Cəbrayıl Ağayevin rəhbərlik etdiyi dəstə düşmənin çoxlu texnikasını və silah-sursatını ələ keçirdi.

Qorxmaz və qətiyyətli insan idi. Döyüş taktikasını çox yaxşı bilirdi. Düşmənə gözləmədiyi yerdən zərbə endirərək onları çaş-baş qoyurdu. İgid komandir Cəbrayıl Ağayav 1993-cü ilin yanvar ayının 1-də Laçın rayonunun Ərdəşəvi gəndi uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid oldu. Ruhu şad olsun! Şəhid qardaşlarımızı heç vaxt unutmadıq, unutmayacağıq.

Cəbrayıl Ağayevin əsgərləri olmuş **Ənvər Ağayev** və **Vaqif Şahmarov** da onun haqqında danışarkən qayğıkeş, mehriban, əsgərə qarşı ata qayğısı ilə yanaşan bir insan olduğunu qeyd edirlər.

Cəbrayıl Ağayevi uşaqlıq illərindən yaxından tanıyan, onunla yoldaşlıq edən, hərbi xidmət illərində onun rəhbərlik etdiyi təchizat taqımında xidmət etmiş, həmin illərdə baş verən hadisələrin canlı şahidi **Nəcəf Əkbərovla** həmsöhbət oldum.

Nəcəf Əkbərov da Şivlə kəndində böyüyüb, boya-başa çatıb. 1992-ci il hərbi xidmətə yola salınaraq Ağdam cəbhəsinə göndərilən N. Əkbərov Milli Qəhrəman Fred Asifin bataliyonunda xidmətə başlayır. Üç ay həmin bataliyonun tərkibində döyüşdükdən sonra Cəbra-

yıl Ağayevin vasitəçiliyi ilə Göytəpə qəsəbəsində yerləşən 741 saylı hərbi hissəyə transfer olunur və 1996-cı ilə qədər orada xidmət edir.

N.Əkbərovla söhbət edərkən bu haqda danışmaq onun üçün çətin olsa da, o,Cəbrayılla bağlı olan hadisələri bir an belə unutmadığını, sanki bu hadisənin dünən baş verdiyini deyir.

-Cəbrayıl dayım oğlu olsa da, ona dayı deyə müraciət edirdim. Mən uşaq olanda onlara qoşulub kəndimizin örüşündə qoyun-quzu otarmağa gedərdik. Digər dayımın oğlu Əlövsət, mən və Cəbrayıl həmişə bir yerdə olardıq. Əziyyət çəkməyə qoymazdı məni, qayğıma qalardı həmişə.


Агаев
(фамилия)
Джабраил Атамали
(имя и отчество)
1964 г.р.
Азербайджанская ССР
(дата и место рождения — date et lieu de naissance)
(nom)
(et prénoms)
— 3 —

Лица, внесенные в паспорт
Personnes inscrites dans le passeport
Выдан
Délivré le 28. МАЯ 1985 г.
М. П.
Паспорт действителен до 28 МАЯ 1990 г.
Ce passeport est valable jusqu'au
Подпись
— 4 —


Пролетарии всех стран, соединяйтесь!
СОЮЗ СОВЕТСКИХ СОЦИАЛИСТИЧЕСКИХ РЕСПУБЛИК
ГРАМОТА
ВОИНУ-ИНТЕРНАЦИОНАЛИСТУ


МИНИСТЕРСТВО СВЯЗИ СССР
ЭЛЕКТРОТЕХНИКУМ СВЯЗИ
КНИЖКА 80291
успеваемости учащегося
(фамилия, имя и отчество)
Отделение (специальность)
Зачислен приказом №
от « » 19 г.
м. п.
Директор
№
« » 19 г.
(дата выдачи книжки)
Подпись учащегося


د افغانستان جمهوریت
РЕСПУБЛИКА АФГАНИСТАН
د افغانستان د جمهوري رئیس د ۱۳۶۷/۲/۲۵
نیټې د فرمان له مخې « انترناسیونالست
پوځي ته د افغانستان د منونکو خلکو له خوا »
د مډال د اخیستلو ویاړ لري .
В соответствии с Указом
Президента Республики Афганистан
от „15“ мая 1988 г.
награжден медалью
„ВОИНУ-ИНТЕРНАЦИОНАЛИСТУ
ОТ БЛАГОДАРНОГО
АФГАНСКОГО НАРОДА“

د کورنۍ نوم Агаев
Фамилия
نوم Джабраил
Имя
د پلار نوم Аталали оглы
Отчество
نمبر 240 от 15 мая 1988 г.
№ Ленинский райвоенком
نیټه майор
Дата 05 января 1989 г.


„70 лет ВООРУЖЕННЫХ СИЛ СССР“
1918
1988

УДОСТОВЕРЕНИЕ
Агаев
Джабраил
Атамали оглы
в соответствии с Указом ПРЕЗИДИУМА
ВЕРХОВНОГО СОВЕТА СССР
от 28 января 1988 года
награжден юбилейной медалью
„70 лет ВООРУЖЕННЫХ
СИЛ СССР“
От имени ПРЕЗИДИУМА ВЕРХОВНОГО
СОВЕТА СССР медаль вручена
„10“ мая 1988 года
Ленинский райвоенком
(должность, воинское звание и
М. П. майор Бабаев
подпись лица, вручившего медаль)



СОЮЗ СОВЕТСКИХ СОЦИАЛИСТИЧЕСКИХ РЕСПУБЛИК

ПРЕЗИДИУМ ВЕРХОВНОГО СОВЕТА СССР
ПРЕЗИДІЯ ВЕРХОВНОЇ РАДИ СРСР
ПРЭЗІДЫУМ ВЯРХОЎНАГА САВЕТА СССР
СССР ОЛИЙ СОВЕТИНИНГ ПРЕЗИДИУМИ
СССР ЖОҒАРҒЫ СОВЕТІНІҢ ПРЕЗИДИУМЫ
სსრ კავშირის უმაღლესი საბჭოს პრეზიდიუმი
ССРИ АЛИ СОВЕТИНИН РӘЈАСӘТ ҺЕЈ'ӘТИ
TSRS AUKŠČIAUSIOSIOS TARYBOS PREZIDIUMAS
ПРЕЗИДИУМУЛ СОВЕТУЛУЙ СУПРЕМ АЛ УНИУНИЙ РСС
PSRS AUGSTĀKĀS PADOMES PREZIDIJS
СССР ЖОГОРКУ СОВЕТИНИН ПРЕЗИДИУМУ
ПРЕЗИДИУМИ СОВЕТИ ОЛИИ СССР
ՍՍՀՄ ԳԵՐԱԳՈՒՅՆ ՍՈՎԵՏԻ ՆԱԽԱԳԱՀՈՒԹՅՈՒՆ
СССР ЕКАРЫ СОВЕТИНИҢ ПРЕЗИДИУМЫ
NSV LIIDU ÜLEMNÕUKOGU PRESIIDIUM

ВОИНУ-ИНТЕРНАЦИОНАЛИСТУ

ПРЕЗИДИУМ ВЕРХОВНОГО СОВЕТА СССР
ЗА МУЖЕСТВО И ВОИНСКУЮ ДОБЛЕСТЬ, ПРОЯВЛЕННЫЕ ПРИ ВЫПОЛНЕНИИ ИНТЕРНАЦИОНАЛЬНОГО ДОЛГА В РЕСПУБЛИКЕ АФГАНИСТАН,
УКАЗОМ от 28 декабря 1988 г. НАГРАДИЛ
АГАЕВА Джабраила Агамали оглы
ГРАМОТОЙ ПРЕЗИДИУМА ВЕРХОВНОГО СОВЕТА СССР ВОИНУ-ИНТЕРНАЦИОНАЛИСТУ.

ПРЕЗИДИУМ ВЕРХОВНОГО СОВЕТА СОЮЗА СОВЕТСКИХ СОЦИАЛИСТИЧЕСКИХ РЕСПУБЛИК

ПРЕДСЕДАТЕЛЬ ПРЕЗИДИУМА ВЕРХОВНОГО СОВЕТА СССР М. Горбачев
СЕКРЕТАРЬ ПРЕЗИДИУМА ВЕРХОВНОГО СОВЕТА СССР

Москва, Кремль. 28 декабря 1988 г.



20 ијун 1964 ил
ДОҒУЛДУҒУ КҮН, АЈ, ИЛ
Азәрбајҹан ССР
ДОҒУЛДУҒУ ЈЕР
Лерик рајонунун
Шәвлә кәнди
азәрбајҹанлы
МИЛЛИЈЈӘТИ
Азәрбајҹан ССР Лерик
ПАСПОРТУ КИМ ВЕРМИШДИР
рајон иҹраијјә комитәсинин
дахили ишләр шө'бәси

МИНИСТЕРСТВО ВНУТРЕННИХ ДЕЛ СССР 520-061

Дахили ишләр органынын рәиси
„15“ апрел 1981 г.

4

XIV-ЖГ № 629215

5



Дорогой наш друг и боевой товарищ!

А Г А Е В

Джиабраил

Атамалы оглы

Выполнив свой гражданский и патриотический долг, сегодня ты убываешь из родной части. На земле дружественного нам Афганистана ты прошел большую школу идейной стойкости, воинского мастерства, физической выносливости, верности интернациональному долгу. Здесь, проявляя отвагу и мужество, ты самоотверженно помогал афганскому народу строить новую жизнь, защищать завоевания Апрельской революции.

От имени командования, партийной и комсомольской организаций сердечно благодарим тебя за хорошую службу Родине.

Перед тобой открыты все дороги. Тебя ждет учеба, интересная работа по претворению в жизнь решений XXVII съезда КПСС. Выражаем уверенность в том, что, какой бы ты путь ни избрал, ты всегда и во всем будешь примером для других, проявлять высокое профессиональное мастерство, пытливость ума, смелость творческого поиска и активную гражданскую позицию. Твоя служба в армии – хорошая для этого основа.

Желаем тебе счастья и доброго здоровья.

Командир войсковой части — МАКАРОВ

Заместитель командира по политической части — МИХАЛЕВ

Секретарь партийного комитета — ТОЛСТИЮ

Секретарь комитета ВЛКСМ — БЕРЕГЕЙ

« » 198 г.

Mən orta məktəbi bitirəndə Cəbrayıl artıq Göytəpə polkunda işləyirdi. Qarabağ müharibəsi yenicə alovlanmağa başlamışdı. 1992-ci ildə bizi hərbi xidmətə çağırıb Qarabağ cəbhəsinə - Ağdama yola saldılar. Üç ay Milli Qəhrəman Fred Asifin batalyonunda Ağdam uğrunda gedən döyüşlərdə iştirak etdim.

Bir gün komandirim məni yanında çağırıb getmək üçün hazırlaşmağımı bildirdi. Hara gedəcəyimi soruşdum.

-741 saylı hərbi hissəyə transfer gedirsən, -deyə, məlumat verdi.

-Axı mən transfer olunmaq üçün müraciət etməmişəm, komandir, -dedim.

-Dayın, baş gizir Cəbrayıl Ağayev gəlib, səni özüylə aparmaq istəyir, -dedi.

Mən etiraz etsəm də, bir tərəfdən də sevindim. Çünki uşaqlıq illərindən bir yerdə böyüdüyüm, mənə doğma və əziz olan bir insanla yenidən bir yerdə olacaqdım.

Hamı onu tanıyırdı. Hər yerdə özünə hörmət qazanmışdı. Heç kim onun sözünü yerə salmırdı. Hər kəslə isti münasibəti var idi. Belə insan idi mənim istəkli dayım.

741 saylı hərbi hissəyə gəldikdən sonra onunla bir neçə döyüşdə iştirak etdim. Orda da məni qoru-mağa çalışırdı. Özü isə döyüşün ən qaynar nöqtələrinə girirdi. Gözündə qorxu deyilən bir şey yox idi. Qeyri-adi döyüş taktikalarından istifadə edirdi. Bu da onun Əfqanıstan qazandığı təcrübədən irəli gəlirdi.

Sonralar mən öyrəndim ki, xidmət etdiyim 741 saylı hərbi hissənin döyüş texnikası və silah-sursatı da məhz Cəbrayıl Ağayevin hesabına qalıb hərbi hissədə. Çox qəti və prinsipal insan idi. Hamı ondan çəkinirdi.

Axırıncı döyüşə yollananda həmişəki kimi ondan əvvəl qalxıb oturdum maşında. Məni maşından duşurüb, -sən getməyəcəksən, -dedi. Çox israr etdim, ancaq razılaşmadı. Kaş onda əl çəkməyəydim ondan, mən də gedəydim. Nə biləydim ki, bu onun sonuncu gedişidir. Məni kənara çəkib, dedi:

-Nəcəf, mən gedirəm, uşaqlar sənə əmanət. Bu yolun gedişi var, dönüşü olmaya da bilər. Bu bizim son görüşümüz də ola bilər.

Gözlərim doldu. Onu qucaqladım. Allah eləməsin, dayı, -dedim.

-Allaha əmanət olun,- deyib- maşına mindi və Laçına yola düşdülər.

Ürəyinə dammışdı sanki şəhid olacağı. Belə də oldu. Sazaqlı-şaxtalı qış gecəsi, 1993-cü ilin yanvar ayının ilk axşamı yayıldı şəhid olma xəbəri və sevdiyi vətən uğrunda canını qurban verdi dayım.

Hələ də unuda bilmirəm onunla keçirdiyim o günləri. Onun nur saçan siması, bir an belə olsun, gözümün önundən getmir.

Dostları çox idi. Ancaq onun vətənə olan sevgisini, düzlüyünü, qorxmazlığını qısqananlar, hərbi hissədə olan hörmətini gözü götürməyənlər də az deyildi. Ondan isə heç kimə ziyan dəyməzdi. Mələk kimi insan idi. Allah ona rəhmət eləsin. Məkanı cənnət olsun.

***

741 saylı hərbi hissənin tank taborunun təchizat taqımının komandiri gizir Cəbrayıl Ağayeva 08 sentyabr 1992-ci ildə baş gizir rütbəsi verilir. Həmin günün səhəri, yəni 09 sentyabrda Cəbrayılın rəhbərlik etdiyi tağım Füzuli-Laçın bölgəsinə göndərilir. Əfqanıstan döyüşlərində böyük döyüş təcrübəsi toplayan qəhrəman vətən oğlu mərdliklə döyüşərək şücaətlər göstərir. Xocavənd və ona yaxın kəndlər, Laçın rayonunun Səfyan, Güləbird, Haqnəzər, Türklər kəndlərinin və Susdağın azadlığı uğrunda gedən qızğın döyüşlərdə iştirak edir. Həmin döyüşlər zamanı düşmənin Laçın dəhlizinə giriş yolu bağlanır. Bu döyüşlərdə düşmənin xeyli silah-sur-

satı və hərbi texnikası qənimət kimi ələ keçirilir.

1992-ci ilin 16 dekabrında Cəbrayıl Ağayev növbəti döyüş tapşırığını yerinə yetirmək üçün yenidən Qarabağa göndərilir. O, rəhbərlik etdiyi taqımla Laçın, Kəlbəcər və Murovdağ uğrunda gedən döyüşlərdə iştirak edərək düşmənə ağır zərbələr endirir. Döyüşlərdə iştirak etməklə yanaşı cəsur komandir həm də döyüşçülərin silah-sursatla təminatına, döyüş texnikalarının təchizatına nəzarəti də yüksək səviyyədə həyata keçirir.

Baş gizir Cəbrayıl Atamalı oğlu Ağayev 01 yanvar 1993-cü ildə Laçın rayonunun Vağazin və Ərdəşəvi kəndləri yaxınlığında növbəti döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olur.

Cəbrayıl Ağayev şəhid olduqdan sonra onun Vətən qarşısındakı xidmətləri, göstərdiyi igidliklər və qəhrəmanlıqlar nəzərə alınır. Həmin vaxt 741 saylı hərbi hissənin komandiri olmuş baş leytenant **Güloğlan Bağırov** Cəbrayıl Ağayeva Azərbaycanın Milli Qəhrəmanı adının verilməsi üçün təqdimat yazır. Təqdimatda deyilir:

***-"Hərbi xidməti zamanı starşina Ağayev Cəbrayıl Atamalı oğlu özünü savadlı və bacarıqlı bir taqım komandiri kimi göstərmişdir. Müntəzəm olaraq öz peşə savadını artırmaq üçün çalışır. Özünə və tabeliyində olan şəxslərə qarşı tələbkar idi. Şəxsən intizamlı və işgüzar idi. Çətin anlarda bacarıqla hərəkət edir və yaxşı istiqamət verirdi.***

***Şəxsi heyyətlə iş zamanı tələbkar idi. Döyüş zamanı starşina Ağayev Cəbrail Atamalı oğlu taqım***



I. ТӘГДИМАТ

СТАРШИНА АГАЈЕВ ЧӘБРАИЛ АТАМАЛИ оглу 741 №-ли һәрби һиссәнин танк табурунда
(һәрби рүтбәси, сојады, ады, атасынын ады, вәзифәси
тәчһизат тағыминын командири
(нә нә вахтдан штат категоријасы, штат нөмрәси)

14.08.1992-чи илдән "БАШ КИЗИР" штат № 1/064

Азәрбајчан милли гәһрәманлығына тәгдим олунур.
Доғулдуғу тарих 20 ијул 1964-чү ил Партијалылығы

Миллијјәти Азәрбајчанлы

16 апрел 1984-чү илдә 18845 №-ли һ/һ-нин командиринин һәрби рүтбә вериләб
29 №-ли әмри илә "СТАРШИНА" (нә вахт, һансы әмрлә)

14 август 1992-чи илдән Азәрбајчан
Республикасы Силаһлы Гүввәләриндә һәрби хидмәтдәдир.

Тәһсили:

а) мүлки 1982-чи илдә орта мәктәби

б) һәрби (һәрби-ихтисас) 1984-чү илдә 85615 №-ли һ/һ-дә ...

Дөјүш әмәлијјатларында иштиракы, јараланмасы барәдә 16.12.1992-чи илдән Лачын, Кәлбәчәр вә Мров дағ бөлкәләриндә дөјүшүб вә 01.01.1993-чү илдә гәһрәманчасына шәһид олуб.

1992 ил. көрә сонунчу аттестасија үзрә чыхарылан нәтичә

Тутдуғу вәзифә мәгсәдә ујғундур.

Шәхси нөмрәси Код

II. ТӘГДИМАТЫН ӘСАСЛАНДЫРЫЛМАСЫ

Һәрби хидмәти заманы старшина Агајев Чәбраил Атамалы оглу өзүнү савадлы вә бачарыглы бир тағым командири кими көстәрмишдир. Мүнтәзәм оларағ өз пешә савадыны артырмаг үчүн чалышыр. Өзүнә вә табелијиндә олан шәхсләрә гаршы тәләбкар иди. Шәхсән интизамлы вә ишкүзар иди. Чәтин анларда бачарыгла һәрәкәт едир вә јахшы истигамәт верирди.

Шәхси һејј"әтлә иш заманы тәләбкар иди. Дөјүш заманы старшина Агајев Чәбраил Атамалы оглу тағым командири кими өз ишинин өһдәсиндән бачарыгла кәлирди, һәрби вәзијјәтләрдә дүзкүн гәрар гәбул едирди.

***Milli Qəhrəman adı verilməsi üçün təqdimat.***



һәрби гануи вә тә"лимләри јахшы билир вә онлардан
дүзкүн истифадә едир, [illegible] т[illegible]ыглары
дүзкүн баша дүшүр, өз фәалијјәтини тәнгиди гијмәтлән-
дирир, көстәрилән чатышмамазлығы мүддәтиндә јеринә
јетирир, силаһ вә һәрби техникадан бачарыгла
истифадә едирди.
һәрби коллектив арасында бөјүк һөрмәтә малик
иди.
һәрби вә дөвләт сирләрини сахламағы бачарырды.

НӘТИЧӘ: ТУТДУҒУ ВӘЗИФӘ МӘГСӘДӘ УЈҒУН ИДИ.
АЗӘРБАЈЧАНЫН МИЛЛИ ГӘҺРӘМАНЫ АДЫ
ВЕРИЛМӘСИНӘ ЛАЈИГДИР.

[illegible] ҺИССӘНИН КОМАНДИРИ
[illegible]ТЕНАНТ К.БАГЫРОВ

Командир (рәис) ____ ________________
(вәзифәси, һәрби рүтбәси, имзасы, сојады)

М.Ј. «__» ____________

*Milli Qəhrəman adı verilməsi üçün təqdimat.*

***komandiri kimi öz işinin öhdəsindən bacarıqla gəlirdi, hərbi vəziyyətlərdə düzgün qərar qəbul edirdi.***

***Hərbi qanun və təlimləri yaxşı bilir və onlardan düzgün istifadə edir, ünvanına deyilən tənqidləri düzgün başa düşür, öz fəaliyyətini tənqidi qiymətləndirir, göstərilən çatışmazlığı müddətində yerinə yetirir, silah və hərbi texnikadan bacarıqla istifadə edirdi.***

***Hərbi kollektiv arasında böyük hörmətə malik idi.***

***Hərbi və dövlət sirlərini saxlamağı bacarırdı.***

***NƏTİCƏ: TUTDUĞU VƏZİFƏ MƏQSƏDƏ UYĞUN İDİ.***

***AZƏRBAYCAN MİLLİ QƏHRƏMANI ADI VERİLMƏSİNƏ LAYİQDİR".***

Məlum olmayan səbəblərə görə həmin vaxt bu məsələnin icrası öz həllini tapmır. Sonralar bu istiqamətdə şəhidin oğlu Teymur Ağayev tərəfindən müəyyən araşdırmalar aparılsa da, nəticəsiz qalır.

Cəbrayıl Ağayevin oxuduğu Biləvər kənd orta məktəbi hal-hazırda onun adını daşıyır.

Ona Milli Qəhrəman adı verilməsə də, Cəbrayıl Ağayev əsl Vətən qəhrəmanı idi. O öz vətənini qarşılıqsız sevən, hər şeyi gözə alraq Vətən yolunda canından keçən qəhrəmandır. Ruhun şad olsun, Vətən oğlu! Əsrlər keçsə də, Şəhidlərin xatirəsi hər zaman uca tutulacaq və qəlbimizdə yaşayacaq.

***

***Vətən uğrunda, torpaq uğrunda, müqəddəs amal uğrunda canından keçməyə hazır ola bilməkdi Şəhidlik!...***

***Yola çıxarkən bu yoldan dönməmək ehtimalını bilə-bilə addımlamaqdı, hər şeyi arxada buraxa bilməkdi Şəhidlik!...***

Cəbrayıl Ağayev da bu müqəddəs yolun sonunda ölümün var olduğunu dərk edərək çıxmışdı yola. Çünki onun üçün vətən torpağının müqəddəsliyi ölümdən üstün idi. Onu bu çətin yoldan çəkindirməyə cəhdlər edilsə də, heç kimə məhəl qoymamışdı. Özü də çox yaxşı bilirdi ki, vətənin bağrını dələn mərmilər bir gün onun da bağrını al qana boyaya bilər. ...Və bu müqəddəs amalından, vətənə olan sevgisindən heç bir qüvvə qəhrəman vətən oğlunu çəkindirə bilmədi.

01 yanvar 1993-cü il...

Şaxtalı qış gecəsi...

Şivlə kəndindəki səssizlik adamı vahiməyə salırdı. Kəndin üstünü alan qara buludlar, yerdə ağaran qar adamın canına üşütmə salırdı... Qarabağda qızğın döyüşlər getdiyindən hamı səksəkə içində idi...

Gecə yarısı kəndə hay düşdü. “Kəndə şəhid gəlir”- xəbəri ev-ev dolaşdı, qapı-qapı gəzdi. Təkcə Atamalı kişinin ailəsindən gizlətdilər bu xəbəri.

Həmin gecə kəndin say-seçmə kişiləri öz şəhidini qarşılamaq üçün Lerikin 50-ci kilometr adlandırılan məntəqəsinə getdilər və səhərə qədər orada kəndin qəhrəman oğlunun yolunu gözlədilər.

02 yanvar 1993-cü il...

Şəhid Cəbrayılın üçrəngli Azərbaycan bayrağına bürünmüş nəşi kəndə girəndə bütün kənd ayaqda idi. Hər kəs göz yaşları içində şəhidiylə vidalaşmağa toplaşmışdı. Onda hələ Cəbrayılın babası Mahmud kişi də sağ idi. Bu xəbəri ondan gizlətməyə çalışsalar da, mümkün olmamışdı. Sevimli nəvəsinin şəhid xəbərini eşidər-eşitməz çətinliklə də olsa, durub gəlmişdi. O, həyətə girəndə hamı özünə toxtaqlıq verməyə çalışdı, ürəkləri nə qədər dağlansa da. Sözə başlayanda hamı susmuşdu. Üzünü oğlu Atamalı kişiyə tutub dedi:

-Oğlum, bilirəm, ata-ana üçün övlad itkisi sözlə ifadə olunmayacaq qədər çətindir. Amma bir şeyi unutma ki, sənin oğlun şəhid olub. Onun yeri cənnətdədir. Övladımız bu gecə Şəhidlər ağası Həzrət İmam Hüseynin qonağıdır...

Şivlə kəndi belə bir izdihamlı dəfn mərasimi ömründə görməmişdi, bəlkə də... Qəribədir... Həmin gün buludlar çəkilmiş, axşamkı havadan əsər-əlamət qalmamış, günəş şüalarını yerə sərmişdi. Sanki göydəki mələklər də Şəhid Cəbrayılın pişvazına çıxmışdı...

02 yanvar 1993-cü ildə Şivlə kəndi qəhrəman oğlunu hörmət və ehtiramla son mənzilə yola saldı. Ondan sonra iki oğul övladı – Teymur və Seymur və bir neçə ay sonra doğulacaq qızı Səidə yadigar qaldı.

Cəbrayıl şəhid olduqdan sonra Səbzə gəlinin dünyası uçulmuşdu başına. Həyat mənasını itirmişdi onunçun. Cəbrayılsız keçən hər günü daha çox üzürdü onu. Özü də hiss edirdi ki, bu ağrı-acıyla çox yaşaya bilmə-



Cəbrayıl Ağayev və həyat yoldaşı Səbzə.

yəcək. Zaman durmuşdu onunçun sanki. Cəbrayıldan sonra çox yaşaya bilmədi, düz yeddi ay sonra könül həmdəminə qovuşmaq üçün vida etdi bu ehtibarsız dünyaya Səbzə gəlin...

Bu gün onların həyatı bir yarımçıq dastana dönüb, Cəbrayıl və Səbzə dastanına...

***Bu yarımçıq məhəbbətə yas tutub,***
***Mələklər də ağı deyib ağlayır.***
***Arzuları külə dönüb sovrulan,***
***Nakam eşqi ürəkləri dağlayır.***



Cəbrayıl Ağayev. Xatirə şəkli. 1989-cu il



Cəbrayıl Ağayev. Xatirə fotosu. 1989-cu il.




Xatirə lövhəsi. Privolnoye qəsəbəsi.



Cəbrayıl Ağayevin son fotosu . 1992-ci il.



C.Ağayev adına Biləvər kənd orta məktəbi.



*Cəbrayıl Ağayevin vurulan maşını.*



Cəbrayılın və Səbzənin məzarı.

*Vətənin üstünü qara buludlar,*
*Alanda haraya yetişdi o da.*
*Vətən torpağını qorumaq üçün,*
*Sanki sipər oldu alova, oda.*

*Öpüb torpağını, basdı bağrına,*
*Hər ağrı-acıya şahid Cəbrayıl.*
*Adın qəhrəmanlıq kitabəsinə,*
*Yazıb həkk elədi Şəhid Cəbrayıl.*

*Bu da bir tarixdi, yazılsın gərək,*
*Silinməz nisgildi, ağrı-acıdı.*
*Hər şəhid məzarı, hər dağılan yurd,*
*Vətənin köksündə dərd ağacıdı.*

*Unutma, yurddaşım qanlı illəri,*
*Hələ vətənimin yarası qanlı.*
*Hələ qulağında körpə səsləri,*
*Hər daşı, torpağı, qayası canlı.*

*Soyuq məzarstan... Əsir küləklər...*
*Söykənib bir qara daşa şəkillər.*
*Yarımçıq bir ömrün arzularını,*
*Danışır... danışır qoşa şəkillər...*

Bu gün Şivlə məzarlığının yanından keçən hər kəs qeyri-ixtiyari dayanıb bir anlıq uzaqdan boylanan qoşa şəkillərə nəzər salır. O şəkillərin üzündəki təbəssüm cənnəti xatırladır, sanki...

## XATİRƏLƏRDƏ YAŞAYAN QƏHRƏMAN

Bəlkə də, dünyada heç bir canlı varlıq analar qədər öz övladını tanıya bilməz. Çünki onlar bütün varlıqlarıyla, ruhlarıyla övladlarının hər ağrı-acısını, sevinc və kədərini hiss edə bilirlər. Hətta, övladından uzaq olsalar belə... Övladını itirən bir ana ömrünün sonuna kimi bu nisgillə yaşayar və bu nisgil onunla məzara qədər yoldaş olar.

Bəzən həyatda elə ağrılar, acılar olur ki, onları ifadə etmək üçün söz də aciz qalır. Bunu ancaq o ağrını yaşayan, hiss edən insanlar bilər. Şəhidlərimiz haqqında çox kitablar yazılıb, filmlər çəkilib, əsərlər həsr olunub onlara. Lakin nə qədər əsərlər, kitablar, şeirlər, poemalar yazılsa da, filmlər çəkilsə də, şəhid analarının nisgilini ifadə etmək mümkün olmamışdır.

Bu gün haqqında kitab yazmaq istədiyim Qarabağ Müharibəsi şəhidi, baş gizir Cəbrayıl Atamalı oğlu Ağayevin ailəsi ilə həmsöhbət oldum. İlk öncə şəhidin anası <u>Həcər ana</u> ilə söhbətləşdik. Cəbrayılın şəhadətindən 29 il keçməsinə baxmayaraq, Həcər ana oğlu haqqında sanki dünən şəhid olmuş şəhidin anası kimi danışırdı. Yarası hələ təzə, qaysaq bağlamamış idi.

**-Cəbrayıl necə övlad idi və sizin xatirənizdə hansı xüsusiyyətləri ilə qalıb?**

-Əslində, ata-ana üçün övladların fərqi yoxdur. Çünki onlar hər övladına eyni sevgini göstərirlər. Mənim 7 övladım vardı, 4-ü oğlan, 3-ü qız. Ancaq Allah bir oğlumu məndən alıb dərgahına apardı, - deyib göz yaşlarını

saxlaya bilmir Həcər ana.

O vaxtlar övlad böyütmək asan deyildi. Çox çətin vaxtlar idi. Camaat yarıac, yarıtox günün, güzaranın keçirirdi. Həmişə çalışmışam ki, onların arasında fərq qoymayım. Mirzəcan (Yaxınları Cəbrayıl Ağayeva Mirzəcan deyərdilər. X.M.) özü fərqli idi. Uşaq yaşlarından fərqlənirdi hər kəsdən. Atası çox vaxt evdə olmazdı, dövlət işləri ilə əlaqədar günün çox hissəsini işdə keçirərdi. Mirzəcan məni əziyyət çəkməyə qoymazdı. Hətta ev işlərində belə mənə yardım edərdi. Kənd yeri olduğuna görə biz çörəyi təndirdə bişirərdik. Mən xəmiri yoğurana qədər o, təndiri yandırardı, xəmir xonçasını gətirərdı mənim üçün. Belə oğul idi Mirzəcan. Təkcə ailəsi üçün deyil, hamı üçün əziz idi. Hamı onu çox istəyirdi. Hər kəsə sevdirmişdi özün. Elə bir adam tapmazsan ki, ondan narazı olsun. Dinə çox bağlı idi. Ümumiyyətlə, bizim ailəmiz dindar ailə olub. Mirzəcanın babası, əmiləri kəndin hörmətli din xadimləri idilər. O da o mühitdə böyümüşdü. Atası da dini mərasimlərdə həmişə qabaqda gedirdi. Babasını çox istəyirdi, günü demək olar ki, babasıgildə keçərdi.

Böyüdü, orta məktəbi bitirdi, əsgər yola saldım övladımı. Əfqanıstanda 4 il odun-alovun içində xidmət elədi. Mən onda Əfqanıstanda müharibə olduğunu bilmirdim. Həmişə məktublarında hər şeyin yaxşı olduğunu yazardı.

Xidmətini başa vurduqdan sonra kəndə qayıtdı. Bütün analar kimi mən də sevindim, sevindim ki, daha çətin günlər arxada qaldı. Hansı ana istəməz ki, övladı

gözünün qabağında olmasın, işləməsin, ata-anasına dayaq olmasın? Mənim balam da əsgərlikdən sonra kolxozda işə düzəldi. Atası kolxozda məsul vəzifədə işləyirdi. Bir müddət işlədi, sonra məktəbə daxil oldu. (Texnikum nəzərdə tutulur. X.M). Məktəbi bitirdikdən sonra eşitdim ki, hərbidə işə düzəlib. Sevindim, fərəhləndim ki, artıq övladım iş sahibidi. O vaxt sakitçilik idi. Heç kimin heç kimlə işi yox idi.

Bir gün gəlib yanımda oturdu və əlini atdı boynuma, qucaqladı məni. Gördüm sözlü adama oxşayır. Gülə-gülə dedim, nə olub, deyəsən, nənəyə işin düşüb. Uşaqlarım məni nənə çağırırdılar. Utana-utana bibisi qızı Səbzəni sevdiyini bildirdi. Bir ana üçün bundan gözəl xəbər ola bilməzdi. Sevindiyimdən sanki uçmağa qanadım yox idi. Qucaqladım, üz-gözündən öpdüm, başını qoydum sinəmə. Dedim, narahat olma, atan gəlsin, gedərik elçiliyə.

Biz el adəti ilə elçiliyə getdik, nişan oldu, sonra da təm-təraqla toy edib övladımızı evləndirdik. Ailə qurduqdan sonra Mirzəcan işiylə əlaqədar Cəlilabad rayonunun Privolnoye kəndinə köçdü. Orda ev alıb məskunlaşdılar.

Erməni-müsəlman davası (Qarabağ müharibəsi nəzərdə tutulur. X.M.) başlayanda Mirzəcan Privolnoye polkunda (İndiki Göytəpə) komandir idi. Qarabağa döyüşə gedəndə atası gedib qalardı evində. Uşaqlar onda körpə idilər.

Sonuncu dəfə həmin ilin payızında kəndə gəlmişdi. Sanki sonuncu gəlişi imiş kimi, bütün qohum-əqrəbaya

baş çəkdi. Getməmişdən bir gün qabaq yuxu görmüşdü. Səhər yuxudan oyananda yuxusunu mənə danışdı. Dedi, nənə, Mahmud babanı gecə yuxuda görmüşəm. Gördüm mənə deyir, səni çox istəyirəm, səninçün təzə ev tikmişəm, ora köçərik. O bu yuxunu danışandan sonra sanki ürəyimin bir teli qırıldı. Ancaq özümü o yerə qoymadım, dedim narahat olma, başına dönüm,yaxşı yuxudu, təzə evə köçərsən. Nə biləydim ki, bir neçə aydan sonra balamın təzə evi qara torpağın altı olacaq.

Çox yalvardım ki, bala getmə. Dedi, yaxşı, mən getməsəm, o getməsə, bəs kim gedib bu torpaqları qoruyar. Yola düşəndə məndən halallıq istədi. Dedi, nənə, haqqını halal et. Həyatın işidi, bilmək olmaz, başıma bir iş gəlsə, ailəm, övladlarım sizə əmanət. Böyük oğlu Teymuru xüsusi olaraq tapşırdı. Teymurdan muğayat olarsınız, onu sizə, sizi də Allaha tapşırıram, -dedi.

Onu aparan maşın evdən uzaqlaşdıqdan sonra göz yaşlarımı saxlaya bilmədim. Elə bil ürəyimə dammışdı ki, bu onun kəndə sonuncu gəlişidir. O getdikdən sonra da bu narahatçılıq məni tərk etmədi. Həmin vaxtlar qonşu kəndlərimizə tez-tez şəhid tabutları gəlirdi.

Həmin il qış çox sərt gəlmişdi. Qar o qədər çox yağmışdı ki, həyət-bacada gəzmək olmurdu. Dekabrın 31-i gecəsi kəndə bir hay düşdü. Gecə bacım gəlini də gəldi bizə. Səhərə qədər də bizdə qaldı. Kimdən soruşdum nə hadisə baş verdiyini, boynuna alan olmadı. Səhər sübh namazına duranda göyə baxdım, gördüm kəndin üstünə bir hüzn çöküb. İçimdəki narahatlıq getdikcə artırdı. Əllərimi göyə qaldırıb dedim: -İlahi, görəsən

yenə kimin evinin çırağı sönüb. Sən özün əsgərlərimizi qoru, övladlarımızı düşmən gülləsindən amanda saxla, ya Rəbbim. Daha nə biləydim ki, elə mənim evimin çırağı sönüb.

Yanvar ayının 1-i, günortaya yaxın balamın tabutu həyətimizə daxil oldu. Və mən o zaman oğlumun şəhid olduğunu bildim. Daha bundan sonrakını sözlə ifadə eləmək üçün ürək tab gətirməz. Bir gün belə yadımdan çıxmır. Hər dəfə evin qapısı açılanda elə bilirəm Mirzəcan girəcək içəri. Oğul itkisi nə qədər çətin olsa da mənim üçün, həmişə bir təsəlli ilə yaşamışam, oğlum şəhid olub. Allahın dərgahında, cənnətdədir indi. Mən də daha qocalıb əldən-ayaqdan düşmüşəm, ona qovuşacağım günü gözləyirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin, şəhid analarına sadəcə səbir versin.

**Qardaşı Baləli Ağayev** Cəbrayıl haqqında həm ürək ağrısı, həm də qürurla danışır.

-Cəbrayıl bizim kiçik qardaşımız idi. Ərköyün uşaq idi. Hamımızdan çox onu əzizləyirdilər. Əslində, evin sonuncu oğlan övladı olduğuna görə bizim üçün də xətri əziz idi. Ərköyün olmasına baxmayaraq, hər kəsə özünü sevdirməyi bacarardı. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yola saldıq onu. Dörd il orda xidmət etdikdən sonra vətənə qayıtdı. Vətənə qayıtdıqdan sonra bir müddət kolxozda işlədi, sonra sənədlərini Bakı şəhərində Rabitə Texnikumuna verdi və texnikuma daxil oldu. Texnikumu bitirdikdən sonra isə hərbidə işə düzəldi. Həmin vaxtlar isə Sovet hökuməti artıq son günlərini yaşayırdı. Ölkədə qarışıqlıq yaranmışdı. Soydaşları-



Cəbrayıl Ağayev qardaşı Baləli ilə.

mız nankor qonşularımız tərəfindən dədə-baba yurdlarından didərgin salınmağa başlanılmışdı. 1990-cı ilin 20 Yanvarında əliyalın xalq rus ordusu tərəfindən güllə-baran edildi. Ermənistan da bu fürsətdən istifadə edib torpaqlarımızı işğal etməyə başladı və 1991-ci ildən artıq müharibə başladı. Ordumuz az, silahımız yox, ölkədə vəzifə davası gedir, düşmən isə arxalı... Belə bir vaxtda mübarizə aparmaq heç də asan deyildi...

Biz iki qardaş, yəni böyük qardaşım Məmmədəli ilə ailə qurub ata ocağından ayrıldıqdan sonra Sabirabad rayonunda məskunlaşdıq. Cəbrayıl həmin vaxtlar bizə tez-tez baş çəkərdi. O bizə gələndə mən onu hərb işindən çəkindirməyə çalışırdım. Ancaq o mənə deyirdi ki, axı mənim kimi təcrübəli, müharibə görmüş insanlar orduda çox azdır. Ordunu qurmaq vəzifəsi bu gün bizim çiyinlərimizdədir. Əgər mən və mənim kimi təcrübəli zabitlər geri çəkilsək, ordumuz dağılar və bu vətənə xəyanət sayılar.

Cəbrayıl nə qədər səmimi, mehriban, hər kəsə can yandıran bir insan idisə, bir o qədər də işində sərt, əzmkar və qətiyyətli bir zabit idi. O qədər mehriban, o qədər qohumcanlı idi, harda bir yaxınımız vardısa, gedib onu tapardı. Hamı onun xətrini əziz tutardı. Belə qardaş idi Cəbrayıl.

Döyüşə getməmişdən bir gün qabaq ona baş çəkməyə gəlmişdim. Gördüm yenə harasa tələsir. Soruşdum yenə hara tələsirsən? Dedi, təcili getməliyəm, düşmən Laçına yaxınlaşır. Mən yenə ona dedim, getmə. Çünki biz ölkədə olan hərc-mərcliyi görürdük. Ancaq o,

yenə mənə qulaq asmadı, getdi vətənin harayına. Və bu onun sonuncu gedişi oldu...

Cəbrayıl kimi bir qardaşı itirmək bizim üçün çox ağır oldu. O bizim heç birimizə bənzəmirdi. Qardaşlıqdan əlavə o bizə bir dost, sirdaş, yolgöstərən şəxsiyyət idi. Neyləmək olar, şəhidlik zirvəsinə ucalmaq onun da alın yazısı imiş... Allah bütün şəhidlərimizə rəhmət eləsin. Belə bir qəhrəman qardaşla fəxr edirəm.

Cəbrayıl Ağayev şəhid olanda böyük oğlu **Teymur** iki yaş yarımlıq idi. Ata sevgisinin nə olduğunu yenicə hiss etməyə başlamışdı. Onun körpə qəlbində iməkləyən bu sevginin ömürlük bir ayrılıqla əvəzlənəcəyindən xəbəri yox idi. Amma neyləmək olar, bəzən həyat bizim istəklərimizin, arzularımızın əksinə hərəkər edir...

Teymurun atası haqqında olan xatirələri yalnız babasından, nənəsindən, əmilərindən, yaxın qohumlarından, atasının döyüş yoldaşlarından eşitdikləridir. Bir də sonuncu dəfə Qarabağa yola düşməmişdən əvvəl onu bağrına basıb qucaqlamağı, onunla sağollaşmağı, uzaqdan onlara əl eləməyi Teymurun uşaq yaddaşının bir küncündə ilişib qalmış, ömrünün sonuna kimi yaşayacaq şirin xatirədir.

Teymur böyüdükcə, yaşa dolduqca atasızlığın ağır yükünü çiyinlərində daha çox hiss etdiyini deyir. -“İndi artıq yaşa dolmuşam, ailəm, övladlarım var. Ancaq hər zaman atasızlığın ağrısını hiss edirəm. Bir çətinə düşəndə, fikirləşirəm, əgər atam sağ olsaydı, çiyinlərimi ona söykəyərdim. Amma, neyləmək olar. Taleyin bizim üçün yazdığı bu həyatla razılaşmaq məcburiyyətində-



Cəbrayıl Ağayevin böyük oğlu Teymur.

yəm. Az da olsa, atam haqqında onu tanıyanların ürək dolusu danışmaları mənə təsəlli verir, ağrılarımın üzərinə su çiləyir. Nə qədər bu yükü çəkmək ağır olsa da, şəhid oğlu olmağımla qürur duyuram," -deyir Teymur.

Atası canını vətənə qurban deyib şəhidlik zirvəsinə ucalanda kiçik oğlu **Seymurun** bir yaşı vardı. Seymur



**Cəbrayıl Ağayevin kiçik oğlu Seymur.**

həyatın nə olduğunu hələ bilmirdi onda. O da atasızlığın ağrısını böyüdükcə hiss etdi çiyinlərində.

Qızı **Səidə** isə hələ dünyaya göz açmamışdı. Cəbrayıl şəhid olduqdan bir-neçə ay sonra gəldi dünyaya Səidə və atasının üzünə həsrətlə böyüdü. Qız övladla-

rının həyatda ən çox sevgi umduğu şəxs ataları olur. Qızlar üçün bütün sevgilər ata sevgisindən sonra gəlir. Və Səidə işıqlı dünyaya göz açmamışdan öncə məhrum qaldı bu sevgiyə...

Cəbrayıl Ağayev hamı üçün doğma idi, əziz idi. Hər kəsə sevgiylə, rəğbətlə yanaşan bir insan idi. Ona görə hər kəsin qəlbində özünə bir yuva qurmuşdu. Bacısı Sakitə Cəbrayıl haqqında danışarkən göz yaşlarını saxlaya bilmir.

-Eyni yaşda olmasaq da, həmyaşıd kimi böyümüşük Cəbrayılla. Bir bibimiz var, **Aliyə,** bizimlə eyni yaşda. Sanki biz bir qardaş, iki bacı idik. İki il yaş fərqimiz vardı onunla. Məktəbə bir yerdə gedərdik həmişə, biz-



Sağdan əmisi oğlu Araz, bibisi Aliyə, baçısı Sakitə

dən ayrılmazdı. Bu qədər yaxın, bu qədər doğma idi bizə Cəbrayıl.

Babamgilin açıq eyvanlı bir evi vardı. Yay aylarında günümüz orada keçərdi. Elə vaxt olardı, gecə evə də gəlməzdik. Yatıb qalardıq babamgildə. Böyüyüb yaşa dolduq, Cəbrayılın da əsgərlik yaşı çatdı və onu sovet ordusu sıralarına yola saldıq. Təsəvvür edin, uşaqlıqdan bir yerdə böyüdüyümüz qardaşımız bizdən ayrılır. Bu ayrılığa öyrəşmək, dözmək bizim üçün heç də asan olmadı. Xidmət illərində, bəlkə də, ən çox məktublaşdığı insan mən idim. Bu iki ildə onun ətrini məktublarından alırdım. İki ildən sonra xidmətini başa vurub geri döndü. O, evimizə çatanda elə bil bizə dünyanı vermişdilər. Həmin günün sevincini sözlə ifadə etmək çətindir.

Bir müddət evdə qaldıqdan sonra yenidən könüllü xidmətə getmək istədiyini bildirdi. Hamımız buna qarşı çıxsaq da, o razılaşmadı və yenidən Əfqanıstana qayıtdı. İki il də əlavə xidmət etdikdən sonra kəndə qayıtdı. Kəndə qayıtdıqdan sonra ali təhsil almaq üçün sənəd verdi. Rabitə Texnikumuna daxil oldu, sonra ev aldı Cəlilabadda, ailə qurdu. Bütün bunlar bir ilin içində baş verdi. Sanki özü də hiss edirmiş kimi, tələsirdi. İki oğlu gəldi dünyaya. Üçüncü övladını gözləyirdi. Həmişə deyərdi ki, qız övladı istəyirəm. Ancaq nə o qızının üzünü görə bildi, nə də qızı onun üzünü... O, şəhid olandan üç ay sonra dünyaya gəldi qızı Səidə.

Ailəcanlı, quhumcanlı, hər kəsə sevgiylə yanaşan, böyük-kiçik yeri bilən, mərd, qorxmaz bir insan idi qar-

daşım. Onun yoxluğuyla heç cür barışa bilmirəm, illər keçsə də... Bir tərəfdən də fəxr edirəm ki, şəhid bacısıyam. Qardaşım vətən yolunda canından keçib. O uca zirvəyə yüksəlmək hər kəsə nəsib olmur.

Cəbrayılın böyük qardaşı **Mamed Ağayevin** qardaş itkisiylə barışa bilmədiyini səsinin titrəyişindən hiss etməmək mümkün deyil...

-Mən Cəbrayılın böyük qardaşı olsam da, ondan çox şey öyrəndim. O, hər cəhətdən bizdən irəlidə idi. Bir gün bizi tərk edəcəyini, hər kəsə nəsib olmayan, ancaq hamının arzusunda olduğu bir zirvəyə -şəhidlik zirvəsinə ucalacağını bilirdi sanki...

Səmimi, istiqanlı, yerini bilən, hər kəsə qarşı sevgi və hörmətlə yanaşan bir insan idi Cəbrayıl. Bir böyük qardaş kimi heç vaxt ondan narazılığım olmayıb. Çox ağırdı, çox... Cəbrayıl kimi bir qardaşı itirmək, bu dərdi sinəyə çəkmək bizim də alnımıza yazılıbmış. Neyləmək olar... Ancaq onu bilirəm ki, qardaşım ən uca zirvə olan şəhidlik zirvəsinə ucalıb. Onun yeri cənnətdədir. Ancaq bunları düşünəndə ürəyim sakitlik tapır bir az, -deyir **Mamed Ağayev.**

Cəbrayılın qardaşı **Mirzəli Ağayev** onun haqqında danışarkən deyir:

-Cəbrayıldan yaşca böyük olsam da, onu özümə arxa-dayaq hesab edirdim. Aramızda üç il yaş fərqi vardı. Ancaq əkiz qardaş kimi idik. Mən ata ocağında yaşadığıma görə demək olar ki, Cəbrayılın ömrünün çox hissəsi indi yaşadığım evdə keçib. Cəbrayılın qoxusu, xatirələri, divarlara hopmuş nəfəsi indi də evimizi isi-

dir. Otaqların birinin divarlarını onun şəkilləri bəzəyir.

Sonra Əfqanıstanda xidmətdə oldu. Dörd il orda xidmət etdi. Xidmətdə olanda bir-iki dəfə məzuniyyətə gəldi. Hər gəlişi də bizim üçün toy-bayram olurdu.

Hərbi xidmətini başa vurduqdan sonra texnikuma



Cəbrayıl Ağayev qardaşı Mirzəli ilə.

qəbul oldu, sonra da hərbidə işə düzəldi. İşiylə əlaqədar Cəlilabada köçdü. Qarabağ müharibəsi başlayanda döyüşlərin ən fəal iştirakçısı oldu. O bizdən fərqlənirdi. Bacarıqlı, mərd, vətənpərvər, cəsur bir insan idi. Vətənin dar günündə baş verənlərə biganə qala bilməzdi. Bu onun təbiətinə yad idi. Və elə sevdiyi vətən torpaqları uğrunda da da canından keçdi. Unudulmaz qardaş

idi Cəbrayıl. Belimizi bükdü onun ölümü. Unudulacaq ağrı deyil bu ağrı...

Bibisi **Aliyənin** gözləri yaşarır Cəbrayıl haqqında danışanda.

-Onu hər kəsdən çox istəyirdim. Bibilərin kiçiyi mən idim. Cəbrayıl məni bacısı Sakitədən ayırmırdı. Elə bil bibisi yox, bacısı idim. Əfqanıstandan məzuniyyətə gələndə Sakitə üçün nə hədiyyələr almışdısa, eynisindən mənim üçün də almışdı... Axırıncı döyüşündən şəhidlik xəbəri gələndə cox sarsıldım... Bir il çəkmədi, həyat yoldaşı Səbzə də Cəbrayılın yoxluğuna dözə bilmədi... Körpələr baba ilə nənənin ümidinə qaldılar... Nisgilimizi sözlə ifadə etmək mümkün deyil. Təsəllimiz odur ki, Vətən yolunda getdi, ondan sonra üç ləyaqətli övladı qaldı...

Cəbrayılın əmisi **Güləli Qasımova** Cəbrayıl haqqında kitab yazdığımı bildirəndə çox sevindi.

-Həmişə istəmişəm ki, şəhidlərimizin həyatı, döyüş yolu haqqında gənc nəslə geniş məlumat verilsin.

Özüm Dağıstanda yaşasam da, vətənimi, onun igid, qəhrəman şəhid övladlarını heç vaxt unutmuram. Övladlarımı da bu istiqamətdə maarifləndirirəm. Çünki şəhidlərimiz bizim qürur mənbəyimizdir.

Böyük qardaşım Atamalının oğlu Cəbrayıl da, digər qardaşım İslamın oğlu Azərbaycanın Milli Qəhrəmanı Fərhad Ağayev da vətən yolunda, torpaq yolunda şəhidlik zirvəsinə ucalıblar. Bir əmi üçün bundan böyük qürur yeri ola bilməz.

Cəbrayıl heç kimə bənzəmirdi. Çox qohumcanlı, is-

tiqanlı insan idi. Onunla tez-tez görüşməsək də, əlaqələrimiz kəsilmirdi. Hər dəfə görüşüb-ayrılanda elə bir xoş xatirə qoyub gedərdi ki, adam onu unuda bilməzdi.

Xoşxasiyyət, mehriban, zarafatcıl insan idi Cəbrayıl. Onun xoş siması heç yadımdan çıxmır. Mən qardaşım uşaqları ilə fəxr edirəm və qürur duyuram. Allah şəhidlərimizə rəhmət eləsin!

Cəbrayıl və onun kimi vətən uğrunda canından keçən şəhidlərimiz bizim qürur mənbəyimiz, and yerimizdir.

Cəbrayılın əmisi oğlu **İmran Ağayev** onun haqqında danışanda unudulmaz bir insan olduğunu deyir.

-Məndən yaşca kiçik idi Cəbrayıl. Kənddə evlərimiz bir-birinə çox yaxın idi. Bir yol ayırırdı.evlərimizi. Yolumuz da onların həyətindən keçirdi.

Cəbrayıl heç kimə bənzəmirdi. Uşaqlıqdan onda qeyri-adi bir cazibə vardı. Adamı özünə tez bağlaya bilirdi.

Bəzən bir məsələ haqqında müzakirə aparanda qarşıdakı adam öz fikrinin daha üstün olduğunu sübut etməyə çalışır. Ancaq Cəbrayıl belə deyildi. O, çox təmkinli və geniş düşüncəyə malik, eyni zamanda, səmimi, qohumcanlı, xoşxasiyyət, sevgi dolu bir insan idi.

Hərbi xidmətini Əfqanıstanda keçirdi. Bir əmioğlu kimi qürur hissi keçirirdim ki, əmim oğlu Beynəlmiləl orduda xidmət edir. Orada o, bir neçə medal da qazanmışdı. Sonra mən instituta qəbul olundum. Təhsilimlə əlaqədar Rusiyaya getdim. Təhsilimi başa vurub 1992-ci ildə Azərbaycana qayıdanda Cəbrayıl artıq Cəlilabad

rayonunun Göytəpə qəsəbəsində yerləşən hərbi hissədə işləyirdi. Həmin illər müharibənin qızğın vaxtları idi. O vaxtlar onunla bir neçə dəfə görüşümüz oldu. Hər görüşəndə ermənilərin Qarabağda törətdiyi vəhşiliklərdən, dinc əhaliyə qarşı törətdiyi qırğınlardan ürək ağrısıyla danışardı. Elə hey deyərdi ki, bu yağı düşməni torpaqlarımızdan qovmasaq, bizə rahatlıq yoxdur. Ancaq bu ona qismət olmadı, çox heyif...

Şəhid olma xəbəri gələndə ilk eşidənlərdən biri də mən idim. Onda kənddə idim. Şaxtalı bir qış gecəsi idi. Dizəcən qar yağmışdı. O gecə çəkdiyimiz iztirabı sözlə ifadə etmək çox çətindir...

Bu gün digər şəhidlərimiz kimi Cəbrayılın da ruhu şaddır. Uğurunda can verdiyi Vətən torpaqları indi azaddır. Ruhu şad olsun. Biz onunla qürur duyuruq və heç vaxt onu unutmayacağıq.

Cəbrayıl Ağayevlə bir yerdə böyüyən, qohumluqdan əlavə yaxın dost münasibətində olmuş, hazırda Rusiya Federasiyasının Samara şəhərində yaşayan **Bilal Əliyev** Cəbrayılla bağlı xatirələrini bizimlə bölüşür. O, Cəbrayılla çox yaxın dost, sirdaş olduğunu deyir:

-Cəbrayıl mənim dayım oğludur. Onunla bir-iki il yaş fərqimiz var idi. Ancaq həmişə bir yerdə olmuşuq. Bizim hamımızın ortaq bir görüş yeri vardı. Mənim ana babam, onun isə ata babası olan Molla Mahmudəli kişinin evi ən çox toplaşdığımız yer idi. Uşaqlığımız demək olar ki, orda keçib. Bu evin qapıları bütün qohum-əqrəba üçün həmişə açıq idi.

Cəbrayıl mənə təkcə dayıoğlu kimi deyil, həm də bir



Cəbrayıl Ağayev, Bilal Əliyev və dostları.

yaxın dost, sirdaş, yol yoldaşı kimi doğma idi, əziz idi.

Uşaqlığımız bir yerdə keçib. Ya mən onlara gedərdim, ya da o, bizə gələrdi. Günlərimizin çoxu isə Mahmud babagildə keçərdi. Çox mehriban, istiqanlı, dost yolunda canından keçən, yoldaşlıqda möhkəm və etibarlı insan idi. Birlikdə bir iş görəndə həmişə çalışardı ki, işin ağır tərəfi ona düşsün. Belə insan idi Cəbrayıl.

1980-ci ildə bizi kolxozda üzüm sahələrinə nəzarətçi kimi işə götürdülər. Elə həmin ildə biz "Panavan-don" deyilən meşə ərazisində örüş yeri tutduq. Uzun müddət həmin qoruqlar bizim adlarımızla tanındı. Cəbrayılın vaxtilə çəpərlədiyi həmin meşə sahəsini indi qardaşı Mirzəli qoruyur.

Hərbi xidmətdən qayıtdlqdan sonra da münasibətlərimiz davam etdi. Sonra biz bir də qohum olduq. Bacım Səbzə ilə ailə həyatı qurduqdan sonra münasibətlərimiz bir az da istiləşdi.

Cəbrayılla olan xatirələrim çoxdur. Saymaqla qurtarmaz. "Honiədül" adlanan ərazidə onunla birlikdə bostan əkərdik. Hər gün bir yerdə gedib əkdiyimiz sahəni suvarardıq.

Kəndçimiz Cabir kişinin həyətində bir kiçik su anbarı var. İndi də durur. Bax onu Cabirin atası rəhmətlik Mürsəl kişi üçün Cəbrayılla ikimiz tikmişik. Həmişə Cabirgilin həyətinə qalxanda o anbar gözümə sataşar və Cəbrayılla keçirdiyimiz günlər yadıma düşərdi.

Cəbrayılın Vətən yolunda şəhid olması, az sonra bacım Səbzənin də bu ağrıya dözməyib dünyadan köçməsi bizi çox sarsıtdı. O ağır illər heç vaxt yadımdan

çıxmır. Bir də arada özümə təsəlli verirəm ki, tanıdığım, dostluq etdiyim, mənə doğma olan bir insan ən ali məqama, şəhidlik zirvəsinə ucalıb. Allah hər ikisinə rəhmət eləsin.

**Fikrət Əliyev** Cəbrayılla yaxın qohum olmaqdan əlavə həm də çox yaxın dost, sirdaş olduğunu deyir.

-Cəbrayıl haqqında xatirələr çoxdur. Ancaq nədən başlayım, hardan başlayım heç özüm də bilmirəm. Gözəl dost, səmimi insan, öz yerini bilən, qohumcanlı, dost ylunda canından keçən bir insan idi Cəbrayıl.

Mənim onun haqqıda xatirələrim tükənməzdir. Biz yeznə-qayın, dayı-bibioğlanları kimi yox, qardaş kimi olmuşuq. Çox yerdə olmuşam onunla. Salyanda, Sabirabadda, Şirvanda, Lənkəranda o qədər xoş günlərimiz olub ki... Onunla yol yoldaşı olanda adam yorulmazdı. Çox maraqlı yoldaşlığı vardı. Həyatı adama sevdirməyi bacarardı.

Əfqanıstanda dörd il odun-alovun içində xidmət etdi. Yadımdadır, ikinci dəfə məzunuyyətə gəlmişdi. Onu yola salmaq üçün rəhmətlik İslam dayım, İsmayıl dayım, Mamed dayım və Baləli dayımla mən də getmişdik. Qatarla Bakıya yola saldıq onu birlikdə. Unudulmaz insan idi Cəbrayıl. Allah sevdiyi insanları tez aparır yanına, deyirlər. Heyif ki, belə bir insanı çox tez itiririk. Ruhu şad olsun. Biz onu heç vaxt unutmadıq ki...

Cəbrayılın xalası oğlu, eyni zamanda onunla bir sinifdə oxumuş **Tahir Hüseynov** onun təbiətcə sakit, mülayim, dostcanlı, qohumcanlı bir insan olduğunu deyir.

-Artıq qırx ildən çox vaxt keçib o illərdən. Məktəb

illərində baş verən hadisələr də silinib gedib yaddaşımızdan. Mehriban insan idi Cəbrayıl. Hər kəsin arasında mehribanlıq yaratmağa çalışardı. Sinfimizdə küsənləri o barışdırardı həmişə. Məkanı cənnət olsun. Şəhidlər bizim qürur yerimizdi.

**Baba Babayev** Cəbrayıl Ağayevla bacanaq idi. Baba xatirələrində qeyd edir ki, təkcə bacanaq kimi yox, həm də bir yaxın dost kimi onunla münasibətləri olub.

-Rəhmətlik Cəbrayılla biz bacanaq idik. Həm də yoldaşı rəhmətlik Səbzə ilə bir sinifdə oxumuşduq. Qardaşım Elşad da Cəbrayılla bir yerdə xidmət edirdi. Mən tez-tez onlara baş çəkərdim. Çox mehriban, səmimi, qayğıkeş, ürəyiaçıq insan idi. Sanki hərbçi olmaq üçün doğulmuşdu. Hərb sənətinə çox vurğun idi.

Bir dəfə yanına getmişdim. Hərbi hissəyə daxil olanda gördüm ki, əsgərlərə marş mahnısı öyrədir. Mən kənarda durub onlara baxırdım. Cəbrayılın öz işinə necə sevgiylə yanaşdığının şahidi oldum onda. Mahnını o qədər gözəl oxutdururdu ki, əsgərlərə hətta mülki sakinlər də yığışıb tamaşa edirdilər onlara. Müharibə alovları çox oğulları aldı ağuşuna. Cəbrayıl da vaxtsız getdi aramızdan. Ancaq onu bilirəm ki, o sevdiyi torpaq uğrunda ən uca zirvə olan şəhidlik zirvəsinə ucaldı. Məkanı cənnət olsun!

Cəbrayıl Ağayev hələ sağlığında hər kəsin qəlbində özünə bir abidə ucaltmışdı. Ən ağır döyüşlərdən sağ çıxan qəhrəman vətən oğlu sonuncu döyüşündə xain düşmən gülləsindən yayına bilmədi. Onun ölümünə heç kim inana bilmədi. Çünki o, hər kəsin xəyalında ölümsüz

qəhrəmana çevrilmişdi. Hətta kənddə onun haqqında bir əfsanə də dolaşırdı. Deyirdilər ki, Cəbrayılın babası ona gülləbatmaz duası yazıb, ona görə dəfələrlə ağır döyüşlərdə iştirak etsə də, ona heç nə olmur.

Təbii ki, bunların hamısı insanların xəyali düşüncəsi idi. Cəbrayıl döyüş taktikasını yaxşı bildiyi üçün qatıldığı döyüşlərdən düşməni ağır məğlubiyyətə uğradaraq çıxırdı. Bu onun Əfqanıstan müharibəsində qazandığı bilik və bacarıqlarından irəli gəlirdi.

Bu gün artıq Cəbrayıl bizim xatirələrimizin qəhrəmanına çevrilib. Cəbrayıl və onun kimi minlərlə qəhrəman vətən övladı hər zaman bizim xatirələrimizdə yaşayacaqdır.

Hər kəs bu fani dünyaya bir dəfə gəlir və hər kəs də Tanrı tərəfindən ona verilən ömür payını müxtəlif cür yaşayır.

Şəhidlər seçilmiş insanlardır. İnsanlar arasında ən üstün yer Allahın bəyəndiyi ali məqama yüksələn şəhidlərə məxsusdur. Yalnız mərd, xalqını və Vətənini böyük məhəbbətlə sevən qeyrətli, namuslu, vətənpərvər insanlar yüksələ bilərlər bu uca zirvəyə. Belə ömür şərəflidir, əbədidir. Həyatda şücaətlər göstərən, Vətən naminə çarpışan qəhrəmanların adı xatirələrdə yaşayır, onların şərəfinə abidələr ucaldılır, əməlləri barədə şeirlər yazılır, mahnılar, dastanlar qoşulur. Və beləcə onların adı dildən-dilə düşərək tarixin yaddaşına qızıl hərflərlə həkk olunur...

# CƏBRAYIL AĞAYEV HAQQINDA MÜƏLLİF YAZILARI



## ŞƏHİD CƏBRAYIL AĞAYEVİN XATİRƏ GÜNÜ

Kövrək qəlbli şair əmin Qədiməli şəklini vermişdi mənə. Əksinin surətini metala köçürtdürüb qəzetdə dərc etməliydim. Amma baxışlarım baxışının cazibəsindən çıxa bilmədiyindən özüm də hiss etmədən əksini metala deyil, ürəyimə köçürmüşəm. Və görünür, bu cazibədən ömrüm boyu çıxa bilməyəcəyəm, qəlbimin bir guşəsi həmişəlik sənin olacaq.

Cəbrayıl, əmin qan ağlaya-ağlaya deyirdi ki, şəhid olacağın sanki ürəyinə damıbmış. Ölümündən 20 gün əvvəl qısamüddətli ezamiyyət götürüb dünyaya göz açdığın Şivlə kəndinə gəlmişdin. Vidalaşmaq, halallaşmaq üçünmü? Kim bilir, bəlkə də, elə bu məqsədlə vida görüşünə gəlibsənmiş. Hətta qonşu kəndlərə də baş çəkibsən, dost-tanışdan, uzaq-yaxın qohumlardan hal-əhval tutubsan. Səndən incik olanların könlün alıbsan, boynunda haqqı olan müəllimlərinin halallığın istəyibsən. Özün bilsən də son görüşündür, heç kimə bunu sezdirməmisən. Deyib-gülmüsən, kəlmə kəsdiyin adama ürək-dirək vermisən. Demisən ki, az qalıb, çıxacağıq bu murdar ermənilərin axırına.

Qanlı döyüşlərdə dəfələrlə ölümlə üz-üzə gəldiyini evdə heç kimə deməmişdin, sirr kimi saxlamağa çalışmışdın. Bircə Qədiməli əmin bəzi sirlərini səndən "oğurlaya" bilmişdi. Güllə yağışı altında yaralı silahdaşını odalovun içindən çıxarıb bir gəncin ömrünə ikinci ömür

yazdığını bir Allah bilir, bir də həmin yaralı.

Cəbrayıl, bilə-bilə ölümə yol gedərkən Həcər ananı, ömür-gün yoldaşın Səbzəni, gül üzlü balaların Teymur və Seymuru düşünmədinmi? Düşünmədin ki, səndən sonra Həcər ananın "oğul hey" fəryadı göylərə bülənd olacaq, Səbzənin göz yaşı heç vaxt qurumayacaq. Teymurla Seymurun isə gözləri həmişə evin qapısına dikiləcək: analarının "Cəbiş indi gələcək" sözlərinə ovuna-ovuna.

Axirət dünyasına köçməyindən 40 gün ötdü. Düz 40 gün bundan qabaq ürəyin hələ döyünürdü. Vətən eşqiylə, qələbə yanğısıyla. İndi ruhun gəzir başımız üstə cəbhə boyu. Ruhları ruhunla qovuşan şəhidlərlə dərdləşirsən, köməyə çatmağa can atırsan. Şəhid ruhun köməyimizə çatsın, qardaş!

Bilirəm, ruhun başımız üstə rahat gəzə bilmir. Ağdərədəki qanlı döyüşlər, verdiyimiz itkilər sənə də bəllidir. Şəhidlərimizə sən də yanırsan. Nə qədər ki, erməniləri torpağımızdan təmizləməmişik ruhun rahatlıq tapmayacaq.

Əksinlə üz-üzə, göz-gözə dayanmışam. Otaqda bir mənəm, bir də sən. Söhbət edirəm səninlə, dindirirəm, dinirəm. Ürəyim döyünməkdən dayananadək söhbət edəcəyəm səninlə. Sonra isə ruhlarımız qovuşub dərdləşəcək, hey dərdləşəcək...

**Hüsaməddin ABBASOV**
***"Lerik" qəzeti,***
***13 fevral 1993-cü il.***

## YARI QÖNÇƏ, YARI GÜL

Cəbrayıl hərbi xidmətə 1983-cü ilin mayında Özbəkistanda başladı. Elə onda zabit olmaq arzusuna düşdü. Həmin ilin axırlarında onu da Əfqanıstana göndərdilər. Qərib ellərdə dörd il vuruşdu. Dəfələrlə ölümlə üz-üzə dayandı. Bu illəri Həcər ana həyəcan və sarsıntılarla yaşadı. Gecə-gündüz fikir çəkən Atamalı kişi oğlundan aldığı məktublarla təskinlik tapdı...

Lerikdən cəbhəyə ilk yola düşənlərdən biri Cəbrayıl Ağayev idi. Səriştəli hərbçi kimi ən qaynar nöqtələrdə oldu. Ağdam, Füzuli bölgələrində gedən döyüşlərdə fərqləndi.

Ötən il dekabrın əvvəllərində Kəlbəcər-Laçın istiqamətindəki ağır döyüşlərdə iştirak edirdi. Dekabrın son günü sursat aparmaq üçün gələn Cəbrayıl evə də baş çəkir.Sağollaşıb ayrılanda üç yaşlı oğlu Teymuru yanına çağırır, yarızarafat, yarıciddi deyir:

-Anandan, qardaşından muğayat ol, indi daha evin kişisi sənsən...

Bir yanvar səhəri Cəbrayıl üçün də açılmadı. O, bir-neçə silahdaşı ilə düşmən mərmisinə tuş gəldi, şəhid oldu.

Bütün Şivlə kəndi dəfndə iştirak edirdi. Hamı onu öz doğması kimi son mənzilə yola salırdı.

Cəbrayıl ömrün yarı qönçə, yarı gül vaxtında Vətən yolunda canından keçdi. Beləlləri unudulmur. O da unudulmayacaq.

Ş. ƏLİZADƏ
***"Xalq qəzeti"nin bölgə müxbiri.***
***"Xalq qəzeti",***
***09 fevral 1993-cü il.***

# VƏTƏN UĞRUNDA DÖYÜŞƏ HAZIR GƏLMİŞDİ

Cəbrayıl Ağayev Əfqanıstanda 4 il döyüşdükdən sonra 1988-ci ildə böyüyüb boya-başa çatdığı, el-obasına – Lerik rayonunun Şivlə kəndinə gəldi. Artıq təcrübəli topçu kimi yetişmişdi. Ən mühüm hərb sənətinə yiyələnmişdi. Dörd il tanklardan, BTR və BMP tipli hərb maşınından düşmənə atəş açmışdı. Qızğın döyüşlərdə iştirak etmişdi. Yaralanmamış hər hücumu uğurla başa vurmuşdu. Komandanlıq tərəfindən bir neçə medal və fəxri fərmanlarla təltif edilmişdi.

Cəbrayıl hərbi xidməti başa vurduqdan sonra təhsil almağı qərara aldı. Həmin ilin payızında Bakı Rabitə Texnikumuna daxil oldu. Bir ay təhsil almamış Vətənimizin üstünü qara buludlar aldı. Topxana meşəsi ermənilər tərəfindən qırılır, yerlə yeksan edilirdi. Dağdan enən çobanlara atəş açır, qoyun sürülərini ələ keçirir, çobanları öldürürdülər. Uzun zaman dinc yanaşı yaşayan Azərbaycan kəndlərinin narahat günləri başlandı. Vətən təhlükədə idi. Cəbrayıl elə həmin ilin payızında təhsilini yarımçıq quyub respublika hərbi komissarlığının hərbi xidmətə dəvətini qəbul etdi. Göytəpə qəsəbəsində yerləşən hərbi qarnizonda gizir rütbəsində xidmətə başladı. Azərbaycan Milli Ordusu yarananda birinci olaraq Milli Ordu sıralarına qəbul edildi.

1992-ci ilin 9 sentyabrından 21 oktyabra qədər onun başçılıq etdiyi dəstə Ağdam, Füzuli, Laçın bölgələ-

rində azğın düşmənə qarşı döyüş əməliyyatlarında iştirak etdi. Xocavənd rayonunda bir neçə yüksəkliklərin ələ keçirilməsində, Laçın rayonunun onlarla kəndinin azad edilməsində yaxından iştirak etdi. Laçın dəhlizinin nəzarət altında saxlanılmasında xüsusi qəhrəmanlıq göstərdi. Ən qaynar nöqtələrdə döyüşən təcrübəli taqım komandiri dəhlizdən ötən düşmən karvanının darmadağın edilməsində xüsusi fəallıq göstərmişdir.

Cəbrayıl Ağayev rəhbərlik etdiyi dəstə ilə Zəngilanın və Kəlbəcərin bir sıra kəndlərinə düşmənin vəhşicəsinə basqının qarşısının alınmasında xüsusi ilə fərqlənmişdir. Onun dəstəsi bu döyüşlərdə düşmənə sarsıdıcı zərbələr endirərək düşməni geri çəkilməyə məcbur etmişdir. Vətənin qəhrəman övladı 01 yanvar 1993-cü ildə qəhrəmancasına şəhid olmuşdur.

Ağayev Cəbrayıl gözəl insan, həqiqi dost, mehriban ailə başçısı, qayğıkeş ata idi. Onun 3 yaşında Teymur, 2 yaşında Seymur adlarında iki övladı var. Vətən onun xidmətini heç vaxt unutmayacaq. Əminik ki, övladları atasının davamçısı kimi Vətəni sevən, mərd bir oğul kimi böyüyəcəkdir.

**T.MEHDİ**
***"Cümhuriyyət" qəzeti,***
***28 may 1993-cü il.***

## ANALAR ANAR AĞLAR

1993-cü il. Faciələrlə dolu olan bu ildə neçə-neçə ər oğulun ömrünə son qoydu amansız müharibə. 1993-cü ilin ilk səhəri Şivlə kəndində Atamalı kişinin ailəsində ah-nalə ilə açıldı. Dörd il Əfqanıstan müharibəsinin od-alovundan keçmiş Cəbrayıl Ağayev Qarabağ döyüşlərində qəhrəmancasına həlak oldu.

Vətən yolunda canını fəda etmiş Cəbrayıl Vətən üçün iki oğul, bir də onlara pasiban bir ana qoyub getdi. Ancaq amansız fələk qoymadı yaşamağa Səbzə bacını. Hər dəfə oğlanları atalarını soruşanda cavab verməyə çətinlik çəkən Səbzə Cəbrayılın ölümündən iki ay sonra həyata göz açmış onun son yadigarı Səidənin həsrət dolu baxışlarına dözə bilməyib üz tutdu qəhrəmanına sarı...

Oktyabrın on altısı. Cəbrayılın ölümündən düz 9 ay sonra Şivlə əhli ayrılıq dərdinə dözə bilməyən Səbzəni də son mənzilə yola salır. Ölüm adlı bir sonluğa inanmayıb könül həmdəminin nə vaxtsa geri dönəcəyini gözləyə-gözləyə tərk etdi bu həyatı. Bəlkə, Teymurun "Cəbiş nə vaxt gələcək? Cəbiş hara gedib?" suallarından canını qurtarmaq istədi Səbzə. Bəs bu gün artıq qoşalaşmış bu suallara kim cavab versin, kim?..

Bu gün Şivlədə cavan övlad itirmiş iki ata qocalır. İki ana göz yaşı axıdır iki övladına. Bu gün Şivlədə üç övlad böyüyür, hər şeydən xəbərdar, heç nədən xəbərsiz. Hər gün "ana, Cəbiş hardadır?" soruşan Teymur "ana

atanı gətirməyə getdimi?" soruşur heç nədən xəbərsiz.

Aman Allah! Taleyin nə acı qisməti varmış? Şair Qədiməli Əhməd Cəbrayıl haqqında bir yazısında:

***Ağla ürək, bu gün zaman***
***ağlayır,***
***Baxışlara çökən duman***
***ağlayır,***
***Uçan quşlar qanadını***
***saxlayır,***
***Bu nə ağrı, nə zülümdür,***
***ay Allah!***

-deyəndə, bəlkə, heç xatirinə gətirməzdi ki, bu ağrı, bu zülümdən də ağır zülüm olarmış.

Bu hadisəni eşidəndə xatirimə 90-cı ilin Qara Yanvarı düşdü. İlhamın ölümünə tab gətirə bilməyən Fərizə həmin an öz ömrünə son qoydusa, Səbzə Cəbişinin ölümündən sonra bətnində gəzdirdiyi onun son yadigarını dünyaya gətirmək üçün yaşadı və bu ayrılıq dərdindən şam kimi yandı. Yandı və neçə-neçə ürəkləri də yandırdı...

Bəxtiyar KƏRİMOV
***"Lerik" qəzeti,***
***30 oktyabr 1993-cü il.***

## KƏNDİMİZİN YOLLARI QAYITMADI SEVİNCLƏ...

*Kəndimizin çılpaq yolları*
*qaldı boylana-boylana,*
*baxa-baxa, gözləyə-gözləyə...*
*Yol qırağındakı tut ağacı da yetim kimidi.*
*Evlərin tutacağı ümiddi bir az...*

*Doxsan ikidə gedən əsgər qayıtmadı.*
*Doxsan üçdə doğulan ümid*
*öldü güllə yarasından...*

*Kəndimizin yolları*
*Qayıtmadı sevinclə....*
*Səbzə gəlinin həsrəti*
*donub qaldı gözlərində ...*

*Yollar öyrəncəlidi, gözlər kədərli,*
*Arzular çilik-çilik dağılıb yollara...*

***

O gün Cəbrayıl sonuncu döyüşə yola düşəndə övladları Teymurun iki, Seymurunsa bir yaşı vardı. Sonbeşikləri Səidə hələ doğulmamışdı. Övladlarını bağrına basdı. Səbzə gəlinlə son dəfə vidalaşdı:

-Uşaqlar sənə əmanətdi... Özünə də yaxşı bax, dünyanın işini bilmək olmaz, -dedi...

-Elə demə, -deyib, Səbzə göz yaşlarını ondan gizlətmək istədi, amma mümkün olmadı.

Cəbrayıl bunu hiss etdikcə içində bir hüzn yarandı, lakin büruzə vermədi. İstəmədi ki, Səbzə sarsılsın. Onun göz yaşlarını sildi, sinəsinə sıxaraq ayrıldı. Hərbi döyüş karvanısa gözləyirdi...

***

Cəbrayıl Ağayev həqiqi hərbi xidmətini 1985-ci ildə Əfqanıstanda başa vurmuşdu. İki il də müddətdən artıq xidmət etdi. 1987-ci ildə vətənə döndü. İki il General-leytenant H.C.Rəsulbəyov adına Bakı Rabitə Texnikumunda təhsil aldı. 1988-ci ildə Qərbi Azərbaycanda yaşayan vətəndaşlarımız dədə-baba yurdlarından zorla çıxarıldılar. Bu, Cəbrayılda belə bir fikir formalaşdırdı ki, belə vəziyyət iki respublika arasında gələcəkdə müharibəyə səbəb ola bilər. O zaman vətənimizdə döyüş hazırlıqlı zabitlərin gərəkliyi duyulacaq. O, götür-qoydan sonra Göytəpə batalyonunda işə düzəldi. Fikrində yanılmadı. 1990-cı ildə 20 Yanvar, 1992-ci ildə fevralın 25-26-da Xocalı faciələri baş verdi. Mənfur sovet qoşunları hər iki faciənin törədənləri, aparıcıları, ermənilər isə onların quyruqları oldular.

Cəbrayıl döyüş taktikasını əsgərlərinə öyrədirdi. Hər zaman onlarla əsl dost, sirdaş kimi rəftar edirdi. Lakin nizam-intizamda çox ciddi idi. O, əsgər nizamını, əs-

gər təmizliyini, sayıqlığı göz bəbəyi kimi qoruyur, onu pozanlara güzəştə getmirdi.

***

Kəlbəcər və Laçın dağlarında döyüşlər səngimirdi. Döyüş bölgələrindən hər gün ağır xəbərlər, şəhidlər gəlirdi. Demək olar ki, Vətənin sərhəd bölgələrində olan kəndlər yuxusuz gecələr keçirirdi. Torpaqlarımıza göz dikən həyasız düşmən hiyləgər havadarının təhriki və silah-sursat yardımlarıyla kəndlərimizi müntəzəm atəşə tuturdu...

Cəbrayıl Ağayev bir neçə il Əfqanıstanda xidmət etmişdi. Orada döyüş taktikasına yiyələnmiş, hərbin sirlərini öyrənmişdi. Bilirdi ki, qarlı-buzlu yollarda hərəkət etmək çox çətindir. Ancaq çətinlikləri dəf etməliydi. Döyüş dostlarıyla yalnız irəli getmək qərarını qəbul etdi.

92-ci ilin qışı çox sərt gəlmişdi. Dodaq çatladan şaxtalı-küləkli hava irəliləmək üçün əlverişsiz idi. Ancaq öndəki döyüş mövqelərində olan əsgərlərimizə dəstək lazım idi. Səngərlərdə vuruşan əsgərlərin azuqələri də bitmişdi. Lakin hələ də nəzarət, üstünlük bizim tərəfimizdə idi...

Dekabrın axır günləri idi. Göytəpə batalyonunun əsgərləri Laçının sərt qayalarında düşmənə qarşı ağır döyüşlər aparırdılar. Gizir Cəbrayıl Ağayev də döyüşçü dostlarının arasında idi. O, təchizat taqımının komandiri vəzifəsini icra edirdi. Qısa müddətdə öndəki döyüşçü dostlarının ərzaq çətinliyini aradan qaldırmalı, tabor

komandirinə məlumat verməliydi. Komandanlıq bilirdi ki, Cəbrayıl işinin öhdəsindən ləyaqətlə gələcək. O zaman taborun qərargah rəisi Hikmət Kərimov idi...

***

***Cəbhəyə yola düşəndə,***
***Hicran döymüşdü yolları.***
***Arxasınca uzanmışdı***
***Səbzənin uzun qolları...***

Cəbrayıl döyüşə gedəndə hərbi maşın karvanı gözdən itənə kimi Səbzə gəlin yol başında durub, arxasınca baxdı. Onun uzun qollar havada qalmışdı... Sanki ürəyinə əyan olmuşdu, bu son gedişdi, qayıdışı yoxdur. Ancaq yenə də səbrini basır, özünə ürək-dirək verirdi. Həm Cəbrayılı, həm Teymurla Seymuru, həm də hələ dünyaya gəlməyən körpəsini düşünürdü. Gecə-gündüz gözünə yuxu getmir, gecələrə, gündüzlərə keşik çəkirdi. Hər səsə qapıya çıxır, yol gözləyirdi. Cəbhədən acı xəbərlər gəlir, Cəbrayıdansa xəbər yox idi. Atası Surət kişi, qayınatası Atamalı kişi dəfələrlə Privolnoye kəndindəki evlərinə gəlib Səbzəni uşaqlarıyla Lerikə evlərinə aparmaq istədilər, razı olmadı. Onun həsrətinin gecə-gündüzü yox idi. Ürəyində çəkirdi hər şeyi Səbzə gəlin.

Bir gecə çox qorxulu yuxu gördü Səbzə gəlin. Yollar əjdaha kimi onun üstünə gəlirdi. Qorxurdu... Birdən Cəbrayılın yola çıxdığını gördü. Əjdaha ağzını açıb Cəb-

rayıla doğru gəlirdi. Səbzə gəlin Cəbrayıla tərəf qaçdı. Lakin kimsə onu arxaya çəkdi. Səbzə gəlin qışqırdı. Səsinə oyandı. Hər şey yuxuydu...

Həmin gün çox pis olmuşdu Səbzə gəlin. Düşünürdü: -İlahi, özün kömək ol! Bu necə yuxuydu, gördüm? İraq olsun... Darıxmağa başladı... Ancaq ürəyini göz yaşlarıyla ovundurdu Səbzə gəlin...

***

Dava çoxlarını ağlar qoydu. Heç kəsə aman vermədi. Həmin gecə Cəbrayılın qara xəbəri gələndə Privolnoye kəndi, bəlkə də, yuxuda idi. Təkcə Səbzə gəlin oyaq idi. Gözlərini qapıya dikmişdi. O qorxulu yuxudan sonra cox narahat idi. Ürəyinə nəsə olacağı dammışdı. Eyni açılmırdı. Xəyalları uçub yola qonmuşdu. Küləyin səsi də onu diksindirirdi. Ürəyi yarpaq kimi əsirdi. Balalarının yatağını yoxladı. Dünyadan xəbərsiz kimi mışıl-mışıl yatırdılar. Əyilib körpə sifətlərinə bir də nəzər yetirdi. Sanki bu iki balanın üzünə yetimlik qonmuşdu. Rəngləri solmuş körpələr isti yataqlarında üzü göylərə yatırdılar...

Küçədən gələn vahiməli səs Səbzə gəlinin dünyasını viran qoydu. Onun gələcək arzularını alt-üst etdi...

***

Cəbrayıldan sonra necə yaşayacaqdı..? Səbzə gəlin yanvarın kəskin soyuğuna dözürdü. Ayrılığın soyuğu isə

onun vücudunu üşüdürdü. O elə sanırdı, körpələri də ayrılığı duyur, üşüyürlər. Qolları ilə onların üstünü örtür, qucağına sıxır, əzizinin yadigarlarını canından çox qoruyurdu. Ancaq bilmirdi, ömrü zaman-zaman qısalır, son saatları addım-addım yaxınlaşır...

***

İndi Şivlə kənd qəbiristanlığında yanaşı iki məzar var. Başdaşlarından boylanan qoşa şəkillər bir sevginin iki yadigarıdır. Bura yolu düşən hər kəs burda yatanları hörmət və sevgi ilə anır...

***Qədiməli ƏHMƏD***
***Şair-publisist, AYB-nin üzvü***
***“Ədalət” qəzeti, 2022-ci il.***

## QƏFİL ZƏNG…

***1993-cü il. Yanvar ayı… Aramsız yağan qar… Və o gecə qəfil gələn zəng…***

…o gecə buludlar göy üzünə, qar yer üzünə ağ pərdə çəkmişdi. Sanki buludlar göydə, qarsa yerdə hansısa bir müdhiş sirrin üstünü örtərək gizlətməyə çalışırdı. Bəlkə də, şaxtalı, sazaqlı o qış gecəsində aramsız yağan qar öz səsboğucu sükunətində o qara xəbəri dibsiz bir səssizliyə yuvarlatmaq üçün dayanmadan çiləyirdi…

Bilmirəm, bu, göylərin yerlərə qəzəbi, yoxsa İlahi sirrin şəhid ruhlarına ağ – bəyaz salamıydı?!

Bu qar təbiətin şəhid ruhlarına geyndirdiyi ağ kəfən də sayıla bilərdi. Bəlkə də, Tanrı öz sevdiklərinə mərhəmətini belə ifadə edirdi…

O vaxt ucqar dağ kəndi olan Şivlədə - kəndimizdə bir neçə evdə telefon vardı, biri də bizdə idi. Sovet dövründən qalan telefon dirəkləri isə əksər hallarda tufanlı qış gecələrində yerə baş qoyar, paslı məftillər qırılıb-tökülərdi. Amma nə "sirri-xuda" idi ki, ölkənin ən ucqar dağlıq rayonunun dağ kəndində bu axşam telefonlar da işləyirdi. Sanki çürük telefon dirəkləri və paslı məftillər də bu qara xəbərə qulaqlarını dikmişdilər…

**Və budur o gözlənilməz qəfil zəng…**

Qonşu kənddən xəstəxananın baş həkimiydi: Sabir doktor. Atamla qısaca nəsə danışdı. Bu zəngdən sonra atamın rəngi qaraldı. Biz sonradan dərk edəcəkdik ki, bu qısa telefon danışığı uzun bir ayrılığın xəbərçisiymiş…

Bu zəngdən sonra bütün ailə atamın başına toplaşdı, sorğu-suala başladıq. Sadəcə, bir kəlmə dedi: "Cəb-

rayıldan “qara” xəbər var”.

Mənim onda 11 yaşım vardı, amma hamısını xatırlayıram: atamın ani geyinib evdən çıxdığını da, həyətdə az qala bir metrə çatan qarın içinə bir neçə dəfə yıxıldığını da...

Bu qara xəbər bütün kənd üçün gözlənilməz idi, hər kəs faciənin nə qədər ağır olduğunun fərqində idi. Ona görə də səhərə qədər bütün kənd oyaq qaldı, yalnız həmin gecə Cəbrayılın ailəsinin heç nədən xəbəri olmadı...

Bəlkə də, həmin an onun balaca Teymuru, Seymuru yuxunun hansısa qatında mışıl-mışıl uyuyurdu.

Amma indi bu ad hər kəsə yaxşı tanışdır - I Qarabağ savaşının şəhidi, Azərbaycan ordusunun giziri Cəbrayıl Ağayev.

O, 1993-ci il yanvarın 1-də Laçın və Kəlbəcər istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu. Heç bir il çəkmədi ki, həyat yoldaşı da onun yoxluğuna dözməyib bu dünya ilə vidalaşdı. Hətta deyərdim ki, çox sevdiyindən Cəbrayıla qovuşmağa can atdı.

Biz sonrakı illərdə Cəbrayılı həm onun, həm də bizim oxuduğumuz Biləvər kənd orta məktəbinin adı ilə xatırlayacaqdıq: **Lerik rayonu Cəbrayıl Ağayev adına Biləvər kənd orta məktəbi...**

30 ildir ki, o məktəbdə qara çərçivəli bir xatirə lövhəsi asılıb. O lövhədən isə Cəbrayılın gülümsər çöhrəsi bir məmləkətin gələcəyinə boylanır. O, sadəcə, bir xatirə lövhəsi deyil, bir şəhidin keçdiyi ağır döyüş yolu və həyat hekayəsinin əksidir…

**Şəmşad AĞA**

## CƏBRAYILIN YANINA TƏLƏSDİ

Mən onunla bir neçə dəfə görüşmüşdüm. Lerik şəhərinin Nizami küçəsi ilə addımlayan məğrur baxışlı əfqan döyüşçüsü ilə özüm tanış olmuşdum. O, mənə Sovetlər Birliyinin Əfqanıstandakı məhdud qoşun kontingentinin tərkibində dörd il xidmət edərkən keçdiyi ağır və üzüntülü döyüş yolundan maraqlı xatirələr söyləmişdi. Cəbrayılın xidməti qiymətləndirilmiş, mükafatlara, medallara layiq görülmüşdü. Qazaxıstanda altı aylıq kursu başa vuran kimi onu Əfqanıstana göndərdilər. Burada döyüş tapşırıqlarını yerinə yetirirdi. Xidmətləri **"Əfqan xalqından təşəkkür", "Döyüşdə fərqlənməyə görə", "Mərdliyə görə"** və s. medalları ilə təltif edilmişdi. Ən böyük sevinci, aldığı mükafat isə sağ-salamat Vətənə, ailəsinin yanına dönməsi idi...

Cəbrayıl Əfqanıstanda olduğu illər ərzində bərkə-boşa düşmüş, əsl həbçi kimi formalaşmışdı. Xidmət müddətindən artıq qulluq edən Cəbrayıl Ağayev barədə kitab yazmaq, film çəkmək, dastan qoşmaq azdır. Təmkinli, qeyrətli, sözübütöv, Vətəni hədsiz sevən qorxmaz fədai, el-oba ilə nəfəs alan bir igid idi. Heç vaxt gördüyü işin əvəzində kimdənsən "sağ ol", "təşəkkür" gözləməzdi. Elədiklərini özünə borc bilirdi. Müharibədən sonra ailə qayğıları ilə yaşamaq, körpələrini böyütmək, el-obanın dərdinə yanmaq istəyirdi. Milli Ordu quruculuğunda fəal iştirak etmək üçün onun da bir müddət hərbi qulluqda olmaq fikri vardı. Hələ torpaqlarımızda "daş", "tüfəng" davası gedən ərə-

fədə deyirdi ki, arxalı köpəkləri torpaqlarımızdan vurub çıxartmaq üçün Azərbaycana mütləq nizami ordu, peşəkar döyüşçülər lazımdır.

Cəbrayıl Ağayev 1964-cü ilin yayında Şivlə kəndində anadan olub. Məktəbdə təhsil aldıqdan sonra dörd il Əfqanstanda xidmət edib. Əsgərlikdən sonra Rabitə Texnikumunu bitirib. Texnikumu bitirib Privolnoye qəsəbəsində yerləşən 741 saylı tank alayında hərbi qulluğa başlayıb. Baş gizir kimi 1993-cü ilə kimi orada xidmət edib. Azərbaycanın Qarabağ ərazisinə ermənilərin təcavüzü, suverenliyimizə qəsdi, soydaşlarımızın yurd-yuvasından didərgin salınması, şəhidlərin qisasının alınmaması Cəbrayılı hər gün düşündürürdü. O, könüllü olaraq Qarabağın müdafiəsinə qalxdı.

Cəbarayılın döyüş yolu Şuşa-Laçın, Kəlbəcər, Füzuli bölgələrindən keçib. Qanlı vuruşmalarda dəfələrlə ölümlə üz-üzə gəlsə də, heç kəsə demirdi. Bircə şair əmisi Qədiməli Əhmədə hərdən sirlərini açardı. Gənc bir əsgəri güllə yağışı altından necə çıxarıb, ona ikinci həyat bəxş etməsini tez-tez xatırlayardı.

1993-cü ilin yanvar ayının 1-i idi. Kəlbəcərdə yeni döyüş mövqelərinə yollanan maşın karvanının önündə Cəbrayıl Ağayevin olduğu maşın gedirdi. Düşmənin atdığı "qrad" mərmisi həmin maşına dəyərək onu partlatdı. Maşındakıların hamısı, eyni zamanda Cəbrayıl Ağayev də qəhrəmanlıqla şəhid oldu. Şair dostum Qədiməli Əhməd 29 yaşlı şəhid qardaşı oğlu Cəbrayılın keşməkeşli taleyi barədə "Gözlər yol çəkir" adlı poema yazıb çap etdirmişdir. Əsərdə Cəbrayılın parlaq obrazı-

nı görürük, onun hiss və həyəcanlarını duyuruq, müharibənin acı nəticələrinə təəssüfənirik.

Cəbrayıl Əfqanıstanda keçən günlər barədə gündəlik yazmışdı. Nələr yoxdu bu gündəlikdə? Gündəlikdə belə bir cümlə yazmışdı: “Əfqanıstanda keçirdiyim günləri heç vaxt unutmaram. Hərdən düşünürəm: Sovet rəhbərliyi tərəfindən Əfqanıstana göndərilməyimiz bizə lazım idimi?”

Son döyüşdən qabaq Cəbrayıl kəndə gəlmişdi. Oğlanları Teymur və Seymur üçün bərk darıxmışdı. Cəbrayıl yenidən döyüş meydanına yola düşərkən ömür-gün yoldaşı Səbzə ona demişdi: “Cəbiş, özündən muğayat ol. Gündə bir xəbər gəlir, balalarını düşün...” Səbzəni yandıran ciyərparası Teymurun “Cəbiş haçan gələ-cək, axı, Cəbiş hara gedib?” suallarına cavab tapa bilməməsi idi. Əvəzində göz yaşları yaz yağışı kimi yanaqlarına süzülür, uşaqları soruşduqları sözə peşman olurdular.

Cəbrayılın ölümündən iki ay sonra Səbzə onun son yadigarını dünyaya gətirdi. Qoynunda gəzdirdiyi Səidəni həyata gətirmək üçün yaşayırmış. Sonra da körpənin baxışlarına dözə bilmədi. Bir yandan da Cəbişin dərdi saraldıb-soldurdu onu... Səbzə bacımız da Cəbrayılın yanına tələsdi, ona qovuşdu. Şəhid ərinin dərdindən o özü də şəhid oldu: İlhamın məhəbbətinə qurban getmiş Fərizə kimi...

**İdris Şükürlü**
***Əməkdar jurnalist***
***“Lerik” qəzeti, 2022-ci il.***

## TARİXİN ŞAHİDİ...

Şeyx Məhəmməd Xiyabani deyirdi ki, amal uğrunda ölmək əbədi yaşamaqdır. Əbədi yaşamaq isə yaddaşlara köçmək, tarixə çevrilmək və həmişə xatırlanmaqdır. Cəbrayıl da öz qısa və mənalı həyat yolu, qəhrəmanlığı ilə yaddaşlara həkk olundu, tarixə çevrildi və Birinci Qarabağ savaşının bir səhifəsi oldu.

Hər zaman düşünmüşəm ki, Cəbrayılın qəhrəmanlıqla dolu həyat yolu bir roman mövzusudur. Yalnız hansısa film və roman onun xarakterini ən incə çalarları ilə təsvir edə bilər...

Onun həm uşaqlıq, həm də gənclik illəri gözümün önündən bir film lenti kimi keçir. Uşaqlıqdan çılğın idi, hər zaman axtarışdaydı. Orta məktəbdə oxuduğu illərdə olduğu kimi gənclikdə də çılğınlığını saxlamışdı, amma istiqanlı və səmimiyyəti ilə də hər kəsin sevimlisinə çevrilmişdi.

Cəbrayılı fərqləndirən cəhətlərdən biri, bəlkə də, birincisi məsuliyyətli olması idi. Hər işə məsuliyyətlə yanaşardı. Heç vaxt dərsə hazırlıqsız gəlməzdi. Çox diqqətcil şagird idi. Verilən suallardan da yayınmazdı. Xarakterindən irəli gələn bu məsuliyyət və intizam, bəlkə də, onun gələcəkdə hərbçi kimi yetişməsində əsas rol oynadı. Dürüst idi, çalışardı ki, bildiyi hər şeyi dəqiq danışsın.

Cəbrayıl qaynar təbiətə malik uşaq olsa da, müəllimlərinə, özünədn böyüklərə, ağsaqqallara yüksək hörmət göstərərdi. Mən ona 10-cu sinfə qədər dərs dedim. Gözlə-

rinin dərinliyində həmişə gələcəklə bağlı axtarışlar görərdim. Bir müəllim təxəyyülü ilə hiss edirdim ki, o, gələcəkdə tam fərqli bir insan ola bilər...

Hərbi xidməti də sakit keçmədi. 1983-87-ci illərdə Əfqanıstanın qanlı-qadalı illərində 4 il orada xidmət etdi. Bu, onun bir hərbçi kimi yetişməsində böyük rol oynadı. Özü danışardı ki, Əfqanıstanda Sovet ordusunun əsgəri kimi xidmət etsə də, günahsız, mülki insanların incidilməsinə imkan verməzdi, bacardıqca onlara dəstək olmağa çalışırdı. Əsgər yoldaşları və komandirlərini də inandırmağa çalışardı ki, insanlıq bütün müharibə və fəlakətlərin qarşısını alan ən böyük silahdır.

Hərbi xidmətdən gələndə məni də unutmamışdı. Mənə bir avtoqələm gətirmişdi. İndi də dəyərli və qiymətli bir xatirə kimi saxlayıram.

90-cı illərdə - Birinci Qarabağ müharibəsi başlayanda bir çox vətənpərvər zabit kimi Cəbrayıl da Vətənin taleyinə biganə qala bilmədi. Heç o xarakterdə olan bir şəxs istəsə belə, bu ədalətsiz işğala biganə qala bilməzdi də. Şərəfli bir döyüş yolu keçib Cəbrayıl.

Keçdiyi döyüş yolu uzun illər əfasanəyə çevrilmişdi. Təsadüfi deyil ki, Qarabağ savaşının əfsanəvi döyüşçülərindən olan Cəbrayılı əsgərləri və zabit yoldaşları "döyüşdə əsgərdən öndə gedən komandir" kimi xarakterizə edirlər...

Onun şəhadətə qovuşması xəbərini öncə mənə verdilər – 1993-cü ilin qarlı bir qış gecəsi - yanvarın 1-də. Həm bir müəllim, həm də əmi kimi sarsıldım. Çünki Cəbrayıl kimi oğullar evdən yox, eldən gedirlər. Amma bir

təskinlik də vardı ki, Cəbrayıl sevdiyi, uğrunda hər zaman ölməyə hazır olduğu Vətənini düşməndən qorumaq və işğaldan azad etmək üçün şəhidlik məqamına ucalmışdı. Bu həm də bizim ona təbliğ və tədris etdiyimiz, aşıladığımız vətənpərvərlik ruhunun gerçəkləşdiyi bir məqam, tarixə şahidlik edən qəhrəmanlıq salnaməsi idi.

Cəbrayılın şəhadətindən 29 il ötür. İndi artıq Cəbrayıl bizim üçün bir dərs, imtahan mövzusu, gələcək nəsillərə örnək göstərəcəyimiz istinad nöqtəsinə çevrilmişdi. Çünki şəhidlik elə bir zirvədir ki, onu hər adam fəth edə bilmir. Təsadüfi deyil ki, müqəddəs dinimiz şəhidin qanını alimin mürəkkəbi ilə müqayisə edir...

Cəbrayıl da öz qanıyla adını Vətən göylərinə yazaraq, hər səhər üfüqdən boylanan günəşə, qəlblərdə əbədi məşələ dönmüşdü. O, kəndimizin ilk şəhidi olmaqla yanaşı, həm də amal uğrunda savaşın şahidi idi...

**İslam AĞAYEV**
***Cəbrayıl Ağayevin Azərbaycan dili və ədəbiyyat müəllimi.***
***"Yurd" jurnalı, 2022-ci il.***

## ƏBƏDİYAŞAR DOST,
## VƏTƏN QƏHRƏMANI...

Mən eşidəndə ki, Xalid müəllim Birinci Qarabağ Müharibəsində şəhid olmuş Cəbrayıl Ağayev haqqında kitab yazır, Cəbrayılın uşaqlıq dostu kimi onun haqqında xatirələrimi bölüşməyi borc bildim. Biz bir sinifdə oxumasaq da, bir yerdə çox günlərimiz keçib.

Yaşadığımız ərazi kənd yeri olduğundan əhalinin ən çox məşğul olduğu sahə heyvandarlıq və əkinçilikdir. Bizim ailələrimiz də bu işlərlə məşğul olduğundan biz uşaq vaxtı Cəbrayılla bir yerdə qoyun-quzuya gedərdik. Demək olar ki, günlərimiz bir yerdə keçərdi.

Mən öz həyat təcrübəmə əsaslanaraq deyirəm ki, qəhrəmanlar, doğurdan da, anadan qəhrəman kimi doğulur. Cəbrayıl da belə oğullardan idi. Qoyun-quzuya gedəndə həmişə öz ağacına ip bağlayıb silah kimi boynundan asardı. Ağacdan müxtəlif cür silahlar düzəldərdi. Həmişə də deyərdi ki, gəlin, dava-dava oynayaq. Bizdən böyük uşaqlar da olardı bizimlə. Bir anın içində Cəbrayıl elə hərəkətlər edərdi, hamı onun bu hərəkətlərinə, sözün yaxşı mənasında, məəttəl qalardı.

Orta məktəbdə oxuduğumuz dövrlərdə bizdə məktəbdə ucadan oxular təşkil edilərdi. Cəbrayıl həmişə vətənpərvərlik mövzularına üstünlük verərdi. Həm də o, vətənpərvərlik mövzusunda yazılmış yazıları ürək yanğısıyla, qiraətlə elə oxuyardı, elə deyərdi ki, hamı zövq alardı.

Bir xüsusiyyəti də vardı Cəbrayılın, yanından kimsə keçəndə əsgər salamı verərdi ona və dodaqaltı gü-

lümsəyərdi. Özünəməxsus xırda gülüşü vardı Cəbrayılın. Orta məktəbi bitirdikdən sonra Əfqanıstanda hərbi xidmətdə oldu. Xidməti bitdikdən sonra da müddətdən artıq qaldı orada. İki il əlavə xidmət etdi.

Mən ondan sonra getmişdim hərbi xidmətə. Hərbi xidmətdən qayıdanda uşaqlıq dostlarımdan ilk yanıma gələn Cəbrayıl oldu. Məzuniyyətə gəlmişdi o da. Hal-əhval tutduq.

Soruşdum, orada xidmət necədir?

-Dedi, yadındadır, uşaqlıqda həmişə oynayardıq?

Nə dediyini başa düşdüm. Allah səni qorusun! –dedim.

-Narahat olma, -dedi. Yaman günün ömrü az olar...

Cəbrayıl Əfqanıstandan sağ-salamat qayıtdı. Kənd adamları onun qayıdışına sevinirdi. Axı orda da Cəbrayıl döyüşür əfqan xalqına kömək edir, asayişi qoruyurdu.

80-ci illərin sonu, 90-cı illərin ilk illərindəki məlum hadisələr vətən övladlarını düşündürməyə bilməzdi. Onda Cəbrayıl Göytəpə polkunda xidmət edirdi. Artıq erməni quldur dəstələri torpaqlarımıza təcavüz edəndə Cəbrayıl da hər bir vətənpərvər gəncimiz kimi torpaqlarımızın müdafiəsinə qalxdı. Birinci Qarabağ Müharibəsində iştirak etdi və şəhid oldu...

Məkanı cənnət olsun, qardaşımızın.

Bir dəfə Cəbrayılın döyüş yoldaşı ilə yol yoldaşı olduq. Böyük fəxrlə onun qəhrəmanlığından danışdı. Dedi ki, Cəbrayıl döyüşə gedəndə heç əliboş qayıtmazdı. Qayıdanda da döyüş yoldaşları onu əllərinin üstündə o qədər atıb-tutardılar, ta ki, yorulana qədər. Doğrudan,

mən eşitdiklərimdən qürur hissi keçirirdim.

İndi də qürur duyuram ki, Cəbrayıl Ağayevin adını daşıyan bir məktəbdə müəllim işləyirəm. Hər dəfə məktəbə daxil olanda Cəbrayılın şəkli və adı həkk olunmuş lövhəyə gözüm sataşır. Allah sənə rəhmət eləsin, məkanın cənnət olsun qəhrəmanım. Sən ölməmisən, həmişə qəlbimizdə yaşayacaqsan, -deyirəm.

**Cəbrayıl RÜSTƏMOV.**
***Cəbrayıl Ağayev adına***
***Biləvər kənd tam orta***
***məktəbin müəllimi.***

## ƏBƏDİYYƏT ÜNVANLI ŞƏHİD

Eşidəndə ki, Cəbrayıl haqqında kitab yazılacaq, çox sevindim. Çünki yaşadığı qısa ömür çərçivəsində özü haqqında hər kəsdə müsbət fikir formalaşdırmağı bacaran bir insan idi. Onu tanıyan hər kəs onun haqqında tərəddüd etmədən saatlarla xoş sözlər, xatirələr danışa bilər. O qədər səmimi, mehriban insan idi ki, hər kəsin qəlbinə yol tapa bilirdi. Böyüklə böyük kimi, kiçiklə kiçik kimi davranmağı bacarırdı. Həmsöhbət olduğu insanların sevincinə sevinər, kədərinə şərik olardı. Hamı ilə dil tapa bilirdi.

Çoxları onun mülayim təbiətli insan olduğunu görüb, onun gələcəkdə belə bir qəhrəman olacağına, bəlkə də, inanmazdılar. Amma mən onunla uzun müddət yoldaşlıq etdiyim üçün içindəki temperamenti, çılğınlığı yaxşı bilirdim. Bilirdim ki, o gələcəkdə hər kəsin tanıdığı bir insana çevrilə bilər.

Cəbrayıl məndən yaşca böyük olsa da, bizim həm uşaqlığımız, həm də ilk gənclik illərimiz bir yerdə keçib. Onun hər xasiyyətinə bələd idim. Məndən heç sir saxlamazdı. Uşaq vaxtı analarımızın toxunma palazdan tikdiyi kiçik heybəyə çöldə yemək üçün müxtəlif qidalar qoyub quzu otarmağa gedərdik. Hərdən rəhmətlik anam məni onlarla getməyə qoymazdı. Mən onlardan yaşca kiçik olduğum üçün anam qorxardı ki, uşaqlar məni incidər. Ancaq Cəbrayıl təkidlə onu inandırardı ki, narahat olmasın. -Mən burdayam, xala, narahat olma. Mənim yanımda heç kim ona söz deyə bilməz, -deyərdi. Və beləcə anamı arxayınlaşdırıb məni də özü ilə

apardı.

Kəndimizin ətrafında örüş sahəsi çox idi. Biz axsama kimi quzulara nəzarət edə-edə müxtəlif oyunlar oynayardıq. Cəbrayıl uşaqlardan həm səliqəli, həm də bacarıqlı idi. Həm də onun yaxşı əl qabiliyyəti var idi. O, palçıqdan heç kimin bacara bilmədiyi şəkildə maşın fiqurları düzəldərdi. Uşaqların hamısı istəyərdi ki, Cəbrayıl onlar üçün də maşın fiquru düzəltsin. O da heç kimin qəlbini qırmazdı. Bir-bir hamı üçün düzəldərdi. Cəbrayıl həm də taxtadan və simdən gözəl maşın fiqurları düzəldərdi.

Cəbrayıl olan yerdə heç vaxt dava-dalaş olmazdı. Hamının arasında mehribançılıq yaratmağı bacarardı.

80-ci illərdə futbol oyunu kəndimizdə də populiyar idi. Tez-tez futbol oynamağa gedərdik. Kəndimizlə üzbəüz meşənin ətəyində "Panavandon" deyilən otlaq sahəsi var. Düzənlik olduğu üçün futbol oynamağa əlverişli yerdir. Həmişə orda oynayardıq.

Cəbrayıl futbol oynamağı o qədər də sevməzdi. Ancaq bizim təkidimizlə oynamağa razılıq verərdi. Çox vaxtı mənimlə bir komandada oynayardı. O müdafiədə, mən isə hücumda olardım. Rəqib oyunçular bizim qapıya tərəf yaxınlaşanda topu elə zərbə ilə vurardı ki, top meydançadan çıxardı. Bir neçə dəfə olmuşdu ki, topu komanda qarışıq meşədə axtarmalı olmuşduq. Ondan xahiş edərdik ki, topu bir az yavaş vursun. Hamı onun ayağının gücünə bələd idi.

Bu yaxınlarda sosial şəbəkə səhifəmə Cəbrayıl ilə çəkdirdiyimiz bir şəkil göndərilmişdi. O şəkildən mənim öz arxivimdə də var idi və mən həmişə o şəkillərə

baxanda həmin illəri xatırlayırdım. Sosial şəbəkədə o şəkli görəndə daha çox xəyallara daldım. Bir anlıq hər şey gözümün önündən kino lenti kimi keçdi. Şəkildə o illərin dəbi ilə geyinmiş, gələcəyə nikbin baxışlı, kim bilir ürəklərində hansı xoş arzuları olan iki gənc oğlan dururdu. Çox kədərli hisslər keçdi qəlbimdən. Çünki nə o dəbli geyimdən, nə də o gənclikdən əsər-əlamət qalmamışdı. Ən əsası isə Cəbrayıl artıq həyatda yox idi. Çox təəssüf... Cəbrayıl həyatdan gedəsi oğul deyildi...

O şəklin tarixçəsi soruşulurdu məndən. Mən zarafatla, - o şəklin tarixi çox qədimlərə çıxır, bizim eradan əvvəl 1988-ci il, -demişdim. Sonra biləndə ki, o şəkil yazılacaq kitabın xatirə şəkillər bölümünə salınacaq, mən ətraflı məlumat verməyə başladım. Çünki o şəklin də çox maraqlı tarixçəsi vardı...

1988-ci ilin iyun ayı idi. Sovet ordusu sıralarından yenicə tərxis olunmuşdum. Bakıya, ali məktəbə sənəd verməyə gəlmişdim. Bakı metro stansiyalarının birinin qarşısında təsadüfən rastlaşdıq. O vaxtı mobil rabitə olmadığı üçün kiminləsə hardasa vədələşib görüşmək bir az çətin idi. Biz görüşüb qucaqlaşdıq, hal-əhval tutduqdan sonra bir kənara çəkilib söhbət etməyə başladı. Çoxdan idi bir-birimizi görmürdük. Biz ikimiz də sovet hökumətinin "Beynəlmiləl" adlandırılan ordu kontingentinin tərkibində, Cəbrayıl Əfqanıstanda, mən isə Monqolustanda xidmət etmişdik.

Biz gəzə-gəzə dənizkənrı bulvara gedib çıxdıq. Şəkli də orada çəkdirmişdik. Xeyli söhbətdən sonra qərara gəldik ki, qohumların evində gecələməyək. Ona görə də mehmanxanaya gedib yer götürmək istədik. Ancaq biz-

dən hansısa sənəd tələb etdikləri üçün yer götürə bilmədik. Sonra Cəbrayıl dedi ki, xalam oğlu fəhlə yataqxanasında qalır. Gedək həm onula görüşək, həm də gecə onun yanında qalarıq. Biz razılaşdıq. Hələ axşama bir neçə saat qalırdı. Ona görə qərara aldıq ki, çimərliyə gedək. Və biz çimərliyə gedib axşam düşənə qədər qalan vaxtımızı orada keçirdik.

Biz yataqxanaya gələndə artıq hamı işdən qayıtmışdı. Cəbrayılın xalası oğlu bizi çox səmimi qarşıladı. Onun iş yoldaşları da bizim başımıza toplaşdılar.

Cəbrayıl Əfqanıstanda keçdiyi döyüş yolundan, orda baş verən qanlı-qadalı hadisələrdən xeyli söhbət etdi, biz də onu dinlədik. Söhbətimiz gecə yarısına qədər uzandı. Biz həmin axşam orada gecələdik. Səhər açılanda yenidən şəhərə çıxdıq, bir qədər gəzdikdən sonra görüşüb ayrıldıq. Cəbrayıl işiylə əlaqədar oxuduğu Rabitə Texnikumuna, mənsə universitetə getdim.

Mən həmin il universitetə qəbul olundum. Universiteti bitirdikdən sonra hazırda Cəbrayılın adını daşıyan Biləvər kənd məktəbində bir müddət tarix müəllimi işlədim. Cəbrayıl isə həmin vaxtlar Göytəpə polkunda işləyirdi. Qarabağ müharibəsi başlayanda Cəbrayıl da ön sıralarda idi. Qarabağ döyüşlərində göstərdiyi qəhrəmanlıqların sorağı gəlib çatırdı bizə. Bir gün isə Cəbrayılın şəhid olma xəbəri gəldi. O sevdiyi, ölməyə hazır olduğu torpaq uğrunda əbədiyyətə qovuşmuşdu. Runun şad olsun, əbədiyyət ünvanlı şəhid qardaş! Xatirən heç vaxt yaddaşımızdan silinməyəcək...

**Tofiq ƏLİYEV**

# ŞƏHİD CƏBRAYILA HƏSR OLUNMUŞ ŞEİRLƏR



## GÖZLƏR YOL ÇƏKİR

***Şəhid Cəbrayıl Ağayev və həyat yoldaşı Səbzənin əziz xatirəsinə***

I

Qırx beş ildi qəmli-qəmli baxışlar,
Sancılmışdı hicran yazan yollara.
Neçə oğul dönməmişdi davadan,
Qara xəbər qayıtmışdı ellərə.

Qırx beş ildi yol çəkirdi o gözlər,
Qara qaysaq bağlamışdı yaralar.
Diksinirdi eşidəndə bir xəbər,
Hələ oğul gözləyirdi analar.

Qırx beş ildi səngimişdi boz tufan,
Barıt iyi kəsilmişdi havadan.
Səmalardan çəkilmişdi boz duman,
Güllə səsi xatirəydi davadan.

Qapıları döydü yenə bəd xəbər,
Ölkəmizə qəfil düşən qara bax.
Namərd çapdı öz atını bir səhər,
Yad əllərə əsir düşdü Qarabağ.

II

Bir kənd tanıyıram,
Namərdin gözünə
ox kimi batan...
Şivlə yol gözləyir dağlar başında,
Qucub səmasını durna qolları.
Bir ana boylanır, göz yaşlarında,
Görünür alovlu hərbin yolları.

Bir kənd tanıyıram,
illərə yoldaş,
Yağdı sinəsinə zamanın qarı.
Neçə illər ötüb,
qəmdən-qubardan
Düşüb çiliklənib şən arzuları.

Hələ yol başında gözləyir ana,
İntizar əridib şux qamətini.
Çırpıb ağrısını baxışlarına
Vaxt alıb gözünün təravətini.

Durub pəncərədə baxır o, hər gün,
Onun vücudunda əriyir bir şam.
Oğlu bir ocağın Vətən eşqilə
Düşməni məhv edir, alır intiqam.

Bir kənd tanıyıram,
çinarlı bir kənd,
Dağların üstünə sərib qanadın.

Vətən çağırışına durub müntəzir,
Birinci sırada yazıb öz adın.

Kövrək xatirədi, canlı misaldı,
O baxışlar ki, var, o yollar ki, var.
Ana var, arzusu qəlbində qaldı,
Şəvə saçlarına düşdü bəyaz qar.

### III

Vətəndən uzaqda, dost ellərində,
Hərb yolları keçdi, taleyə bir bax.
Qayğısını çəkdi o, sədaqətin,
Vətən torpağına döndü üzüağ.

Yanı bağça-bağlı, elatlı yollar,
İgidli-ərənli, qıratlı yollar...
Dolandı boynuna sarmaşıq qollar
Obaya dönəndə igid Cəbrayıl.

Qayıtdı, könlündə sabaha inam,
Döndü xatirəyə ötən o dörd il.
Qəlbində cücərən körpə arzular,
Burda pardaqlandı, burda acıdı gül.

Onun Vətən adlı sonası gözəl,
Yaralı bir simdi köksündə Araz.
Qonşu çəpərinə göz dikən cəllad
Məkrli yolundan dönmədi bu yaz.

***

Bura göycə təpə,
Göytəpə polku...
Karvan yol başlayır ağır səfərə.
Tankların tırtıllı, qorxulu səsi,
Vahimələr salır kiçik şəhərə.

Sinəsinə sıxdı iki tərlanı,
Dedi:
-Yerdə qalmaz bir şəhid qanı.
Cəbrayıl ürəklə getdi döyüşə,
Onu gözləyirdi Xankəndi, Şuşa.

Yağı tapdağında Kəlbəcər, Laçın,
Yanırdı Vətənin torpağı, daşı.
Oba həsrətində qaçqın analar...
Eşqdən doğulurdu haqqın savaşı.

Bir köynək yaxındı ağrının özü,
Geymişəm əynimə,şəhid qardaşım.
Sonu zəfərsə də bu haqq savaşın,
İlk addımlarında durur göz yaşım.

Açıram gözümü,məzar görünür,
Düşmənə nifrətim soyuq silahdı.
Vətən torpağını darda saxlamaq
Vətən övladıyçün suçdu, günahdı.

Şərəflə başlandı yurdun savaşı,
...Tale yazısıdı, o, bir qədərdi.
İllərin qəmini sındırmaq üçün
Bu vətən torpağı çox sinə gərdi.

Öncə gül beşikdən
başlanır vətən...
Balalar böyüyür arzular ilə,
Sonra da keşikdən başlanır vətən.

Onun da eşqinin başı vətəndi,
Sevdiyi torpağı, daşı vətəndi...

***

Döyüşə atıldı o,
qanlı payız səhəri,
Azğın düşmən alayı
odlayanda şəhəri.
Onu irəli çəkən vətənin yollarıydı,
İgid əsgər Cəbrayıl
Babəkin qollarıydı.
Hər atəşlə tuşlanan nifrətini atırdı,
Yağının gözlərinə nizə kimi batırdı.

***

At çapdı, meydan suladı,
Yolda-izdə yuva saldı,

Kimlər getdi, kimlər qaldı?
Ağuşuna aldı dünya

Baxmadı ağ-qarasına,
Ürəklərin yarasına.
Neçə qonşu arasına
Nahaq qanlar saldı dünya.

Anaları ağlar qoydu,
Çox adama ahlar qoydu,
Ürəklərə dağlar qoydu,
İlan kimi çaldı dünya.

**IV**

Duman yaylığını yelləyir dağlar,
Torpağa atılıb yetim xəzəllər.
Yolların üstündə qan gölməçələr,
Belə olmamışdı payız əzəllər.

Burda yaralıdı Vətən torpağı,
Burda unudulur şöhrət də, var da.
Mərmilər uçurur qayanı, dağı,
Uçulur ürəkdə şən arzular da.

Qəhrəman əsgərin cəsarətilə
Uçulur başına düşmən səngəri.
Açılan güllələr dəyir hədəfə,
Qırır aşılmayan beton sədləri.

Yağır yer üzünə qəlpə yağışı,
Yol gedir dünyanın içində hiylə.
Hələ də atını çapır xəyanət,
Gəzir iblisanə öz xislətilə.

Səngərdə sayıqdı vətən əsgəri...
Vurulur uzaqdan iki maşın da.
Daşnak ordusuna o ağır savaş,
Çox baha oturur dağlar başında.

Hələ qələbələr olsa da uzaq,
Ümidlə köklənən soraqlar yaxın.
Güllə yağışında çimirdi Susdağ,
Bağrı çatlayırdı dərənin, dağın.

Alındı həlqəyə Mazıtlı kəndi,
Pozuldu qurulan düşmən səfləri.
O gün bir obanın gözləri güldü,
Bir kənd əsirlikdən alındı geri.

**V**

Uzanıb gedirdi cəbhə günləri,
Gecə səngimişdi döyüşlər bir az.
...Hər anın öz səsi, düşüncələri,
Ürək xatirəsiz, xəyalsız olmaz.

Ayrılıq saatı gəldi yadına,
Bağlıydı könlünün cüt qanadına...

Cəbhəyə yola düşəndə,
Hicran döymüşdü yolları.
Arxasınca uzanmışdı,
Səbzənin uzun qolları.

Səbzənin uzun qolları,
Havadan sallana qaldı.
Çatammadı Cəbrayıla,
Qaldı, yana-yana qaldı.

Bir qolu üstündə Teymur,
Dikilmişdi uzaqlara.
Bir qolu üstündə Seymur,
Qəm qonmuşdu yanaqlara.

**VI**

Durna göydə qatar-qatar...
Düşmən aldı neçə kəndi.
Dönməz geri, dönməz daha,
Görməz daha Xocavəndi.

Təbiətin qəm çağıydı,
Saralmışdı ağ qovaqlar.
Düşmən yurda qan salanda,
Ayaq açdı ayrılıqlar.

İllər ötür karvan kimi,
Sona çatıb bitməz yollar,

Əsir düşən Xocavəndə
Gedər yollar,
Getməz yollar.

Düzüm-düzüm qayaları,
İgidlərə səngər idi.
Xocavənd təslim olmadı,
Əsir düşən əsgər idi.

Baxışların qəmi dərin,
İllər bitdi nağıl kimi.
Kökdən düşdü ürəklərin,
Şən avazlı sarı simi.

Gəlir Qorqud öyüdülə,
Səflər pozan Qazan gəlir.
Qara donlu kafirlərə
Ölüm hökmü yazan gəlir...

**VII**

Dekabr... Şaxtalı-sazaqli günlər...
Göydən nifrət  yağır murdar qanına.
Mərmi yağışında bağrı sökülür,
Yağılar tüpür öz dabanına.

“İsti səngərlərdən” düşsə də qaçaq,
Yenə gizli-gizli o, çıxır ova.
Tapır xəyanətə təzə sığıncaq-
Gülablı altında qurur bir “yuva”.

Barısı uçulan bir qala kimi,
Keçdi əldən-ələ o günlər Laçın.
Kar olan dünyadan hesab istəyir
Ocağı sökülən minlərlə qaçqın.

**VIII**

Gözlər yol çəkirdi – ana gözləri,
Saralıb-solmuşdu gözün qarası.
Qəlbində dərd-kədər "çiçəkləmişdi",
Cəbhəyə getmişdi ciyərparası.

Onun gözlərində zülmətdi hər yan,
Onun baxışında borandı, qardı.
Saçları vaxtından tez bəyazlaşan,
Bir ana yollara həsrət baxardı.

Gözlər yol çəkirdi,
Səbzə gəlin də
Hər axşam baxırdı yollara sarı.
Cüt tərlan balanı əmanət kimi,
Basırdı bağrına qulac qolları.

Gözlər yol çəkirdi,
xəbəri yoxdu...
Həsrətin gecəsi, səhəri yoxdu,

Arzunun, xəyalın şəhəri yoxdu,
Gəzib dolaşırdı səngərbəsəngər.

Hicran yuva qurub hər addımbaşı,
Qonub yorğun-yorğun ötən yollara.
Ata intizarlı çocuq göz yaşı
Süzülür bükülən isti qollara.

### IX

Yuxusunda yol başladı,
Qışqırıb oyandı Səbzə...

Nağıl-nağıl röyalar var,
Oyaq qəlbin yaxasında.
Yollar dönür əjdahaya,
Çoxlarının yuxusunda.

Oğulları çəkən yollar,
Ümidlərə ələndi qar,
Boylanıb bir gözəl baxar,
Yox gözünün uyğusu da.

Göz yaşını səpərdi o,
Od içinə səkərdi o,
Hər ağrını çəkərdi o,
Ürəyini oxu, sına.

***

Gözlərində yuva quran,
Duman aldı ağ yolları.
Günlər yağdı saçlarına,
Vaxt-vədəsiz bəyaz qarı.

Canımızdan keçib gedir,
Ömrümüzdən keçib gedir,
Qanımızdan keçib gedir,
Bu dünyanın ağrıları.

Sevinclər üzdən dərilmiş,
Ümidlər qəlbdə ərimiş,
Nə biləydi bir dərd imiş,
Ürəyinin yoxu, varı.

O illəri varaqlama,
          ürəyində qəm sazaqlar.
O illərdən gözü yaşlı,
          analar boylanıb ağlar.

O illərin davası davalardan seçildi.
Çinar boylu oğullar
          biçim-biçim biçildi.
Oğul getdi, qayıtmadı,
Yolunu gözləyən ana qarıdı.
Ər getdi, qayıtmadı,
Sevgilisi şam tək yandı, əridi.

Səbzə gəlin yatammadı,
Gecələrə keşik çəkdi.
İntizarı atammadı,
Küçələrə keşik çəkdi.

Üşüdü öz qapısında,
Həsrətli göz qapısında,
Bir gecə düz qapısına,
Çapar gəldi qara xəbər.

Heyrətindən dil qurudu,
Əl uzatdı, əl qurudu,
Dövranı belə qırıldı,
Vurdu qəlbə yara xəbər.

O xəbərin qanadı qəm,
Çox qapını tanıdı qəm,
Ürəkləri sınadı qəm,
Çəkdi gözü dara xəbər.

Səbzənin dastanı bitdi yarımçıq,
Qəlbin sevinc anı bitdi yarımçıq...

Gözlər yol çəkirdi ocaq başında,
O həm üşüyürdü, həm də yanırdı.
O, tənha,
            düşünür son taleyini,
Elə düşündükcə vaxt uzanırdı.

O an xatırladır ötən günləri,
Gəlir gülərüzlü ürək həmdəmi.
Şirinli-acılı xatirələri
Yaşayır yenə də bir ömür kimi.

Taleyin qəzası, qədəri ağır,
Ömür əridənmiş ayrılıq dəmi.
Ölümsə fələyin damından yağır,
Qoparır həyatdan bir səda kimi...

***

Səssiz məzarstan...
Bir yaşıl təpə,
Sükut içindədir burda hər yarpaq.
Sanki ürəyinə dəyib min qəlpə,
Köksü yaralıdı bu yerdə torpaq.

Günəş qürub edir dağlar başından,
Səssizlik içində qarışacaq şər.
Kədərli görkəmdə qəbir daşından,
Baxır uzaqlara qoşa şəkillər.

Pərişan gözlərin dərdi bir araz,
Şəkillər nə demir donuq baxışla.
Qəlbimin yanğısı süzülüb gedir,
Gözümdən içimə sızan yağışla.

Əylənir buradan gedən yolçular,
Baxır başdaşların şəkillərinə.
Burda iki sevən durub üz-üzə,
Baxışlar tuşlanıb biri-birinə.

Qaysaq bağlamayıb yaralar hələ,
Dərd var, unudulan,
dərd var, el çəkir.
Bir ana yaşayır, baxır ümidlə,
Dikilib yollara,
gözlər yol çəkir.

***

Sən öz məktublarını
küləklərin səsinə,
kəpənəklərin qanadına yazdın,
Müjdə gətirdi yollar,
döyüşdə qalib əsgər.

Sən öz arzularını
əsarətdən qurtulan ağacların
yarpaqlarına yazdın,
önündə çökdü düşmən,
susdu bütün silahlar.

Sən öz ağrılarını
dağılan ocaqların

divarlarına yazdın,
düşmənə nifrətindən
zəfər himni doğuldu.

Sən öz ürək sözünü
yazdın yuxu bilmədən,
yol gözləyən bir qızın
arzuları gül açdı...

***

Baxıram yollara, gözüm böyüyür,
Saçımda əlinin sığalı, Vətən. Sinəmə
sığmayan dözüm böyüyür,
Qanlı yaraların sağalır, Vətən.

Sən Qorqud babamdan bir yadigarsan,
Səslə igidini, aç növrağını.
Silsin əsən yellər, yusun yağışlar
Müqəddəs yurdundan murdar yağını.

Hər qarış torpağın səngərmiş,demə,
Dağın da, daşın da sipərmiş, Vətən.
Gərilmiş sinələr gül-çiçək açıb,
Köksünə ətirlər səpirmiş, Vətən.

Durub yol başında gözləyəni var,
Əsgər libasını geyinir torpaq.
Ana laylasından igidilik əmən
Oğluyla, qızıyla öyünür torpaq.

Açıb sinəsini gümüşü çaylar,
Dolub misra-misra, yazıram, Vətən.
Şəlalə saçların ümid kimidi,
Öpüb, gözlərimə basıram, Vətən.

***

Əridi gözlərdə həsrət buzları,
Gəldi sevincli gün, şəhid qardaşım.
Müjdəylə qayıtdı elin baharı,
Daha gözün aydın, şəhid qardaşım.

Daha yollar gəldi qəmin sonuna,
Uçuldu, dağıldı xəyanət dağı.
İndi coşub-daşan qürur yeridi
Şuşanın üstündə zəfər bayrağı.

İndi zirvələrin günəşi parlaq,
Nə bəd külək əsir, nə qar görünür.
Düşmənin gözunə ox kimi batan
İgidli-ərənli yollar götünür...

*15-20 sentyabr 1996-15 noyabr 2020*

**Qədiməli ƏHMƏD**

## UCALIQ

***Şəhid Cəbrayıl Ağayevin***
***əziz xatirəsinə.***

Dağların qoynunda gəldi dünyaya,
Dağ kimi bərkidi, mətin böyüdü.
Hələ uşaqikən qaldı yadında,
Ata nəsihəti, ana öyüdü.

Ucalmaq eşqiylə yaşa doldu o,
Çinarlar boy oldu boyuna onun.
Sevdiyi bir qıza könlünü verdi,
Bütün el yığışdı toyuna onun.

Sevdi doğulduğu o doğma yurdu,
Sevdi bütövlükdə Vətənini də.
Baxıb keçmişinə ulu xalqının,
Tanıdı dostunu, düşmənini də.

Elə bir düşmən ki, - əsrlər boyu,
Xalqımın başına min oyun açdı.
İgid oğulların ər nərəsindən,
Axırda başını götürüb qaçdı.

Vətən torpaqları qan ağlayarkən,
Vətən oğulları döyüşə girdi.
Əlində silahı qorxu bilmədən,
Cəbrayıl hamıdan öndə gedirdi.

Qartaltək şığıdı düşmən üstünə,
Qanına boyadı neçə yağını.
Öpüb sinəsində gəzdirdi hər an,
Canından çox sevdi öz bayrağını.

Vətən eşqi ilə yandı, alışdı,
Ona qurban verdi öz həyatını.
Şəhidlik onun da qisməti oldu,
Tarixə əbədi yazdı adını.

Gün gəldi, zəfərlə döndü ordumuz,
Aldı düşmənlərdən torpağımızı.
Şəhidlərin qanı qalmadı yerdə,
Asdı Qarabağda bayrağımızı.

**Fail ALMAS**
***Şair.***

## AND YERİ

***Şəhid Cəbrayıl Ağayevin***
***əziz xatirəsinə***

İl doxsan ikiydi, vətən tuş gəldi,
Mənfur düşmənlərin hiylə-fəndinə.
Haraya çağırdı mərd oğulları,
Üz tutdu Lerikin Şivlə kəndinə.

Silaha sarılıb haya hay verir,
Oğullar səf durur vətən yolunda.
Koroğlu nərəsi, Babək qeyrəti,
Xətayi gücü var əsgər qolunda.

Cəbrayıl Ağayev mahir topçudu,
Dörd il xidmət edib Əfqanıstanda.
Teymuru, Seymuru qorumaq üçün,
Vətənin dadına çatır bu anda.

Laçına, Şuşaya salama gəlir,
İsti nəfəsilə əridir qarı.
Vətən öz oğlunu yaxşı tanıyır,
Sərir ayağına buz bulaqları.

Çox düşmən susdurur Laçın yolunda,
Cəsur Cəbrayılın top atışları.
Şeytandan, iblisdən yaranmışların,
Əzilir meydanda donuz başları.

Ağayev Cəbayıl - qəhəman igid,
Sadiq öz andına, məramına o.
Kəlbəcər uğrunda gedən döyüşdə,
Ucalır şəhidlik məqamına o.

Dünyaya göz açır üç aydan sonra,
Qəhəman igidin qızı Səidə.
Ana həsrətini unutsun deyə,
Gətirir baharı, yazı Səidə.

Amma ayrılığa dözə bilməyir,
Həsrətdən saralır həyat yoldaşı...
Bir eşq dastanıdır Şivlə kəndində,
And yeri olubdur bir cüt başdaşı.

**Faiq HÜSEYNBƏYLİ**
***Şair-publisist.***

## SON SÖZ ƏVƏZİ

*Söz-söz çiçəklədi Vətən kəlməsi,*
*Könlümün, gözümün qarası üstə.*
*Sərdim misra-misra arzularımı,*
*Torpağın qanayan yarası üstə.*

*Açma düyməsini bayraq yaxamın,*
*Sinəmin altında Xocalı yatır.*
*Oğul ağrısıyla, qız həsrətiylə,*
*Dərdi varaq-varaq qocalıb yatır.*

*Atam, vüqarına söyknmişəm mən,*
*Anam, saçındakı dənə qurbanam.*
*Səndən başlanan yol bitəcək səndə,*
*Bir Vətən ünvanlı sənə qurbanam.*

*Başını uca tut, şəhid atası,*
*Ölüm qabağında diz çöküb sənin.*
*Sənin əzəmətin, sənin vüqarın,*
*Ucalıq rəmzidir ulu Vətənin.*

*Məğrur sinəsini verib qabağa,*
*Şəhid nəğməsini oxuyan yollar.*
*Şəhid balasına müjdə aparır,*
*Qələbə ətrini qoxuyan yollar.*

*Qələbə haraylar Vaqifin ruhu,*
*Başlanıb bir ömür səfər Şuşadan.*

***Şəhid məzarları, şəhid ruhları,***
***Bizə əl eyləyir zəfər Şuşadan.***

Tanınmış türk şairi Mehmet Akif Ərsoy şeirlərinin birində deyir: -**Bastığın yerlərə "torpaq" deyərək keçmə, tanı: Düşün altındakı minlərcə kəfənsiz yatanı. Sən şəhid oğlusan, incitmə, yazıqdır atanı: Vermə, dünyaları alsan da, bu cənnət vətəni.**

Böyük Füzuli isə deyir ki:**Ya şəhid olmaq gərək, ya intiqam almaq gərək.**

Şəhidin özü bir Vətəndir elə. Bizim hər gün qarşısında təzim etdiyimiz Vətən... Torpaq da, qeyrət də, namus da, mənəviyyat da, insanlıq da, din də, iman da bu Vətənin içindədir. Vətənin müqəddəsliyini bütün varlığı ilə dərk edərək öz rahat həyatından, sevdiklərindən, ailəsindən vaz keçib ölümü gözə alan həmin insanların ruhları qarşısında hər birimizin bir can borcu var.

İllər öncə Vətənin canından qoparılan bir parçası məhz şəhidlərimizin müqəddəs qanıyla yenidən özünə qaytarıldı. Məhz illər öncə bu parçanı qoruyarkən şəhidlik zirvəsinə ucalıb Vətənə çevrilən canların övladları bu gün atalarının yarımçıq qalan işini sona çatdırmaqla özləri də Vətənə çevrildilər.

Zaman keçsə də, gələcək nəsillər onları hər zaman böyük minnətdarlıq duyğusu ilə yad edəcəklər.

Unutmaq lazım deyil ki, əgər Şəhidlər unudularsa, Vətən unudular! Vətənimizi unutmayaq!

## KİTABIN İÇİNDƏKİLƏR

Qəhrəmanlar diyarı Lerik ........................................................ 3
Şivlə - yurd yerim, doğma diyarım ........................................... 5
Bir ocağının izi ilə.................................................................. 19

## XATİRƏLƏRDƏ YAŞAYAN QƏHRƏMAN

Danışan şəkillər ...................................................................... 27
Xatirələrdə yaşayan qəhrəman ................................................ 81

## CƏBRAYIL AĞAYEV HAQQINDA MÜƏLLİF YAZILARI

Şəhid Cəbrayıl Ağayevin xatirə günü (H.Abbasov)................ 104
Yarı qönçə, yarı gül (Ş.Əlizadə).............................................. 106
Vətən uğrunda döyüşə hazır gəlmişdi (T.Mehdi).................. 107
Analar anar ağlar (B.Kərimov)................................................ 109
Kəndimizin yolları qayıtmadı sevinclə (Q.Əhməd)................ 111
Qəfil zəng... (Ş.Ağa) ................................................................ 117
Cəbrayılın yanına tələsdi (İ.Şükürlü) ..................................... 119
Tarixin şahidi (İ.Ağayev) ......................................................... 122
Əbədiyaşar dost, Vətən qəhrəmanı (C.Rüstəmov) ............... 125
Əbədiyyət ünvanlı şəhid(T.Əliyev) ........................................ 128

## ŞƏHİD CƏBRAYILA HƏSR EDİLMİŞŞEİRLƏR

Gözlər yol şəkir (Q.Əhməd).................................................. 133
Ucalıq (F.Almas) .................................................................... 150
And yeri (F.Hüseynbəyli) ...................................................... 152

Son söz əvəzi **............................................................... 154**

**Xalid Mahmud**
(*Ağayev Xalid Qədiməli oğlu*)

“DANIŞAN ŞƏKILLƏR...”

Çapa imzalanıb 28.02.2022
Formatı 60x84 1/16
Ofüst kağız №1
Fiz. çap. vər. 19
Tiraj 500

Kitab “APOSTROF-A“ nəşriyyatında
ofset üsulu ilə çap edilib.
E-mail: apostrof0706@gmail.com
Tel: +99412 432 51 04 / +99450 313 07 06